Xalqın qəzeti!
# Xalq qəzeti
№ 19 (30988) 31 yanvar 2026-cı il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan diplomatiyası ölkəmizə yüksək nüfuz və dostlar qazandırır

## Prezident İlham Əliyev Yunanıstanın yeni səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinunu qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə COP29 çərçivəsində ölkəmizdə, ötən ilin sentyabrında BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında, həmçinin digər beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladı, həmin görüşlər əsnasında ikitərəfli əlaqələrimizin müxtəlif aspektləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı, bu dialoqun münasibətlərimizin inkişafı üçün çox önəmli olduğunu dedi.

Ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən bu gün qlobal təhlükəsizlikdə mühüm amil olan enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiklərini deyən Azərbaycan Prezidenti gələcəkdə biznes nümayəndələri arasında daha çox temasların olacağına, qarşılıqlı investisiya qoyuluşunun həyata keçiriləcəyinə, tərəfdaşlığımızın inkişaf etdirilməsində hər iki ölkənin səfirlərinin vacib rol oynayacaqlarına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Maria K.Papakonstantinu ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, yaşıl enerji, kənd təsərrüfatı və digər sahələrdə ikitərəfli əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi. Səfir ölkələrimiz arasında birbaşa hava əlaqəsinin olmasının önəminə toxundu.

Söhbət zamanı siyasət, iqtisadiyyat, energetika, investisiyalar, nəqliyyat, mədəniyyət, incəsənət, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*2 Fevral Azərbaycan Gəncləri Günüdür*

## Yeni nəslin yolu yüksək zirvələrə yön alıb



Səhifə ⇨ 12

## Türk dünyasının geosiyasi monolitləşməsi



Səhifə ⇨ 4

## Fransa “siyasi buzlaşma” dövrü yaşayır



Səhifə ⇨ 7

## Avropanın gerçəkliyə qayıdış zərurəti



Səhifə ⇨ 4

## Qlobal güc nizamının dağılması və özünüdərk



Səhifə ⇨ 5

## Robert Koçaryan kimi və nəyi gözləyir?



Səhifə ⇨ 5

## Avropa Sülh Fondunun sülhə qarşı yürüşü



Səhifə ⇨ 6

## Bakı–Brüssel iqtisadi gündəliyi



Səhifə ⇨ 8

## Türk xalqları hansı əlifbanı seçməlidir?



Səhifə ⇨ 11

## Krım xanlığının yüksəlişi və süqutu



Səhifə ⇨ 14

# “3+3”ün işlək mexanizmə çevrilmə vaxtı çatıb

Səhifə ⇨ 7

# Prezident İlham Əliyev İndoneziya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Dövlətimizin başçısı İndoneziya Prezidenti ilə Davosda və Şarm Əl-Şeyxdə təmaslarını xatırladı, onu ölkəmizə rəsmi səfərə dəvət etdiyini bildirdi.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) bu qurumun təsis edilməsindən sonra üzv qəbul edilən ilk ölkə olmasının bizim üçün böyük şərəf olduğunu deyən Prezident İlham Əliyev bu məsələdə təşkilata üzv bütün dövlətlərə, o cümlədən İndoneziyaya minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı bunu Azərbaycana olan hörmətin və qardaşlığın təcəssümü kimi qiymətləndirdi.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev siyasət, iqtisadiyyat, qarşılıqlı investisiya qoyuluşu, biznes təmasları sahələrində əməkdaşlığı daha da möhkəmləndirməyin önəmini qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Berlian Helmi fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasında dostluğun və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün səylə çalışacağını dedi.

Söhbət zamanı Azərbaycan-İndoneziya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Norveçin yeni səfiri etimadnaməsini dövlət başçısına təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Dövlətimizin başçısı ölkəmizlə Norveç Krallığı arasında ikitərəfli əlaqələrin inkişafının önəminə toxundu. Əməkdaşlığımızın enerji sahəsi ilə başladığını deyən Azərbaycan Prezidenti mövcud münasibətlərin genişləndirilməsi baxımından yaxşı imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycana səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu ifadə edən Andreas Qaarder diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyini vurğuladı.

Səfir Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın sülhün gücləndirilməsi üçün səylərini bundan sonra da davam etdirəcəyini dedi.

Andreas Qaarder ölkəsinin Azərbaycanda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunda yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi.

Görüşdə həm Azərbaycanın, həm də Norveçin Avropa İttifaqının enerji təchizatçısı olduqları vurğulanaraq, bu xüsusda enerji təhlükəsizliyi məsələləri müzakirə edildi.

Söhbət zamanı ikitərəfli gündəliyimiz, o cümlədən iqtisadiyyat, ticarət, enerji, həmçinin bərpaolunan enerji, sərmayələr, biznes əlaqələrinin qurulması istiqamətlərində əməkdaşlıq, regionda nəqliyyat bağlantılarının qurulması məsələləri ətrafında fikir mübadiləsi aparıldı, COP30 çərçivəsində səmərəli tərəfdaşlıq yüksək qiymətləndirildi.

# Avstraliyanın yeni səfiri ölkəmizdə fəaliyyətə başlayıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Salli-Ann Vinsenti qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Dövlətimizin başçısı coğrafi baxımdan ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, iqtisadi-ticari, investisiya sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi, siyasi əlaqələrin inkişafını məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycana səfir təyin edilməsindən şərəf hissi duyduğunu deyən Salli-Ann Vinsent bir müddət əvvəl ölkəmizdə olduğunu məmnunluqla xatırladı, əlaqələrimizin genişləndirilməsi üçün səylə çalışacağını qeyd etdi.

Səfir bir neçə gün əvvəl Avstraliyanın milli bayramı münasibətilə dövlətimizin başçısının Avstraliya İttifaqının General-Qubernatoru Samanta Mostinə göndərdiyi məktuba görə minnətdarlığını ifadə etdi.

COP29 çərçivəsində Azərbaycanla Avstraliya arasında qurulmuş əməkdaşlıqdan danışan səfir bu tədbirdə ölkəsinin böyük nümayəndə heyəti ilə təmsil olunduğunu xatırladı. O, həmçinin Avstraliya və Türkiyənin COP31 tədbirini keçirməsi məsələsinə toxunaraq, bu xüsusda Azərbaycanın göstərdiyi səylərin yüksək qiymətləndirildiyini bildirdi.

Salli-Ann Vinsent bu il Azərbaycanın BMT-nin ən mötəbər tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini vurğulayaraq, Avstraliyanın bu tədbirdə də geniş nümayəndə heyəti ilə təmsil olunacağını dedi.

Görüşdə siyasi, iqtisadi, yaşıl enerji və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşdirilməsi işində mühüm rol oynadığı vurğulandı. Gələn il diplomatik münasibətlərimizin 35-ci ildönümünün qeyd ediləcəyi bildirildi.

***AZƏRTAC***

## "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli 858 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 yanvar 2026-cı il**

## 2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109 cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilsin:

Ağadadaşov Sərxan Əbülfət oğlu
Ağayev Şahmar Zöhrab oğlu
Həsənova Elmina Qəhrəman qızı
Həsənova Leyla Elçin qızı
İsmayıllı Aynur Telman qızı
İsmayılov Mahmud Azər oğlu
Leysanova Hacıyeva Gülbağda Seyfəl qızı
Məmmədova Lamiyə Famil qızı
Novruzov Səməd Əbülqasım oğlu
Tağızadə Mahir Tahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 yanvar 2026-cı il**

## S.S.Mikayılovun Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Süleyman Surxay oğlu Mikayılov Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 yanvar 2026-cı il**

# Konstitusiya Məhkəməsi Aparatının hesabatı



**Yanvarın 30-da Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Aparatının 2025-ci ilin yekunlarına dair hesabat iclası olub.**

Fərhad Abdullayev iclası açaraq bildirib ki, ötən il Azərbaycanın dövlətçilik tarixində olduqca mühüm əhəmiyyətə malik iki əsas hadisə - İkinci Qarabağ müharibəsində tarixi Zəfərin beşinci və müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinin otuzuncu ildönümü kimi qeyd olunub.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı sərəncamını rəhbər tutaraq Konstitusiya Məhkəməsi hesabat ili ərzində bir sıra tədbirlər həyata keçirib. Sədr xüsusilə vurğulayıb ki, Konstitusiyanın 30 illik yubileyinə həsr olunan iyulun 16-da və noyabrın 12-də keçirilmiş beynəlxalq konfranslar və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi ötən ilin yaddaqalan hadisələrindəndir.

Sədr Fərhad Abdullayev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Qələbə nəticəsində Konstitusiyamızın ali qüvvəsi respublikamızın bütün ərazisində bərqərar edilib. Bu tarixi Zəfərlə Konstitusiyanın 11-ci maddəsində təsbit olunmuş "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" prinsipi reallığa çevrilib.

Qeyd olunub ki, ötən il daxil olmuş Ali Məhkəmənin, Baş Prokurorluğun, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) sorğuları və məhkəmələrin müraciətləri ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən bir sıra mühüm qərarlar qəbul edilib. Plenum tərəfindən baxılmış konstitusiya işləri ilə əlaqədar mühüm əhəmiyyətli bir sıra qərar və qərardadlar qəbul olunub. Həmin qərarlarda Konstitusiya Məhkəməsinin Plenumu cinayət və cinayət prosessual, mülki və mülki prosessual qanunvericiliyin, habelə əmək, inzibati xətalar və digər bir sıra qanunların normalarını rəsmi şərh edib, qərardadlarda isə tətbiqedici orqanlar üçün praktik izahlar verib.

Diqqətə çatdırılıb ki, hazırda Konstitusiya Məhkəməsi daxilində tətbiqi nəzərdə tutulan və süni intellektdən istifadəyə əsaslanan yeni elektron platformanın ilkin versiyası hazırlanıb. Yeni sistem informasiya təhlükəsizliyinin qorunması baxımından önəmli olmaqla yanaşı, bir sıra əsas vəzifələri də həyata keçirəcək, internetə çıxış olmadan süni intellektdən istifadə etməklə məlumatların çevik axtarışı və sənədlərin hazırlanması, məlumatların əməkdaşlar arasında operativ sənəd mübadiləsinin təşkili iş prosesini xeyli sadələşdirəcək.

İclasda Aparat rəhbərliyinin çıxışları, Aparatın müvafiq şöbə və sektor müdirlərinin hesabatları dinlənilib. Həmçinin Konstitusiya Məhkəməsinə daxil olan sorğu, müraciət və konstitusiya şikayətlərində toxunulan hüquqi aspektlər, məhkəmə tərəfindən qəbul edilən qərarların icrası, tərtib olunan analitik arayış və rəylər, habelə təşkilati məsələlərlə bağlı məruzələr dinlənilib.

Sonra 2025-ci ilin yekunlarına dair geniş fikir mübadiləsi aparılıb, eləcə də, səsləndirilən rəy və təkliflər dinlənilib.

***XQ***

# İqtisadi Şuranın iclası



**Yanvarın 30-da Azərbaycan Respublikası İqtisadi Şurasının iclası keçirilib.**

İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi geniş müsahibədən irəli gələn tapşırıqlar və 2025-ci ilin sosial-iqtisadi inkişaf göstəriciləri, İqtisadi Şuranın 2026-cı il üzrə Fəaliyyət Planı, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın 2025-ci il üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair Hesabat, “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrup”un təqdimatı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2025-ci il üzrə Fəaliyyət Hesabatı və 2026-cı il üçün Fəaliyyət Planı və digər aktual məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib.

İqtisadi Şuranın üzvləri, eləcə də ədliyyə naziri Fərid Əhmədov iclasda təqdim olunan məsələlər barədə çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

*XQ*

# Hikmət Hacıyev BMT nümayəndəsi və Türkmənistan səfiri ilə görüşüb





Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və BMT-nin Azərbaycandakı müvəqqəti rezident əlaqələndiricisi İqor Qarafuliç 2026-2030-cu illər üçün yeni Əməkdaşlıq üzrə Çərçivə Proqramı üzrə gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Bu barədə BMT-nin Azərbaycandakı nümayəndəliyi "X" sosial şəbəkəsində məlumat yayıb.

Görüş zamanı yeni Əməkdaşlıq Çərçivə Proqramı (2026-2030) üzrə tərəfdaşlığın daha da inkişaf etdirilməsi və Azərbaycanın çoxtərəfli əməkdaşlığa sadiqliyinə dair müzakirələr aparılıb.

"Azərbaycandakı bütün BMT komandası Azərbaycanın davamlı inkişaf sahəsində milli prioritetlərini dəstəkləməyə tam sadiqdir", - məlumatda bildirilib.

*

Həmin gün Azərbaycan Prezidenti Administrasiyasının xarici siyasət şöbəsinin müdiri – Prezidentin köməkçisi Hikmət Hacıyevlə Türkmənistanın Azərbaycandakı səfiri Qurbanmammet Elyasov arasında keçən görüşdə tərəfdaşlığın gücləndirilməsi perspektivləri müzakirə edilib. Bu barədə Türkmənistan XİN məlumat yayıb.

"Görüş zamanı tərəflər ikitərəfli əməkdaşlığın aktual məsələləri üzrə və 2025-ci ilin nəticələrini yüksək qiymətləndiriblər, onu Türkmənistan-Azərbaycan münasibətləri tarixində yeni parlaq səhifə kimi qeyd ediblər. Qeyd olunub ki, ötən il yüksək səviyyəli qarşılıqlı səfərlər, eləcə də mədəni-humanitar mübadilənin fəal inkişafını əhatə edən zəngin gündəliklə fərqlənib", - məlumatda deyilir.

Tərəflər qeyd ediblər ki, Azərbaycan və Türkmənistan prezidentləri İlham Əliyevin və Serdar Berdiməhəmmədovun, həmçinin türkmən xalqının Milli lideri, Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsləri sayəsində ikitərəfli münasibətlər qardaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edir.

Orta Dəhliz çərçivəsində layihələr də daxil olmaqla, enerji və nəqliyyat sahələrində, həmçinin ticarət-iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi vurğulanıb.

Bundan əlavə, tərəflər görüşdə 2026-cı ildə Türkmənistanda və Azərbaycanda keçirilməsi planlaşdırılan qarşıdan gələn beynəlxalq forumlar, görüşlər və digər tədbirlərlə bağlı məsələləri müzakirə ediblər.

Xüsusi diqqət 2026-cı ilin payızında Türkmənistanda keçiriləcək Mərkəzi Asiya və Azərbaycan dövlət başçılarının 8-ci Məsləhətləşmə görüşünə yönəldilib. Vurğulanıb ki, Azərbaycanın bu formatda ilk dəfə tam hüquqlu iştirakçı kimi iştirakı regional əməkdaşlıq və dialoqun daha da gücləndirilməsi üçün mühüm addım olacaq.

*XQ*

# Azərbaycan–BƏƏ münasibətlərində yeni hədəflər





**Yanvarın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı Azərbaycanla BƏƏ arasında strateji tərəfdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.

*XQ*

# Leyla Əliyeva BMT-nin Cenevrədəki ofisinin baş direktoru ilə görüşüb





**Leyla Əliyeva Cenevrədə BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya ilə görüşüb.**

Məhsuldar keçən görüşdə Xəzər dənizinin ekoloji problemləri, ətraf mühitin qorunması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün BMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi, Caspisnet elmi şəbəkəsi və Tehran Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə “Xəzər dənizinin qorunması üçün ətraf mühitin idarə olunmasının və beynəlxalq əməkdaşlığın gücləndirilməsi” mövzusunda yüksəksəviyyəli panel müzakirələri keçirilib.

*XQ*

# Xəzərin ekoloji problemlərinin müzakirəsi



**BMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi, Caspisnet elmi şəbəkəsi və Tehran Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə “Xəzər dənizinin qorunması üçün ətraf mühitin idarə olunmasının və beynəlxalq əməkdaşlığın gücləndirilməsi” mövzusunda yüksəksəviyyəli panel müzakirələri keçirilib.**

Tədbirin rəsmi hissəsində çıxış edən Leyla Əliyeva Xəzər dənizinin qlobal əhəmiyyəti, üzləşdiyi ekoloji təhdidlər və onun gələcək nəsillər üçün qorunması məqsədilə elmi tədqiqatlara əsaslanan birgə fəaliyyətlərin əhəmiyyəti barədə məlumat verib. Leyla Əliyeva vurğulayıb ki, dəniz səviyyəsinin azalması və biomüxtəlifliyin itirilməsi prosesləri vaxtında və əlaqələndirilmiş tədbirlər görülmədiyi təqdirdə daha ciddi nəticələrə gətirib çıxara bilər. O, tədbir iştirakçılarını Xəzər dənizi ilə bağlı müzakirələri real nəticələrə gətirən konkret addımlarla davam etdirməyə çağırıb.

BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya və Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov tədbirdə çıxış edərək bu cür müzakirələrin dövlət qurumları, beynəlxalq təşkilatlar və ekspert icması arasında dialoqun inkişafı üçün mühüm əhəmiyyət daşıdığını qeyd ediblər. Onlar ətraf mühitin idarə olunması sahəsində institusional əməkdaşlığın, eləcə də məlumat və təcrübə mübadiləsinin genişləndirilməsinin Xəzər dənizinin qorunması istiqamətində səylərə töhfə verəcəyini bildiriblər.

Daha sonra müxtəlif panel sessiyaları çərçivəsində BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə regional direktoru Arnold Kraylhuber, Ümumdünya Səhiyyə Təşkilatının Avropa Ətraf Mühit və Səhiyyə Mərkəzinin rəhbəri Françeska Raçioppi, eləcə də Cenevrə Universiteti, “Geneva Water Hub”, Caspisnet və bir sıra digər beynəlxalq təşkilat və beyin mərkəzlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə ətraf mühitin idarə olunması, elmi tədqiqatların əhəmiyyəti, eləcə də Xəzərin qorunması istiqamətində beynəlxalq əməkdaşlıq və su diplomatiyasının roluna dair fikir mübadiləsi aparılıb, müxtəlif təşəbbüslər irəli sürülüb.



İştirakçılar üçün, həmçinin Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub. Tədbir sual-cavab formatında təşkil olunan interaktiv sessiya ilə yekunlaşıb.

*XQ*

# BMT-nin Cenevrə ofisində “Azərbaycan otağı” ilə tanışlıq





**Yanvarın 30-da Leyla Əliyeva Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisində “Azərbaycan otağı” ilə tanış olub.**

Tanışlıq zamanı “Azərbaycan otağı”nda istifadə edilmiş konsepsiya və milli elementlər barədə məlumat verilib. Qeyd edilib ki, BMT-nin Cenevrə ofisində az sayda ölkənin öz otağı mövcuddur. Bu otaqlar BMT-nin tədbirləri zamanı müxtəlif sessiyaların, iclasların və görüşlərin keçirilməsində istifadə olunur. Bu baxımdan BMT-nin Cenevrə ofisində “Azərbaycan otağı” ölkəmizin təqdimatı istiqamətində əhəmiyyət kəsb edir.



Qeyd edək ki, BMT-nin Cenevrə bölməsində “Azərbaycan otağı” Heydər Əliyev Fondu tərəfindən yaradılıb. Burada müxtəlif konfrans və görüşlərin keçirilməsi üçün müvafiq şərait yaradılıb, həmçinin otaq müasir proqramlaşdırma və yüksək texnoloji avadanlıqlarla təmin olunub.

“Azərbaycan otağı”nın tərtibatında milli elementlərə, eləcə də Qarabağ xalçası, şəbəkə eksponatı, muğam üçlüyü - tar, kamança və qavala, Azərbaycan təbiəti və memarlığını əks etdirən fotolara yer verilib.

*XQ*

# Türk dünyasında geosiyasi monolitləşmə

## *TDT-nin formalaşmasında yeni strateji mərhələ başlanıb*

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Türkiyəyə səfəri və Prezident Rəcəb Tayyib Ərdoğanla birgə verdiyi mesajlar Türk dünyasının institusional və ideoloji konsolidasiyası baxımından yeni mərhələyə keçidini təsdiqlədi. Səfər həm ikitərəfli münasibətlərin dərinləşməsi, həm də TDT-nin kollektiv siyasi subyektə çevrilməsi kontekstində strateji əhəmiyyət daşıyır. Mirziyoyevin Türkiyəni "dünyanın yeni geosiyasi güc mərkəzlərindən biri" kimi xarakterizə etməsi Ankara mərkəzli Türk dünyası geosiyasi arxitekturasının legitimləşdirilməsi kimi oxunmalıdır.**




Türkiyə–Özbəkistan münasibətlərinin son 10 ildə keçdiyi transformasiya trayektoriyası postsovet məkanında nadir müşahidə olunan strateji ardıcıllıq nümunəsidir. Əgər ilkin mərhələdə bu münasibətlər daha çox tarixi-mədəni yaxınlıq və "qardaş xalqlar" narrativi üzərində qurulurdusa, hazırkı mərhələdə proses rasional maraqlar, uzunmüddətli planlaşdırma və institusional çərçivə ilə tənzimlənən strateji ox modelinə doğru təkamül edib.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının dördüncü iclası məhz bu keyfiyyət dəyişikliyinin institusional ifadəsi kimi çıxış edir. Şura Türkiyə və Özbəkistanın xarici siyasət prioritetlərini sinxronlaşdırdığı, regional və qlobal proseslərə münasibətdə mövqelərini koordinə etdiyi real siyasi mexanizmə çevrilib. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, tərəflər münasibətləri davamlı və proqnozlaşdırıla bilən əməkdaşlıq məntiqi üzərində qurmağa çalışırlar. İmzalanan sazişlərin məzmunu bu yanaşmanın praktik təsdiqidir. Enerji, nəqliyyat dəhlizləri, mədənçilik, təhsil və azad iqtisadi zonalar kimi sahələr həm Türkiyənin regional logistika və sənaye ambisiyalarına, həm də Özbəkistanın iqtisadi diversifikasiya və beynəlxalq inteqrasiya hədəflərinə birbaşa xidmət edir. Xüsusilə nəqliyyat dəhlizləri və iqtisadi zonalar üzrə əməkdaşlıq tərəflər arasında ticarət əlaqələrini artırmaqdan daha geniş məna daşıyır. Bu istiqamət Türkiyə–Özbəkistan münasibətlərini qarşılıqlı asılılıq üzərində qurulan struktur münasibətlər səviyyəsinə qaldırır və tərəfləri bir-birinin uzunmüddətli sabitliyində maraqlı aktorlara çevirir.

Bu mərhələdə diqqət çəkən əsas politoloji məqam ondan ibarətdir ki, tərəflər münasibətləri iqtisadi rasionalizm, institusional mexanizmlər və sektorlararası əməkdaşlıq vasitəsilə bu yaxınlığı real siyasi kapitala çevrilirlər. Belə bir yanaşma Türk dünyası kontekstində mühüm presedent yaradır, çünki o, siyasi həmrəyliyin yalnız ortaq tarix və mədəni yaddaş üzərində deyil, maddi maraqların uzlaşdırılması və inkişaf gündəliyinə dayanıqlı formalaşa biləcəyini göstərir.

Türkiyə–Özbəkistan oxu bu baxımdan TDT üçün konseptual laboratoriya funksiyasını yerinə yetirir. Burada sınaqdan keçirilən model sübut edir ki, türk dövlətləri arasında birlik ideyası yalnız simvolik identitet çərçivəsində qaldıqda zəif olur, lakin iqtisadi inteqrasiya və institusional qarşılıqlı asılılıq möhkəmləndikdə real siyasi gücə çevrilə bilir. Məhz bu səbəbdən Ankara–Daşkənd xətti, eyni zamanda, Türk Dövlətləri Təşkilatının gələcək inkişaf trayektoriyası üçün strateji yol xəritəsi kimi qiymətləndirilə bilər.

Səfərin TDT kontekstində əsas politoloji əhəmiyyəti onun təşkilatın indiyədək daha çox potensial səviyyəsində mövcud olan monolitlik ideyasını real siyasi davranış müstəvisinə keçirməsidir. Türk Dövlətləri Təşkilatı uzun müddət ortaq tarixi yaddaş, mədəni yaxınlıq və dil birliyi üzərində formalaşan yumşaq identitet platforması kimi fəaliyyət göstərib. Ankara görüşü isə göstərdi ki, bu identitet tədricən konkret strateji mexanizmlər vasitəsilə institusional məzmun qazanır. Ərdoğan və Mirziyoyevin ritorikasında ön plana çıxan "birlikdə hərəkət", "ortaq strateji mexanizmlər" və "dil, fikir və əməl birliyi" anlayışları rasional təhlükəsizlik və diplomatik koordinasiya məntiqinə əsaslanır. Dövlət başçılarının bu yanaşması onu göstərir ki, Türk dünyasında siyasi həmrəylik ortaq risk qavrayışı və ortaq maraqların müdafiəsi üzərində qurulmağa başlayır. Qlobal sistemin qeyri-sabitləşdiyi, regional münaqişə ocaqlarının genişləndiyi bir şəraitdə bu, TDT üçün keyfiyyətcə yeni mərhələ deməkdir.

Xüsusilə təhlükəsizlik və xarici siyasət sahəsində koordinasiyanı hədəfləyən mexanizmlərin önə çıxması təşkilatın transformasiya istiqamətini aydın göstərir. Xarici işlər, daxili işlər və müdafiə nazirləri ilə yanaşı, kəşfiyyat qurumlarının da prosesə cəlb edilməsi TDT məkanında təhlükəsizliyin kollektiv məsuliyyət kimi dərk edildiyini göstərir. Mövcud beynəlxalq sistemin əsas xarakterik xüsusiyyəti onun getdikcə daha çox fraqmentasiyaya uğramasıdır. Qərb mərkəzli liberal nizamın normativ və institusional dayaqları zəiflədikcə, qlobal siyasət vahid mərkəzdən idarə olunan struktur deyil, paralel və bəzən rəqabətli regional güc mərkəzlərinə söykənən çoxqütblü mühitə transformasiya olunur. Məhz bu kontekstdə Türk dünyasının geosiyasi mövqelənməsi keyfiyyətcə dəyişir. Uzun müddət beynəlxalq sistemin kənarlarında, böyük güclər arasında balans siyasəti aparan neytral periferiyanın tərkib hissəsi kimi çıxış edən türk dövlətləri tədricən daha fəal və subyektiv davranış modelinə keçid edirlər.

Ankara görüşü bu transformasiyanın praktik göstəricisi kimi dəyərləndirilə bilər. Səfər açıq şəkildə nümayiş etdirdi ki, Türk dünyası regional proseslərin formalaşmasına təsir göstərmək iddiasında olan siyasi aktordur. Bu prosesdə Türkiyə və Özbəkistanın funksional rolları aydın şəkildə ayrılır və bir-birini tamamlayır. Türkiyə, hərbi-siyasi təcrübəsi, diplomatik şəbəkəsi və regional təşəbbüsləri ilə Türk dünyasında strateji yönverici mərkəz rolunu üzərinə götürür.

Özbəkistan isə Mərkəzi Asiyada inteqrasiya proseslərinin lokomotivi kimi çıxış edir. Mirziyoyev dövründə Daşkəndin daha açıq, praqmatik və regional əməkdaşlığa yönəlik siyasət yürütməsi ölkəni tregiondaxili əlaqələndirici aktora çevirib. Məhz bu kontekstdə Türkiyə–Özbəkistan tandeminin formalaşması Türk dünyasında mərkəz-periferiya dilemmasını yumşaldır və şaquli deyil, daha çox şəbəkə tipli regional əməkdaşlıq modelinin yaranmasına şərait yaradır. Mirziyoyevin Fələstin məsələsində prinsipial çıxışı və sosial fond yaratmaq təşəbbüsü TDT-nin beynəlxalq münasibətlərdə dəyər yönümlü mövqe sərgiləyə bilən platforma potensialına malik olduğunu göstərir.

Humanitar diplomatiya uzun müddət beynəlxalq münasibətlərdə ikinci, daha çox simvolik və yumşaq güc fəaliyyət sahəsi kimi qəbul olunub. Lakin son illərdə qlobal böhranların artması, humanitar fəlakətlərin siyasi nəticələr doğurması bu sahəni real siyasətin mühüm alətlərindən birinə çevirib. 2023-cü il zəlzələsi zamanı Özbəkistanın Türkiyəyə verdiyi dəstək və Hatayda yaşayış massivlərinin inşası məhz bu transformasiyanın Türk dünyası kontekstində aydın nümunələrindən biri kimi çıxış edir. Özbəkistanın humanitar dəstəyi TDT məkanında etimadın dərinləşməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Son olaraq qeyd edək ki, Ankara görüşünün yekun siyasi mesajı daha geniş və sistemlidir. Görüş bir daha sübut etdi ki, Türk Dövlətləri Təşkilatı artıq koordinə edilmiş siyasi iradə, iqtisadi qarşılıqlı asılılıq və normativ mövqelər üzərində formalaşan regional aktora çevrilir.

Bu prosesdə Türkiyə–Özbəkistan oxu dayaqlayıcı rol oynayır. Ankara strateji yönverici mərkəz kimi ümumi siyasi çərçivəni formalaşdırırsa, Daşkənd bu çərçivənin Mərkəzi Asiya məkanında praktik inteqrasiya mexanizmləri ilə doldurulmasına töhfə verir. Əgər bu model digər üzv dövlətlər üçün də funksional və cəlbedici presedentə çevrilərsə, TDT-nin daxilində koordinasiya və qarşılıqlı asılılıq dərinləşə bilər. Bu halda XXI əsr bütövlükdə Türk dünyasının beynəlxalq sistemdə görünən və hiss olunan iz buraxdığı dövr kimi yadda qala bilər.



*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Avropanın gerçəkliyə qayıdış zərurəti

## *Azərbaycan, ABŞ və gözəgörünməyən digər strateji amillər*

**Cənubi Qafqazda son illər formalaşan yeni geosiyasi reallıqlar regionun siyasi xəritəsini köklü şəkildə dəyişib. Bu dəyişikliklərin mərkəzində Azərbaycan dayanır. Uzun illər münaqişə və qeyri-müəyyənliklə diqqət mərkəzində olan Cənubi Qafqaz bu gün Bakının təşəbbüsləri və prinsipial mövqeyi sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan artıq regionda təkcə proseslərin iştirakçısı deyil, onların məzmununu və istiqamətini müəyyən edən əsas siyasi və strateji mərkəzdir. Bu mövqenin formalaşmasında ölkənin balanslaşdırılmış, müstəqil və praqmatik xarici siyasət xətti həlledici rol oynayıb.**



Yeni reallığın mühüm dayaqlarından biri Azərbaycan və ABŞ arasında ardıcıl inkişaf edən çoxşaxəli əməkdaşlıqdır. Rəsmi Bakı ABŞ ilə münasibətlərini qarşılıqlı maraqlar, beynəlxalq hüquq normaları və regional sabitliyin möhkəmləndirilməsi üzərində qurub. Vaşinqton da öz növbəsində Bakının postmünaqişə dövründə Cənubi Qafqazda oynadığı sabitləşdirici rolunu dəstəkləyir. Bu yanaşma təsadüfi deyil. Çünki Azərbaycan münaqişədən sonra revanşizm və qarşıdurma yolunu deyil, sülh, əməkdaşlıq və inteqrasiya xəttini seçib.

Xüsusilə Ermənistanla münasibətlərin normallaşdırılması üçün Azərbaycanın irəli sürdüyü 5 təməl prinsip region üçün alternativsiz sülh yol xəritəsi kimi çıxış edib. Dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, bir-birinə qarşı ərazi iddialarından imtina, təhlükəsizliyə təhdid etməmək, sərhədlərin delimitasiya və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması kimi müddəalar beynəlxalq hüququn fundamental normalarına əsaslanır. Bu prinsiplər yalnız iki ölkə arasında münasibətlərin tənzimlənməsi üçün deyil, bütövlükdə Cənubi Qafqazın sülh və iqtisadi inteqrasiyası üçün real hüquqi baza yaradıb. Məhz bu konstruktiv və şəffaf yanaşma Azərbaycanın ABŞ və digər Qərb paytaxtlarında etibarlı tərəfdaş imicini möhkəmləndirib.

Bu məsələdə TRIPP təşəbbüsü Azərbaycanın regional və qlobal əhəmiyyətini artıran mühüm layihədir. ABŞ-ın layihəyə strateji dəstək verməsi onun təkcə iqtisadi deyil, həm də geosiyasi mahiyyətindən irəli gəlir. TRIPP Avrasiyada uzun illər formalaşmış asılılıqları azaldan, alternativ və müstəqil əlaqələr sistemi yaradan yeni geosiyasi xətt deməkdir. Azərbaycanın bu prosesdə aparıcı rol oynaması Bakının regional balans yaradan əsas aktor statusunu bir daha təsdiqləyir.

Eyni zamanda, Avropa İttifaqı (Aİ) üçün də Azərbaycanın strateji əhəmiyyəti mübahisə mövzusu ola bilməz. Bu əhəmiyyət çoxdan iqtisadi çərçivəni aşaraq təhlükəsizlik və geosiyasi müstəviyə keçib. Bu qurum Azərbaycanın ən böyük ticarət tərəfdaşı və aparıcı investorudur. Azərbaycan və Aİ Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə Naxçıvan dəmir yolu layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlamaq barədə razılığa gəlməsi də göstərir ki, Brüssel ilə Bakı arasında mövcud ticarət və investisiya əlaqələri qarşılıqlı asılılıq və maraqlara əsaslanan möhkəm təməl üzərində qurulub. Xüsusilə Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya çatdırılan Azərbaycan qazı qitənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu layihə Avropanın ənənəvi enerji mənbələrindən asılılığını azaldıb, enerji xəritəsində real alternativ yaradıb və strateji təhlükəsizliyə birbaşa töhfə verib.

Məhz bu amillər Avropanın Azərbaycanla münasibətlərini köhnə yanaşmalar və selektiv meyarlar əsasında deyil, real maraqlar əsasında qurmalı, ölkəmizi bu proseslərin mərkəzi tərəfdaşı kimi qəbul etməlidir. Yəni qarşılıqlı faydalı əməkdaşlığa kölgə salmaq istəyən qüvvələr də var. Bəzi Avropa siyasi dairələrində hələ də emosional, subyektiv və selektiv yanaşmaların şahidi oluruq. Xüsusilə Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında (AŞPA) iştirakını dondurmasını siyasi təzyiq alətinə çevrilmək cəhdləri mövcud strateji tərəfdaşlıq ruhuna daban-dabana ziddir. Dialoq platforması olması nəzərdə tutulan qurumların qərəzli və bəzən islamofob çalarlı yanaşmaları, əslində Avropa institutlarının regional proseslərdəki obyektivliyinə və effektivliyinə kölgə salır.

Bundan başqa, Aİ-nin bəzi siyasi sənədlərində Ermənistanla əlaqələrə üstünlük verilməsi münasibətlərə mənfi təsir edir. Azərbaycan tərəfi haqlı olaraq bu yanaşmanı postmünaqişə dövrünün reallıqlarına uyğun olmayan, qərəzli mövqe kimi qiymətləndirməklə xəbərdarlıq edib ki, belə addımlar Brüssel–Bakı xəttində əməkdaşlığın inkişafına mənfi təsir göstərə bilər. Rəsmi Bakının mövqeyi aydındır: Azərbaycan onunla kənar geosiyasi planların fonunda deyil, bərabərhüquqlu tərəfdaş kimi rəftar edilməsini gözləyir.

Onu da əlavə edək ki, bu kimi neqativ hallara baxmayaraq Aİ-nin Avropanın enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan və Qərblə münasibətlərini getdikcə gücləndirən Azərbaycan kimi tərəfdaşa böyük ehtiyacı var. "EU Today" kimi nüfuzlu nəşrlərdə dərc olunan məqalədə də bundan xəbər verir. Qəzet yazır ki, Aİ Azərbaycanla əməkdaşlıqda maraqlı olmalıdır. Tanınmış ekspert Qeri Kartraytın vurğuladığı kimi, Azərbaycan Ermənistanla 30 illik münaqişədən təkcə hərbi-siyasi qalib kimi deyil, həm də Qərbə yönələn, regional sülhü və inteqrasiyanı təşviq edən rasional tərəfdaş kimi çıxıb. O qeyd edib ki, rəsmi Bakının ərazi bütövlüyünü təmin etdikdən sonra iqtisadi yenilənməyə və diplomatik əlaqələrə, xüsusən də Qərblə inteqrasiyaya üstünlük verməsi qısamüddətli siyasi gediş deyil, dərin struktur dəyişiklikdir. Bu, Azərbaycanın uzunmüddətli strateji seçimini Qərb dəyərləri və iqtisadi sistemi üzərində qurduğunu göstərir.




Kartrayt hesab edir ki, Bakı Xəzər dənizi ilə Avropa arasında nəqliyyat əlaqələrini gücləndirməklə, Ukraynadan Gürcüstana və Cənubi Qafqaza qədər uzanan sabit əməkdaşlıq qövsünü formalaşdırıb. Bu kontekstdə Azərbaycanın "Şərq Tərəfdaşlığı" strategiyaları üçün əsas tərəfdaş kimi qəbul edilməsi Aİ-nin regional maraqları üçün həlledicidir. Müəllifin qənaəti ondan ibarətdir ki, Aİ Azərbaycana artıq özünə bərabər tərəfdaş kimi baxmalıdır: "Brüsselin bu yeni reallığı uzaqgörən strateji vizyonla qəbul etməsi regionun gələcək onilliklərdəki sabitliyinin əsas qarantı olar".

Beləliklə, Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar Aİ-nin regiona baxışını yenidən dəyərləndirməyi zəruri edir. Bu reallığın mərkəzində isə Azərbaycan dayanır. Avropanın Azərbaycanla münasibətlərini köhnə yanaşmalar və selektiv meyarlar deyil, real maraqlar kontekstində qurması qaçılmaz edir. Son dövrlər müşahidə olunan dəyişikliklər ümidvericidir.

Bəli, Azərbaycanın münaqişədən sonrakı strateji kursu qısamüddətli manevr deyil, regionun gələcək onilliklərini və qitələrarası əlaqələri müəyyən edən dövlət iradəsidir. Bakının təklif etdiyi əməkdaşlıq formatı yalnız inkişafa və sabit tərəfdaşlığa əsaslanan gələcək vəd edir. Aİ Avropanın enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan və Qərblə münasibətlərini getdikcə gücləndirən Azərbaycan kimi tərəfdaşı itirmək riskini gözə ala bilməz.

Siyasi icmalçı Brüsseli yaranmış bu yeni reallığı düzgün qiymətləndirməyə çağırıb. Müəllif vurğulayıb ki, Azərbaycan artıq Aİ-nin ən böyük ticarət tərəfdaşı və aparıcı investorudur. Xüsusilə Cənub Qaz Dəhlizi vasitəsilə qitənin enerji xəritəsini dəyişən Azərbaycan Avropanın ənənəvi təchizatçılardan asılılığını azaldaraq onun enerji təhlükəsizliyinə "maddi və ölçülə bilən" töhfə verib. Bu baxımdan, Brüssel üçün cənub-şərq sərhədlərində sabitliyi möhkəmləndirmək və geosiyasi mövqeyini gücləndirmək üçün nadir fürsət yaranıb.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Robert Koçaryan kimi və nəyi gözləyir?

## *Ermənistanın ikinci prezidenti yenə sərsəmləyib*

**“Hesab edirəm ki, ölkəni bu vəziyyətdən məndən daha yaxşı heç kəs çıxara bilməz”. Belə bir iddialı bəyanatın müəllifi Ermənistanın ikinci prezidenti, Qarabağ canisi Robert Koçaryandır. Erməni mediası onun mətbuat konfransında dediyi fikirləri yayımlayıb. O media ki, Rusiyanın təsir dairəsindədir və nəyin bahasına olursa-olsun hazırkı iqtidara qarşı müqavimət cəbhəsi formalaşdırmağa çalışır. Müqavimətin yayda keçiriləcək parlament seçkilərinə hesablandığı birmənalıdır. Əslində, Koçaryanın iddialı bəyanatı da seçkiyə fokuslanıb.**

R.Koçaryanın dilə gətirdikləri, o cümlədən, diqqətə çatdırdığımız fikri fonunda böyük təzadlı məqam var və həmin məqamı sonda vurğulayacağıq. Hələlik isə deyək ki, Robert özü barəsindəki quldur təsəvvürünü dağıtmağa çalışır. Axı hay toplumu təkcə ona yox, ümumən ölkənin əvvəlki iqtidarının təmsilçilərinin hamısına eyni prizmadan yanaşır. Baş nazir Nikol Paşinyan və komandası da bununla bağlı fəal təbliğat aparır. Ona görə hazırda Koçaryan reallığa qarşı çıxır, daha doğrusu, öz aləmində yeni reallıq formalaşdırdığını düşünür. Məsələn, o deyir: “Mətbuatda daim belə bir ifadə işlədilir: “Qoy keçmişlər getsin, qalanları üçün parlaq gələcək başlasın”. Məndə sual yaranır: nə üçün bütün “keçmişlər” bir kateqoriyada birləşdirilir?”



Bəli, R.Koçaryan erməni cəmiyyətində “sabiqlərə” qarşı antipatiyanın mövcudluğunun fərqindədir. Bu səbəbdən özünü onlardan fərqləndirməyə çalışır: “Biz - üç keçmiş prezident: mən, Serj Sarkisyan və Levon Ter-Petrosyan - xaraktercə tamamilə fərqli insanlarıq. Baxışlarımıza, iş üslubumuza və idarəetməmizin səmərəliliyinə görə tamamilə fərqliyik. Bizim oxşarlığımız yalnız bir məqamda var: əmək kitabçalarımızda prezident olduğumuz yazılıb. Əgər sadəcə prezident olmağımız faktı kifayətdirsə, “paket” şəkildə deyilsin: “siz seçkilərdə iştirak etməməlisiniz”. Əgər belədirsə, onda bütün nazirlər də iştirak etməməlidir, çünki nazir olublar; deputatlar iştirak etməməlidir, çünki deputat olublar; insan hüquqları müdafiəçiləri iştirak etməməlidir, çünki ombudsman olublar və s. Bu normaldırmı? Əlbəttə ki, yox”.

R.Koçaryanın açıqlaması fonunda normal olmayan tək bir şey var ki, o da bu məxluqun hələ də danışa bilməsi, həbsxana həyatı yaşamamasıdır. Ancaq Robert durumun fərqində deyil. Çünki ona qarşı nə qədər pis münasibət olsa da, hazırda nümayiş etdirdiyi həyasızlığa tələbat var. Nəzərə alaq ki, erməni cəmiyyətinin xəstə kəsimi üçün Koçaryan kimilərinin sərsəmləmələri hava-su kimi vacibdir. O kəsim ki, Ermənistandan deyil, xaricdən, yəni Kremldən idarə olunur. Bəribaşdan deyək ki, Robertin özünün də hazırda meydanda görünməsi məhz Rusiya amili ilə bağlıdır və məsələyə qayıdacağıq.

Əlqərəz, Koçaryan yalan zəngulələrinini işə salsa da, onunla Ermənistanın üçüncü prezidenti S.Sarkisyan heç nə ilə fərqlənmir. Hər ikisi eyni bezin qırağıdır. Bu mənada birinci prezident L.Ter-Petrosyan nisbətən ayrı götürülə bilər. Amma o da erməni avantürasını dəstəkləmək baxımından quldur ikili ilə həmrəydir. Nəzər alaq ki, Levon bu avantüra naminə ən böyük dəstəyi 1997-ci ildə prezident postundan istefası və hakimiyyəti “Qarabağ klanı”na təhvil verməsi ilə göstərmişdi. Nəticədə avantüranın ömrü 20 ilə yaxın uzanmışdı. Sonda yaşananlar, həmçinin, Ermənistanın düşdüyü acınacaqlı durum isə hər kəsə yaxşı məlumdur...

Bəli, Koçaryan-Sarkisyan cütlüyü eyni komandada yer alaraq, saysız-hesabsız cinayətlər törədib, Ermənistanı dövlət kimi yox, quldursayağı üsullarla idarə edib. Onların vaxtilə prezident postunda növbələşmələrinə gəldikdə, bu, belə demək mümkünsə, Rusiya demokratizminin diktəsi olmuşdu. Yəni Kremldən Koçaryana öz yerinə sadiq adam tapmaq əmri gəlmiş, Sarkisyandan başqa cəllad tapılmamışdı. Hər şey bu qədər sadə idi. Bəs niyə indi Koçaryan özünü fərqli sayır? Nəzərə alaq ki, bu, bir tərəfdən psixoloji məqam, Robertin daxili hikkəsinin məhsuludur. Digər tərəfdən, onun yanaşmasında sırf siyasi seqment var.

Reallıq budur ki, hazırda Ermənistanda parlament seçkilərinə erkən hazırlıq ab-havası duyulsa da, müxalifətin birləşməsi nəzərə çarpmır. Durum əks cinahın iqtidar qarşısındakı zəifliyindən xəbər verir. Koçaryan da vəziyyəti görür. O, yaxşı bilir ki, “eks”lərin konsolidasiyası mümkünsüzdür. Deməli, Paşinyan iqtidarına qarşı mübarizədə onların arasından kimsə seçilməlidir. Robertin arzusu da seçilməkdir. Kim seçəcək? Əlbəttə ki, bu işi Rusiyanın müəyyən dairələri həyata keçirəcək. Hələlik isə o, özünü “təsdiqləməlidir”. Ona görə mətbuat konfransı keçirir, S.Sarkisyandan və L.Ter-Petrosyandan üstün olduğuna dair rəy formalaşdırmağa çalışır. Nikola qarşı isə bir çox mətləbləri qabardır, o cümlədən bunu: “Maraqlıdır ki, Paşinyan hakimiyyətə xalqı sevdiyi şüarı ilə gəldi, sonradan isə məlum oldu ki, o, pulu sevir. Əgər o, xalqı sevsəydi, pensiyaçıların vəziyyəti indiki kimi olmazdı”. Guya, Koçaryanın hakimiyyəti illərində Ermənistanda pensiyaçılar xoşbəxt yaşayır, yağ-bal içərisində üzürdülər. Aydındır ki, belə bir durumdan söhbət gedə bilməzdi. Əksinə, ölkə indikindən daha ağır vəziyyətdə olub. Amma necə deyərlər, utanmasan oynamağa nə var ki? Koçaryan da utanmaz-utanmaz ortaya düşür və bu zaman tam məntiqi sualla üzləşir. Sual onun siyasətdən qəti şəkildə gedəcəyi ilə bağlıdır. Aydındır ki, hakimiyyəti müddətində ayaqyoluna belə öz iradəsi ilə gedə bilməyən biri suala səmimi cavab verə bilməz. Deməli, Koçaryan ucuz populizmini işə salmalıdır və salır: “2008-ci ildə mən heç bir dövlət vəzifəsi tutmadım, hər şeyi qoyub getdim. Həyatımın ən xoşbəxt illəri 2008–2018-ci illər olub. Mən azad insan idim. Böyük bir şirkətdə çalışırdım, çox pul qazanırdım və hər şeyə görə məsuliyyət daşımırdım. Bu, 1998–2008-ci illərdə daim ağır sınaqlardan keçən və böhranlı vəziyyətlərdə məsuliyyəti üzərinə götürən bir insan üçün həqiqi zövq idi. İndi isə vəziyyət yenidən böhranlıdır və seçim qarşısındayam: məsuliyyəti üzərimə götürmək, yoxsa bundan yayınmaq. Hesab edirəm ki, ölkəni bu vəziyyətdən çıxarmaq üçün məndən daha yaxşısı yoxdur. Əgər bütün sahələr üzrə məndən daha çox təcrübəsi olan birinin adını çəksəniz, çox yaxşı”.

Sonda ümumiləşdirmə apararaq, Koçaryanın fikirlərinin təzad kulminasiyasına diqqət yetirək. Bildirdiyimiz kimi, Robert Rusiyanın onu müxalifətin vahid namizədi qismində “seçməsinə” ümid bəsləyir. Onu da dedik ki, bu məxluqun hazırkı sərsəmləmələri özünü göstərmək niyyətidir. Koçaryan ucuz populizmini işə salır, guya, xalqını düşünür, erməni cəmiyyətini böhrandan çıxarmaq qabiliyyətindədir. Amma: “Seçkilərdə iştirakımızın formatını təqdim edəndə, daha ətraflı danışarıq. Hələlik yekun qərar yoxdur. Bir az qabağa qaçdım”.

Əslində, Koçaryan qabağa qaçmadı, obrazlı desək, balaca uşaq kimi altını batırdı. Necə ola bilər ki, bir insan, daha doğrusu, siyasətçi həm özünü ölkəni düşdüyü durumdan çıxardacaq ən layiqli şəxs saysın, həm də desin ki, hələ yekun qərar yoxdur? Bundan böyük anormallıq ağla gəlmir. Görəsən, Koçaryan yekun qərar üçün kimi, nəyi gözləyir? Cavabı diqqətə çatdırdıq...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xankəndi, Xocalı və Ağdərədə doğma yurda qayıdış sevinci

**Dünən Xankəndi, Xocalı və Ağdərədə növbəti qayıdış sevinci yaşandı. Bu mərhələdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 25, Ağdərə rayonunun Həsənriz kəndinə 52, Xocalı rayonunun Xanyurdu kəndinə 24, Təzəbinə kəndinə isə 41 nəfər köçürüldü.**



Sakinlərə mənzillərin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov onları təbrik edərək, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I dövlət proqramının məqsəd və vəzifələri barədə məlumat verdi.

Bildirdi ki, azadlığına qovuşmuş şəhər və kəndlərdə müasir infrastruktur qurulur, evlər, sosial obyektlər inşa edilir, sakinlərin rahat, təhlükəsiz şəkildə yaşamaları üçün hərtərəfli şərait yaradılır. Keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdırıldıqları ərazilər daimi içməli su, elektrik enerjisi, təbii qazla, yüksəksürətli rabitə xətti ilə təmin olunub. S.Qəhrəmanov, həmçinin qeyd etdi ki, ata-baba yurduna qayıdan insanların məşğulluq məsələləri də daim diqqətdə saxlanılır.

Vətən həsrəti sona çatan sakinlər illərdən sonra doğma yurdlarına qovuşmağın sevincini XQ-nin oxucuları ilə bölüşdülər, hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə dövlət başçısına, torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad etdilər. Bildirdilər ki, onların həyatında yeni mərhələ başlayır, bundan sonra Qarabağımızın inkişafı, çiçəklənməsi üçün hər biri əlindən gələn töhfəni verməyə çalışacaq.

Qeyd edək ki, “Böyük Qayıdış” çərçivəsində köç prosesi mərhələli şəkildə davam etdirilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Müasir beynəlxalq münasibətlər sistemi dərin struktur dəyişiklikləri mərhələsindən keçir. XX əsrin sonlarında formalaşmış liberal beynəlxalq nizam artıq əvvəlki funksionallığını qoruyub saxlaya bilmir. Qlobal güc balansı sürətlə dəyişir, böyük dövlətlərarası rəqabət intensivləşir, normativ arqumentlər isə getdikcə daha çox real güc faktorları ilə əvəzlənir. Bu kontekstdə Avropa İttifaqının özünü necə tənzimləyəcəyi həm nəzəri, həm də praktiki baxımdan diqqət çəkir. Bir neçə gün öncə Fridrix Mertsin Almaniya Bundestaqında səsləndirdiyi fikirlər də mövcud reallığı bir daha təsdiqləyir. Onun Avropa İttifaqını “imperializmə və avtoritarizmə alternativ” kimi təqdim etməsi “qoca qitə”nin uzun müddət davam edən normativ güc konsepsiyasını yeni geosiyasi reallıqlara uyğunlaşdırmaq cəhdinin ifadəsidir. Yəni Mertsin çıxışı bir növ Avropa strateji düşüncəsinin transformasiyasını əks etdirir deyə bilərik.**

# Qlobal güc nizamının dağılması və özünüdərk

## *Postillüziya Avropasında qlobal duruma uyğunlaşma*

Məlumdur ki, Avropa İttifaqı “soyuq müharibə”dən sonrakı dövrdə öz beynəlxalq rolunu əsasən normativ güc anlayışı üzərində inşa etdi. Demokratiya, insan hüquqları, hüququn aliliyi və çoxtərəflilik İttifaqın xarici siyasət diskursunun mərkəzində dayanırdı. Sözügedən model müəyyən müddət ərzində uğurlu oldu və kontinentə hərbi gücə birbaşa müraciət etmədən təsir imkanları yaratdı. Lakin son onillikdə bu yanaşmanın struktur məhdudiyyətləri aydın şəkildə üzə çıxmağa başlayır. Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə davam edən qeyri-sabitlik, Çin faktorunun güclənməsi və ABŞ-ın qlobal prioritetlərini yenidən nəzərdən keçirməsi Avropanı normativ idealizmlə real təhlükəsizlik ehtiyacları arasında seçim etməyə məcbur etdi.

Ona görə də Fridrix Mertsin “Avropa artıq güc siyasətinin dilini anlamalı və bu dildə danışmağı öyrənməlidir” fikirləri təbii qarşılanmalıdır.

Son zamanlar Avropa siyasi diskursunda ABŞ-a qarşı tənqidi yanaşmalara daha çox təsadüf olunur. Xüsusilə Donald Tramp administrasiyası dövründə bu yanaşma emosional xarakter alaraq müəyyən mərhələdə anti-Amerika isterikası səviyyəsinə yüksəldi. Ticarət mübahisələri, NATO çərçivəsində maliyyə öhdəlikləri ilə bağlı təzyiqlər, eləcə də Qrenlandiya məsələsi Avropada ABŞ-a qarşı dərin narazılıq yaratmışdı. Hazırkı mərhələdə isə bu isterik ritorikanın tədricən yumşaldığı müşahidə olunur. Bunun səbəbini ideoloji yaxınlaşma ilə izah etmək düzgün olmaz. Geosiyasi reallıqların diktə etdiyi rasional seçimlər də prosesdə rol oynayır. Avropa siyasi elitaları açıq şəkildə qəbul edirlər ki, ABŞ hələ də qlobal təhlükəsizlik arxitekturasının əsas dayağıdır və onun dominantlığı yaxın perspektivdə alternativsizdir. Bu yanaşma Avropanın ABŞ dominantlığını qəbul etməsi, lakin bu dominantlıq daxilində öz manevr imkanlarını genişləndirmək istəyi kimi şərh olunmalıdır. Daha dəqiq desək, bununla Avropa nə anti-Amerika xəttinə qayıtmağı, nə də əvvəlki kimi təhlükəsizlik məsuliyyətini tam şəkildə Vaşinqtonun üzərinə atmağı hədəfləyir.



Mertsin çıxışında xüsusi yer tutan texnoloji müstəqillik anlayışı da Avropa İttifaqının strateji gələcəyini müəyyən edən əsas faktorlar sırasındadır. Müasir dünyada texnologiya iqtisadi inkişafla yanaşı, həm də siyasi suverenliyin əsas elementinə çevrilib. Rəqəmsal infrastruktur, yarımkeçiricilər, süni intellekt, enerji texnologiyaları və məlumat təhlükəsizliyi artıq klassik hərbi güclə eyni səviyyədə strateji əhəmiyyət daşıyır. Avropa uzun müddət ABŞ və Çin texnoloji ekosistemləri arasında balanslı mövqe tutmağa çalışırdı. Lakin bu mövqe getdikcə davamlılığını itirir. Texnoloji asılılıq Avropanın xarici siyasət müstəqilliyini məhdudlaşdırır və onu qlobal rəqabətdə zəif mövqeyə salır. Buna görə də texnoloji müstəqillik çağırışı siyasi təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, mövcud reallıqlar fonunda 27 üzvlük Avropa İttifaqının daxili “heterogenliyi” onun qlobal ambisiyalarının qarşısında əsas maneələrdən biri olaraq qalır. Lakin son dövrlər müşahidə olunan koordinasiyalı reaksiyalar, xüsusilə xarici təzyiqlərə qarşı birgə mövqe Aİ daxilində strateji konsensusun formalaşmaqda olduğunu göstərir. Mertsin vurğuladığı kimi, Avropa artıq gömrük rüsumları və siyasi təzyiqlər qarşısında parçalanan aktor olmaq istəmir. Bu yanaşma Aİ-nin institusional yetkinliyinin artdığını göstərən mühüm göstəricidir.

Sonda belə bir nəticəyə gəlmək olar ki, Fridrix Mertsin mövqeyi Avropa İttifaqının yeni strateji özünüdərk mərhələsini simvolizə edir. Bu mərhələdə Avropa nə idealist normativ ritorikaya qayıdır, nə də güc siyasətini dəyərlərdən tam ayrı düşünür. Formalaşmaqda olan model realizmlə normativliyin sintezini hədəfləyir. Başqa sözlə desək, ABŞ dominantlığının qəbul edilməsi, anti-Amerika isterikasının aradan qalxması, təhlükəsizlik məsuliyyətinin bölüşdürülməsi və texnoloji müstəqillik bu sintezin əsas sütunlarıdır. Yeni yanaşma hələ tam formalaşmasa da, qarşısında ciddi institusional, iqtisadi və siyasi maneələr mövcuddur. Amma yenə də mövcud qlobal qeyri-müəyyənlik şəraitində Avropa İttifaqının hələ də alternativ düşüncə və davranış modeli irəli sürə bilən nadir siyasi layihələrdən biri kimi dəyərləndirmək mümkündür. Birliyin gələcəkdə qlobal sistemdə hansı mövqeni tutacağı isə yeni strateji özünüdərkin nə dərəcədə ardıcıl və funksional şəkildə həyata keçiriləcəyindən asılı olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Zaur MƏMMƏDOV,**
**politoloq**

Əslində, bu, əvvəlcədən gözlənilən proses idi. Çünki hər bir dövlətin və hər bir təşkilatın öz maraqları var və bu maraqlar həmişə üst-üstə düşmür. Bu gün dünyada qlobalistlər və anti-qlobalistlər arasında mübarizə davam edir. Eyni zamanda, dünyanın maliyyə və iqtisadi resursları ilə bağlı Avropa Birliyi yeni hədəflər müəyyənləşdirməlidir. Belə olan halda, təbii ki, bir çox suallar ortaya çıxır.

Fakt budur ki, Avropa İttifaqı ABŞ olmadan öz təhlükəsizliyini qorumaq istəsə, ÜDM-in 10 faizi hərbi sahəyə yönəldilməlidir. Bu da indiki şəraitdə Avropa ölkələri üçün mümkün görünmür. “Qoca qitə”də yaxşı başa düşürlər ki, ABŞ-ın dəstəyi olmadan Avropa İttifaqının təhlükəsizliyi ilə bağlı real və ciddi əməli addımların həyata keçirilməsi, ən yaxşı halda, növbəti 10 il ərzində mümkün olacaq. Eyni zamanda, ABŞ Avropa İttifaqı üçün hələ də vacibdir. Qlobal maraqlar bunu tələb edir. Ola bilsin ki, iqtisadi məsələlərdə bəzi fikir ayrılıqları mövcuddur, amma strateji baxımdan birlik olmaq Avropanın əsas tələblərindəndir.

# Azərbaycan cəmiyyətinin “özünütəftiş”i

## I MƏQALƏ

### Cəmiyyətin “özünütəftiş”i nə deməkdir?

Hər bir inkişaf edən cəmiyyət mütləq zaman-zaman özünün tarixinə, kimliyinə, mənəvi-mədəni, əxlaqi özəlliklərinə fərqli bucaq altında baxır və bu mənada özünüyaratma və təşkiletmə fəlsəfəsini “təftiş” kimi sferalarının qarşılıqlı münasibətlərinin çağdaş zaman-məkan özəlliyi daxilində praktiki proyeksiyasını gerçək kollektiv mövcudolma fəlsəfəsindən kənarda reallaşdıra bilməz.

Vurğulanan iki səbəbə görə müstəqil dövləti olan qövmün indi özünü yenidən yaratmaq kimi bir prosesə ehtiyacı olmamalıdır. Söhbət ancaq, cəmiyyət miqyasında “özünütəftiş”dən gedə bilər.



edir. Bu, qövmün meydana çıxan yeni şərtlər fonunda daxilən “özünüyeniləşdirmə” fəallığıdır ki, başlıca məqsədi yeni tarixi şəraitdə varlığı və inkişafını təmin edə bilsin. Bu anlamda yeni şəraitə uyğunlaşsın, onun çağırışlarını öz maraqları sahəsində qiymətləndirə bilsin.

Bu proses müəyyən anlamda qövmün özünəqayıdışıdır. İllərlə müəyyən etdiyi bir sıra dəyərləri növbəti dəfə tarixin sınağından keçirməkdir.

Bütün aktiv xalqlar üçün bu cür davranış xarakterikdir. Onlar başqa səbəblərlə yanaşı, həm də özünü yenidən “nəzərdən keçirmək”, “yenidən sosial, siyasi, mənəvi-mədəni qiymətləndirmək” və bu anlamda “özünütəftiş etmək” keyfiyyətinə görə var olur və inkişaf potensialını genişləndirirlər.

Ancaq bu proses elmi təfəkkürün nurunda işıqlandırılanda çox “hamar”, “yalnız müsbət tonlu”, “hər kəsin hurreylə birləşib vahid mövqeyə gəlməli olduğu hadisə” kimi görünsə də, reallaşması mürəkkəb, ziddiyyətli və çox incə “insani məqamları” ehtiva edən kollektiv özünütəsdiq olayıdır. Cəmiyyətin, ümumiyyətlə, özünütəftişinin nəzəri obrazı ilə konkret qövm üçün onun praktiki təzahürünün qarşılıqlı münasibətləri sahəsində “müasir Azərbaycan cəmiyyətinin ictimai şüuru özünü necə və hansı məqsədlə “təftiş” edir?” sualına cavab axtarışları çox aktualdır.

Bu gün müşahidə etdiyimiz və toplumun çox müxtəlif xüsusiyyətlərini təftiş etmək xarakteri ilə seçilən cəhdlərin izahı üçün nəzəri səviyyədə “sosiumun özünütəftişi” anlayışının vacib olan xüsuslarına (özəl nəsnələrinə, sosial-mənəvi parametrlərinə, sosial-psixoloji əyaniləşmələrinə və s.) baxaq.

### “Özünütəftiş”in özünü yenidən yaratmaqdan fərqi

Cəmiyyətin bir-birindən müxtəlif aspektlərdə fərqləndiklərinə kimsə şübhə etmir. Bu kontekstdə fərqli faktorlar üzrə təsniflər aparıla bilinir. Onların sırasında müasir dövr üçün cəmiyyətlərin öz dövlətlərinə malik olub-olmamaları mühüm parametr hesab olunur. Çünki bu zaman millət-dövlət münasibətləri fonunda müxtəlif xarakterli olduqca düşündürücü aktual məsələlər meydana çıxır. Və hətta onları həll edə bilməyən qövmlərin dövlətlərini itirməsi riskini və təhlükəsini gözardı etmək faciə olur. Bir neçə nümunə göstərək.

Artıq müstəqil dövləti olan bir toplumun “özünütəftişi” həm də özünü yenidən yaratmasımı deməkdir? Axı bir millət (cəmiyyət, toplum, sosium) artıq mövcud olduğu mənəvi, əxlaqi, mədəni, dövlətqurma fəlsəfəsi, identikliyi və s. üzrə dövlətini qurmuşsa, özünü yenidən yaratma, kimliyini axtarma kimi fundamental faktorları necə yenidən müəyyən edə bilər? Onda onun qurduğu dövlətin sahibləri kimlərdir?

Bunlar mövzu ilə bağlı fundamental suallardır və dünyanın hər bir xalqı onlara cavab axtarışı ilə məşğul olmuşlar və indi də olurlar. Burada fərq konkret söhbətin hansı xalqdan getdiyi və onun tarixən topladığı təcrübə ilə əlaqəlidir.

Belə alınır ki, bir xalq dövlətini qurubsa, onun çətiri altında dövlətə sahib olmaq üçün bütün keyfiyyətlərə malikdir. Əks halda, həmin dövlət ya qondarma olar, ya da kənardan asılı.

Bundan başqa, tarix göstərir ki, müxtəlif xalqlar dövlət qurmaqla millətləşmək prosesinə fərqli şərtlər altında nail olurlar. Məsələn, ingilislər millət olmaqdan dövlət olmağa keçmişlər, almanlar və ya italyanlar isə, əksinə, dövlət olaraq millətləşmişlər.

Başqa tərəfdən, müasir müstəqil dövlətlər dövlətçilik ənənəsi adlanan və cəmiyyətin tarixi aspektdə siyasi, geosiyasi, mədəni, demoqrafik, etnik, mənəvi-əxlaqi

Bu prizmada ikinci mühüm məqamı da vurğulamaq gərəkdir.

### “Özünütəftiş”in siyasi və ideoloji hüdudları

Belə alınır ki, müstəqil dövlətini yaratmış cəmiyyətin kollektiv mahiyyət olaraq siyasi-ideoloji və mənəvi-əxlaqi kontekstlərdə “özünüyaratmaq” kimi bir prosesə girişməsi, reallıqda özünüməhvdir! Bu cəmiyyət özünü təftiş etməklə hər bir tarixi mərhələdə kökü, təməli, baza müəyyənedici faktorları saxlamaqla çağdaşlığa uyğun yeniləşə bilər və hətta bu, bir zərurətdir. Həmin anlamda “özünütəftiş” seçim deyildir – toplumun özünüdərkinin dövlətçilik və birgəyaşam kriteriyaları baxımından olduqca əhəmiyyətli tələbdir.

Vurğuldağımız bağlılıqda 2 mühüm faktorun təmin olunması şərtinin üzərində dayanaq.

Birincisi, “özünütəftiş” həmişə toplumun siyasi sərhədlərini dövlətçilik mənafeyi çərçivəsində müəyyən etməli və onu ictimai şüurda aktuallaşdırmalıdır. Bu o deməkdir ki, cəmiyyətin özünü təftiş etməsi daim milli maraqlar və müstəqil dövlətçilik hüdudlarını fəaliyyətinin fonunda “vizyonlaşdırmalı”, yəni kollektiv siyasi baxışın legitimliyini “görməli”dir. Bu hüdudların aşılması birbaşa dövlətçiliyə qəsd faktoru kimi qəbul edilməlidir.

Burada mühüm olanı ondan ibarətdir ki, bunu cəmiyyətin özü hakimiyyətin təsiri olmadan dərk etməsi gərəkdir. Çünki siyasi hakimiyyətin hər hansı təsiri dərhal fərqli anlamlarda təxribat yaratmaq hadisəsi kimi hallandırıla bilər. Cəmiyyətin özünün həmin məqamı anlaması isə həm də onun siyasi yetkinlik əlaməti olaraq əhəmiyyət kəsb edir.

İkincisi, “özünütəftiş” cəmiyyəti milli ideya və milli ideologiyadan saptırmamalıdır. Bu baxımdan özünütənqid müəyyən ideya sərhədlərinə malik olmalıdır. Onun son məqsədində cəmiyyətin bütövlüyünə, kimliyinə, ideya hədəflərinə zərər verə biləcək məqamların qalıcı olmasına imkan vermək olmaz.

Burada onu nəzərə alaq ki, kənardan daim məhz vurğuladığımız son tezisdə ifadə edilən məzmuna qarşı təsirlər olur. Bunu indi Azərbaycan cəmiyyəti nümunəsində də görürük. Azərbaycan Prezidenti çox müxtəlif kontekstlərdə, əslində bu barədə çox xəbərdarlıqlar etmişdir. Dövlət başçısının “Biz çox böyük daşları yerindən oynatmışıq” kəlamı artıq fəaliyyət kodlarından birinə çevrilmişdir. 2024-cü ildə keçirilmiş 2-ci Şuşa Qlobal Media Forumunun mövzusunun “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” adlandırılması həmin baxımdan heç də təsadüfi deyildi. Verilən suala cavabında yalan məlumatlar və dezinformasiya barədə dövlət başçısının cavabı çox əlamətdardır. Prezident İlham Əliyev demişdi: “Təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni, faktların manipulyasiyası, yanlış narrativlər”...Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir”.

Ölkə rəhbəri Andiçmə mərasimindəki nitqində məsələnin gənclərin mənəvi-əxlaqi dəyərlərinin qorunması aspektində aktuallığı xüsusi vurğulmışdır. Azərbaycan Prezidenti ifadə etmişdir: “Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın...”.

Prezident İlham Əliyev bu məsələnin konkret əsas tərkib hissələrini də açmışdır. Dövlət başçısı ifadə etmişdir: “...burada... ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir”.

Deməli, azərbaycanlılar bütün hallarda cəmiyyətin ailə sütununu möhkəmləndirməlidirlər. Onda bunun digər tərəfi də yüksək səviyyədə diqqətə alınmalıdır: Azərbaycanda ailə nümunəsinin zəiflədilməsinə yönəldilmiş hər hansı informasiyaya qarşı qətiyyətlə mübarizə aparmaq gərəkdir. Ailəyə qarşı hər hansı qəsd, adını nə qoysalar da, toplumun psixologiyası və şüuru tərəfindən qətiyyətlə rədd edilməlidir. Bunun təməli isə konkret olaraq hər bir ailədəki tərbiyədə qoyulmalıdır.

Bu da kifayət etmir, çünki “ikinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır” (Prezident İlham Əliyev).

Bütün bunlardan dövlət başçısı əldə etdiyi çox əhəmiyyətli qənaətini ifadə etmişdir. Prezident İlham Əliyev demişdir: “Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur”.

Beləliklə, iki mühüm məqamı bugünkü Azərbaycan cəmiyyətində müşahidə edilən və əsasən mənəvi, ideoloji, mədəni və əxlaqi xarakterli məsələlərə aid olan hadisələr kontekstində vurğulaya bilərik.

Birincisi, dezinformasiyalara qarşı “əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq”.

İkincisi, “eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük” (Prezident İlham Əliyev).

### Kənar təsirlərin fonu

Aydın görünür ki, Azərbaycan siyasi hakimiyyəti mövcud vəziyyəti dərindən anlayır və ona qarşı mövqeyi birmənalıdır. Ancaq nəzərə almaq gərəkdir ki, indi regional və qlobal miqyasda geosiyasi dinamika elədir ki, təsir vektorları da tez-tez dəyişə və ya yeni məzmunda təqdim edilə bilərlər. Bu da insanları zaman-zaman çaşdırır.

Bir sıra hallarda milli mövzu fərqli bucaq altında elə təqdim edilir ki, o, təbii olan müsbət təsirin əvəzinə, mənfi təsir göstərir. O mənada ki, sadə insanları öz cəmiyyəti və dövlət haqqında yanlış mövqeyə təhrik edir. Başqalarının maraqları, ümumiyyətlə, demokratiya, insan haqları və ya sivilləşmək kimi qələmə verilir. Bu prosesin konkret faktları haqqında bəhs edəcəyik.

Onu vurğulayaq ki, bütövlükdə sistemli və davamlı xarakter daşıyan həmin pozucu təsirlərin cəmiyyətin mənəvi-mədəni və ideoloji həyatına praktiki təsir etməməsi üçün ciddi çalışılmalıdır.

Özlüyündə milli maraqlar sferasına birbaşa aidiyyatı olan məqamların müzakirəsi də obyektiv və ciddi elmi əsaslarla aparılmalıdır. Hər hansı populist davranış dolayısı ilə kənar qüvvələrin maraqlarına xidmət edir. Həmin kontekstdə son zamanlar intensivləşən milli kimlik məsələsi çox həssas mövzu olaraq qəbul edilməlidir. Bir tərəfdən, hər zaman bu mövzu aktualdır, digər tərəfdən, artıq müstəqil dövləti olan millətin kimliyini “təftiş”in sərhədləri necə müəyyənləşməlidir? Bu baxımdan “azər”, yoxsa “azəri” ilə bağlı mübahisələr nə dərəcədə konstruktiv işdir?

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Macarıstan da daxil olmaqla, Avropa İttifaqına (Aİ) üzv 27 dövlət Ermənistana Avropa Sülh Fondundan (ASF) 20 milyon avro yardım ayrılmasını təsdiqləyib. Bu barədə “Azadlıq” radiosunun erməni xidməti (“Azatutyun”) məlumat yayıb.**

# Avropa Sülh Fondunun sülhə qarşı yürüşü

Qeyd edək ki, Ermənistan fonda yardım üçün müraciət etsə də, Budapeşt onu bloklayıb. Daha sonra Macarıstan ASF çərçivəsində Ermənistana vəsait ayrılmasına razılıq verib. Bu, Ermənistanın qurumdan ikinci dəfə dəstək alması deməkdir. Birinci dəfə 10 milyon ayrılıb. Bu dəfə məbləğ ikiqat artırılıb və prioritet Ermənistanın müdafiə qabiliyyətini gücləndirmək – logistika və tibbi avadanlıq, eləcə də zəruri texniki təlim təmin etməkdir. Vəsait növbəti 35 ay üçün nəzərdə tutulub.

ASF-nin birtərəfli addımları Bakıda haqlı etirazın yaranmasına səbəb olub. Prezident İlham Əliyev bununla bağlı Azərbaycan tərəfinin narazılığını dəfələrlə dilə gətirib. Dövlətimizin başçısı 2025-ci il martın 13-də “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumundakı çıxışında bu barədə bildirib: “Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək “Sezar” haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür. Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi”.

Xarici işlər naziri Ceyhun Bayramov isə 2025-ci il dekabrın 26-da ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Avropa Sülh Fondu Ermənistana yardım ayırırsa, eyni məbləğdə yardımın Azərbaycana da ayrılması vacibdir. Onun sözlərinə görə, ASF ilə bağlı məsələ müəyyən müddət əvvəl qaldırılıb: “Çünki onlar Ermənistana maliyyə ayırırdılar. Bu çərçivədə Azərbaycana da yardım ayrılması məsələsini qaldıran ölkələr arasında Macarıstan ən fəal mövqe tutan dövlət idi. Nəticədə digər qurumlardan Azərbaycana minatəmizləmə fəaliyyəti üçün 10 milyon avro məbləğində yardımın ayrılması barədə qərar qəbul olunmuşdu”.

XİN başçısı adı çəkilən fondun Ermənistana 20 milyon avro məbləğində yardım ayırma təşəbbüsü barədə də məlumatlı olduqlarını vurğulamışdı: “Eyni məbləğin Azərbaycana da ayrılması barədə məsələ qaldırırıq. Belə maliyyə dəstəyi Ermənistana edilirsə, eyni məbləğdə yardımın Azərbaycana da göstərilməsi vacibdir”.

* * *

Qeyd etmək lazımdır ki, Sülh Fondu adı altında Ermənistana növbəti maliyyə dəstəyinin ayrılması ilk baxışda humanitar və texniki yardım kimi təqdim olunur. Rəsmi izahata görə, ayrılan vəsait Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsinə, logistika, tibbi təminat və texniki təlimlərə yönəldiləcək. Lakin bölgənin son illərdəki təhlükəsizlik reallıqları fonunda bu qərar sülhə deyil, əksinə, qarşıdurma yaratmaq planına xidmət edir. Çünki Cənubi Qafqazda postmünaqişə dövrünün əsas çağırışı silahlanma deyil, etimadın qurulması, kommunikasiyaların açılması və siyasi dialoqun dərinləşdirilməsidir. Bu mərhələdə tərəflərdən birinin “müdafiə qabiliyyətinin artırılması” adı altında maliyyələşdirilməsi balansı pozan addım kimi görünür.

Avropa İttifaqı uzun illər bölgədə vasitəçi roluna iddialı olub, sülh çağırışları edib, indi isə qarşılıqlı etimad tədbirlərinin vacibliyini vurğulayır. Lakin paralel şəkildə hərbi komponenti olan fondlar vasitəsilə bir tərəfi gücləndirmək bu ritorikanı sual altına salır. Sülh yalnız bəyanatlarla deyil, ardıcıl və neytral siyasətlə mümkündür. Əks halda “sülh fondu” anlayışı öz mahiyyətini itirir və siyasi alətə çevrilir.

Xüsusilə diqqəti cəlb edən məqam ondan ibarətdir ki, vəsaitin ayrılması uzun müddəti – 2 il 11 ayı əhatə edir. Bu isə Ermənistanın gələcək təhlükəsizlik strategiyasının kənardan maliyyələşdirilməsi deməkdir. Bu yanaşma regionda revanşist düşüncələri stimullaşdıra, kompromisə meyli zəiflədə və danışıqlar prosesini müəyyən mənada arxa plana ata bilər. Yaddan çıxarmaq olmaz ki, müharibədən çıxmış cəmiyyətlər üçün əsas prioritet silahlanma yox, bərpa və barışıqdır. Əgər beynəlxalq aktorlar həqiqətən sülh və sabitlik istəyirlərsə, diqqəti sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, humanitar əməkdaşlıq və iqtisadi inteqrasiyaya yönəltməlidirlər. Müdafiə qabiliyyətinin gücləndirilməsi isə bu mərhələdə yanlış siqnaldır.



Yeri gəlmişkən, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası regionda etimadın möhkəmləndirilməsi məqsədi ilə təqdim olunsa da, onun fəaliyyəti ilk gündən ciddi suallar doğurur. Missiyanın mandatı rəsmi olaraq mülki xarakter daşısa da, onun praktik fəaliyyəti və siyasi fonu bu iddialarla üst-üstə düşmür. EUMA-nın fəaliyyəti faktiki olaraq bölgədə yeni siyasi xətt yaradır və Ermənistanın təhlükəsizlik tezislərini beynəlxalq səviyyədə möhkəmləndirməyə xidmət edir. Bu isə sülh gündəliyinə yox, qarşıdurma psixologiyasının qorunmasına töhfə verir. Postmünaqişə mərhələsində əsas ehtiyac yeni missiyalar deyil, qarşılıqlı etimad və birbaşa dialoqdur. EUMA isə mövcud formatda bu məqsədlərə yaxınlaşmaq əvəzinə, regionda əlavə sual işarələri yaradır.

Qeyd etdiyimiz kimi, bu məsələ ölkəmizdə haqlı etirazla qarşılanıb. Rəsmi Bakı bu qərarı bölgədə formalaşmaqda olan həssas balansı pozan, sülh prosesinə xidmət etməyən addım kimi qiymətləndirir. Azərbaycanın etirazının əsasında emosional yanaşma yox, konkret siyasi və təhlükəsizlik arqumentləri dayanır. Çünki rəsmi Bakı postmünaqişə mərhələsində ardıcıl şəkildə sülh gündəliyini irəli sürür, normallaşma, kommunikasiyaların açılması və hüquqi çərçivədə münasibətlərin tənzimlənməsi istiqamətində təşəbbüslər göstərir. Belə bir şəraitdə tərəflərdən birinin müdafiə imkanlarının xarici maliyyə hesabına gücləndirilməsi sülh mühitinə uyğun gəlmir. Bu cür dəstək İrəvanda təhlükəsizlik illüziyası yaradır və konstruktiv kompromislərə marağı azaldır. Rəsmi Bakı açıq şəkildə bildirir ki, bölgədə davamlı sülh silahlanma yolu ilə yox, siyasi iradə və qarşılıqlı öhdəliklər əsasında mümkündür. Ermənistanın real təhlükəsizlik ehtiyacı xarici maliyyə paketlərində deyil, region dövlətləri ilə münasibətlərin normallaşmasındadır. Əks yanaşma isə yeni gərginlik risklərini artırır. Nəticə etibarilə, Avropa İttifaqının bu addımı bölgədə sülhə xidmət edən təşəbbüs kimi yox, ziddiyyətli və riskli qərar kimi qiymətləndirilməlidir. Cənubi Qafqazın sabitliyə ehtiyacı var, yeni hərbi balans axtarışlarına yox. Sülh fondu isə adında daşıdığı missiyadan fərqli olaraq, sülhə aparan yolu daraldır.

***Səxavət HƏMİD***
***XQ***

# “3+3”ün işlək mexanizmə çevrilmə vaxtı çatıb

**Cənubi Qafqazda son illər formalaşan yeni geosiyasi reallıqlar regiondaxili əməkdaşlıq və dialoq mexanizmlərinə ehtiyacı daha da artırıb. Məhz bu kontekstdə “3+3” formatı bölgədəki problemlərin region ölkələrinin özləri və birbaşa qonşular arasında müzakirə olunmasını hədəfləyən alternativ siyasi platforma kimi diqqət çəkir. Bu əməkdaşlıq formatında nazirlər səviyyəsində üçüncü görüşün hazırlıq mərhələsinə keçilməsi regionda diplomatik aktivliyin artdığını göstərir. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Türkiyə mediasına verdiyi müsahibədə görüşün yerinin seçiləcəyinə dair açıqlaması “3+3”-ün gündəmdə olduğunu təsdiqləyir.**




Əvvəlcə onu qeyd edək ki, bu formatın tarixi və siyasi kökləri “Qafqaz evi” konsepsiyası ilə sıx bağlıdır. Vaxtilə regionun vahid təhlükəsizlik, iqtisadi və mədəni məkan kimi formalaşdırılmasını nəzərdə tutan bu yanaşma Qafqaz xalqları arasında qarşılıqlı etimadın və birgə məsuliyyətin artırılmasını hədəfləyirdi. Müasir mərhələdə Azərbaycanın təşəbbüsü və rəsmi Ankaranın dəstəyi ilə formalaşan “3+3” məhz bu konsepsiyanın praktik və daha realist davamı kimi çıxış edir. “Qafqaz evi” anlayışında olduğu kimi, burada da əsas prinsip regionun taleyinin bölgə aktorları tərəfindən müəyyənləşdirilməsidir.

Lavrovun açıqlamalarında diqqətçəkən məqamlardan biri Gürcüstanın hələlik bu formatda iştirakdan çəkinməsidir. Rusiya XİN başçısı Tbilisinin mövqeyinə baxmayaraq, “qapının açıq” olduğunu vurğulamaqla formatın inklüziv xarakter daşıdığını nümayiş etdirib. Gürcüstanın ehtiyatlı mövqeyi isə onun Qərb strukturları ilə inteqrasiya kursu və Rusiya ilə münasibətlərində mövcud gərginliklə izah olunur. Bununla belə, formatın davamlılığı və konkret nəticələr verməsi Tbilisinin gələcəkdə mövqeyini yenidən nəzərdən keçirməsi ehtimalını istisna etmir. Digər tərəfdən, “3+3” təşəbbüsünün siyasi çəkisini artıran amillərdən biri Türkiyənin bu prosesdə fəal rol oynamasıdır. Lavrovun Türkiyənin xarici işlər naziri Hakan Fidanın təşəbbüsü aktiv şəkildə dəstəklədiyini xüsusi vurğulaması Ankaranın Cənubi Qafqazda artan diplomatik nüfuzunun göstəricisidir. Türkiyə bu format vasitəsilə həm regional sabitliyin möhkəmlənməsində, həm də nəqliyyat-tranzit layihələrinin irəliləməsində açar oyunçu kimi çıxış etməyə çalışır.

* * *

ABŞ-da Donald Trampın hakimiyyətə qayıdışı, ötən il avqustun 8-də Vaşinqton razılaşmasından sonra formalaşan yeni siyasi konfiqurasiya və TRIPP çərçivəsində artan diplomatik fəallıq Ağ Evin regiona marağını ortaya qoyur. Bu kontekstdə “3+3” formatının gələcəkdə ABŞ-ın iştirakı ilə “4+3” modelinə transformasiyası gündəmə gələ bilər. Mövcud reallıqlar göstərir ki, sözügedən formatın fəlsəfəsi məhz regiondan kənar güclərin birbaşa institusional iştirakını istisna etməyə hesablanıb. Bu model böyük güclər arasında rəqabət meydanına çevrilmiş Cənubi Qafqazda regional subyektliyin qorunmasını əsas prinsip kimi irəli sürür. Lakin bu heç də rəsmi Vaşinqtonun formatda heç vaxt iştirak etməyəcəyi anlamına gəlmir. Ən azından, birbaşa olmasa belə, dolayısı ilə, yəni enerji və digər sahələrdə əməkdaşlıq ABŞ-ın “3+3” formatında iştirakına zəmin yarada bilər.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** XQ-yə açıqlamasında bildirdi ki, “3+3” formatı rəsmi Bakının maraqlarına cavab verən mexanizmdir. Onun sözlərinə görə, vaxtilə onun gündəmə gətirilməsinin təşəbbüskarı



məhz Azərbaycan olub: “Bu format regional təhlükəsizliyin təmininə yönəlib və artıq bu çərçivədə bir neçə görüş keçirilib. Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, geosiyasi reallıqlar dəyişir. Məsələn, hazırda Gürcüstan hələlik bu formata qoşulmaqdan imtina edib. Bunun əsas səbəbi Tbilisi və Moskva arasında münasibətlərin faktiki olaraq sıfır səviyyəsinə düşməsi, diplomatik əlaqələrin mövcud olmamasıdır”.

Politoloq İranda baş verən hadisələrin regiona və birbaşa “3+3” formatına təsirini də istisna etmədi. Amma onu da bildirdi ki, Qafqaz ölkələrinin hamısı İranda sabitliyin hökm sürməsində maraqlıdır. Onun fikrincə, başqa bir məsələ Ağ Evin “3+3” formatında iştirakıdır: “Bu, Vaşinqtonla Tehran arasında mövcud gərginliklər fonunda, demək olar ki, mümkünsüzdür. Bu formata ABŞ-ın daxil olması məsələsinə mən ehtiyatla yanaşıram. Doğrudur, ABŞ Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı öz mövqeyini ortaya qoyur və danışıqlar çərçivəsində müəyyən addımlar da atıb. Bununla belə, “3+3” regional formatdır və bu çərçivədə regiondan kənar ölkələrin digər dövlətlərlə münasibətləri bu mexanizm üzərindən inkişaf etdirməsi real görünmür. Xüsusilə ABŞ–Rusiya, ABŞ–İran münasibətlərinin mövcud durumu və paralel problemlər bunu çətinləşdirir”.

**Politoloq Tofiq Abbasov** qeyd etdi ki, “3+3” formatının mövcudluğunu qorumaq üçün onun yaradılmasında iştirak edən rəsmi Bakının formata verdiyi töhfə



həyati əhəmiyyət kəsb edir: “Məlumdur ki, “3+3” formatı Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə meydana gəlib və bu təşəbbüsü ilk olaraq Türkiyə lideri dəstəkləyib. “3+3” formatı mahiyyət etibarilə regionda təsir gücünə malik üç böyük dövlətin və onlara coğrafi və siyasi baxımdan yaxın olan nisbətən kiçik 3 ölkənin iştirakına əsaslanır. Bu ikinci üçlük daxilində isə Azərbaycanın rolu son dərəcə vacibdir. Çünki ölkəmizin artıq orta gücə çevrilməsi beynəlxalq birlik tərəfindən müsbət qarşılanır. Digər tərəfdən, ölkəmizin xarici əlaqələri, enerji və nəqliyyat layihələri, eləcə də irəli sürdüyü təşəbbüslər real nəticələr verən, işlək mexanizmlərdir. Bu layihələr praktiki olaraq həm Azərbaycana, həm də tərəfdaşlarımıza və qonşu ölkələrə ciddi faydalar gətirir”.

Politoloq vurğulayıb ki, “3+3” formatının bu mərhələdə əsas rolu hərbi qarşıdurma və sülh məsələləri ilə bağlı qəti mövqe ortaya qoymaq olmalıdır. Onun sözlərinə görə, bu mövqe şübhəsiz ki, rəsmi Bakının diplomatik xəttinə tam uyğundur: “Azərbaycan bütün mürəkkəb və mübahisəli məsələlərdə sülhə hazır olduğunu açıq şəkildə bəyan edir və hesab edir ki, mövcud suallara yalnız diplomatik yollarla əsaslandırılmış və tutarlı cavablar tapılmalıdır. Eyni zamanda, bu proseslər fonunda destruktiv mövqedən çıxış edən qüvvələrin fəallığı da müşahidə olunur. Belə yanaşmalara imkan vermək, onlara meydan açmaq qətiyyən yolverilməzdir. Çünki müharibəni dəstəkləyib sülhü rədd edən mövqelər ümumi maraqlarımıza, kollektiv iradəmizə və gələcək niyyətlərimizə ziddir”.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) əməkdaşı Fuad Abdullayev** isə hesab edir ki, bu format rəsmi Bakı üçün həyati əhəmiyyət daşımır, əsas məsələ bölgədə sabitliyin qorunub-saxlanılmasıdır: “Azərbaycan üçün əsas prioritet regionda sabitliyin möhkəmləndirilməsi və kommunikasiya xətlərinin açılmasıdır. Bu kontekstdə “3+3” formatını alternativsiz mexanizm kimi deyil, mövcud ikitərəfli və çoxtərəfli platformaları tamamlayan əlavə dialoq vasitəsi kimi dəyərləndirmək olar. Azərbaycan tərəfi dəfələrlə vurğulayıb ki, regionda davamlı sabitliyin təmin olunması üçün çoxtərəfli dialoq platformalarının mövcudluğu vacibdir və bu cür təşəbbüslər sülh mühitinin formalaşmasına töhfə verə bilər”.

Ekspert formatın hazırda praktik effektivliyinin müəyyən məhdudiyyətlərlə üzləşdiyini qeyd etdi: “Qeyd etmək lazımdır ki, bu format indiyədək tam tərkibdə fəaliyyət göstərə bilməyib. Gürcüstan bu platformada iştirak etmir. Gürcüstan tərəfi hesab edir ki, Rusiya ilə eyni regional platformada təmsil olunmaq onun ərazi bütövlüyü məsələsi kontekstində, dolayısı ilə milli maraqları baxımından uyğun deyil. Məhz formatla bağlı əsas narahatlıq da bundan qaynaqlanır. Nəticə etibarilə, Gür-



cüstanın iştirakı olmadığı üçün bu mexanizm faktiki olaraq “3+2” və ya “5+1” formatında fəaliyyət göstərir və “3+3” tam mənada işlək vəziyyətdə deyil”.

F.Abdullayev Ağ Evin bu formatda iştirakına da münasibət bildirib. Onun sözlərinə görə, bu ssenari real görünmür: “Çünki “3+3” region ölkələri arasında dialoq üçün nəzərdə tutulub. Digər tərəfdən, mövcud geosiyasi vəziyyət də belə bir genişlənməyə imkan vermir. Xüsusilə ABŞ ilə İran arasında yaşanan gərginlik bu ehtimalı istisna edir”.

Nəticə etibarilə, “3+3” formatında nazirlər görüşünün hazırlıq mərhələsinə keçilməsi Cənubi Qafqazda regional diplomatiyanın institusionallaşması istiqamətində atılan növbəti addım kimi qiymətləndirilə bilər. Bu format hələlik bütün problemləri həll edən mexanizm olmasa da, region ölkələri üçün dialoq və qarşılıqlı anlaşma platforması yaratmaq baxımından mühüm siyasi alət olaraq qalır.

***Tacir SADIQOV***
***XQ***

# Fransa “siyasi buzlaşma” dövrü yaşayır

## *İnsan hüquqlarının hakimiyyət maraqlarına qurban verilməsi*

**Fransa cəmiyyətində son günlər aparılan sosioloji tədqiqatlar və xüsusilə CSA İnstitutunun CNews, Europe 1 və JDD üçün həyata keçirdiyi genişmiqyaslı rəy sorğusu siyasi arenada şok effekti yaradıb. Sorğunun nəticələrinə əsasən, Fransa vətəndaşlarının təxminən 67 faizi miqrasiya axınının növbəti iki-üç il ərzində tamamilə dondurulmasını dəstəkləyir. Bu rəqəm Beşinci Respublika tarixində baş verən fundamental paradiqma dəyişikliyinin, cəmiyyətin dərin qatlarında kök salan təşvişin və multikulturalizm modelinin iflasa uğramasının bariz təzahürüdür.**

Nəticələr bütövlükdə Avropa İttifaqının gələcək siyasi kursunu kökündən dəyişdirə biləcək potensiala malikdir. Məsələnin aktuallığı Avropa qitəsində miqrantlara qarşı irqi, dini və etnik ayrı-seçkiliyin institusional səviyyədə leqallaşdırılması cəhdləri ilə birbaşa əlaqəlidir. Fransız cəmiyyətinin miqrasiyaya qarşı radikal mövqe sərgiləməsi təsadüfi xarakter daşımır və illərlə formalaşan sosial-iqtisadi narazılıqların, kimlik böhranının və ultrasağçı qüvvələrin apardığı aqressiv təbliğatın məntiqi yekunudur.

Sorğunun detallarına nəzər saldıqda cəmiyyətin demək olar ki, bütün təbəqələrində miqrasiya əleyhinə konsensusun formalaşdığı müşahidə olunur. Əvvəllər miqrasiya məsələsi daha çox yaşlı nəslin və mühafizəkar elektoratın narahatlıq predmeti idisə, hazırkı mənzərə tamamilə fərqlidir. Gənclər arasında, xüsusilə 18-24 yaş aralığında olan cavabdehlərin əhəmiyyətli hissəsinin miqrasiya moratoriumunu dəstəkləməsi siyasi analitiklər üçün gözlənilməz siqnal olub. Sözügedən tendensiya onu göstərir ki, ənənəvi "solçu gənclik" stereotipi artıq reallığı əks etdirmir və iqtisadi qeyri-müəyyənlik, işsizlik, təhlükəsizlik problemləri gənc nəsli daha radikal həll yollarına meylləndirir. “Milli Birlik” partiyası elektoratının 96 faizinin miqrasiyanın dondurulmasını dəstəkləməsi gözlənilən hal olsa da, mərkəzçi və hətta sol meyilli seçicilər arasında da oxşar əhval-ruhiyyənin artması Makron hakimiyyəti üçün həyəcan siqnalıdır.

Məsələnin kökündə dayanan əsas amillərdən biri Avropada son illər vüsət alan və miqrantları “mədəni təhlükə” kimi təqdim edən ümumavropa miqyaslı kampaniyadır. Qeyd olunan kampaniya qanunvericilik bazasına sirayət edir. Fransada 2024-cü ilin əvvəlində qəbul edilən və konstitusiya böhranına səbəb olan “Miqrasiya Qanunu” məhz həmin dalğanın nəticəsidir. Bu qanun əcnəbilərin sosial müavinətlərə çıxışını məhdudlaşdırmaq, ailə birləşməsini çətinləşdirmək və vətəndaşlıq hüququnu sərtləşdirmək kimi müddəaları özündə ehtiva edirdi. İndi isə cəmiyyətin 67 faizinin miqrasiyanı tamamilə dondurmaq istəyi mövcud sərt tədbirlərin kifayət etmədiyini düşünən kütlənin mövcudluğunu ortaya qoyur. Bu yanaşma, mahiyyət etibarilə, insan hüquqları bəyannamələrinin beşiyi sayılan Fransanın, etnik və dini mənsubiyyətə görə insanları kateqoriyalara ayıran, “biz” və “onlar” diskursunu rəsmiləşdirən sistemə keçid etdiyini göstərir.

Miqrantlara qarşı yönələn nifrət ritorikasının mərkəzində, şübhəsiz ki, islamofobiya və irqi ayrı-seçkilik dayanır. “Siyasi İslam” və ya “Respublika dəyərlərinin qorunması” adı altında aparılan müzakirələr Şimali Afrika və Yaxın Şərq mənşəli insanları hədəfə alır. Fransız cəmiyyətində “Böyük əvəzlənmə” kimi konspirasiya nəzəriyyələrinin əsas siyasi debatlarda yer alması vəziyyətin ciddiliyini göstərir. Erik Zemmur və Marin Le Pen kimi siyasi fiqurların illərdir apardıqları təbliğat, miqrasiyanı demoqrafik təhlükə kimi təqdim edərək, cəmiyyətdə qorxu və nifrət toxumları səpməyə nail olub. Həmin 67 faiz göstəricisi məhz qorxunun siyasi kapitala çevrilmiş formasıdır. İnsanlar gündəlik həyatda qarşılaşdıqları problemlərin xəstəxanalarda növbələrin, məktəblərdə keyfiyyətin aşağı düşməsinin, mənzil çatışmazlığının yeganə səbəbkarı kimi miqrantları görməyə məcbur edilir. Halbuki, iqtisadi ekspertlər Fransanın demoqrafik qocalma prosesini və işçi qüvvəsinə olan ehtiyacını nəzərə alaraq, miqrasiyanın dondurulmasının iqtisadi intihar olacağını dəfələrlə vurğulayırlar.

Qərbi Avropada müşahidə olunan həmin tendensiya təkcə Fransa ilə məhdudlaşmır. Almaniyada “Almaniya üçün alternativ” partiyasının yüksəlişi, İtaliyada Ciorcia Meloni hökumətinin sərt miqrasiya siyasəti, Niderlandda Gert Vildersin qələbəsi – bütün bunlar vahid zəncirin halqalarıdır. Avropa İttifaqı səviyyəsində qəbul edilən “Miqrasiya və Sığınacaq Paktı”, əslində, insan hüquqlarını arxa plana keçirərək, sərhədlərin hərbiləşdirilməsini və sığınacaq axtaranların kənarda saxlanılmasını hədəfləyir. Fransızların tələbi, Avropanın “Qala” mentalitetinə keçid etmək arzusunun bariz nümunəsidir. Bu mentalitet Aralıq dənizində batan gəmilərə göz yummaq, sərhədlərdə tikanlı məftilləri artırmaq və üçüncü ölkələrlə (məsələn, İtaliya–Albaniya razılaşması, Böyük Britaniya–Ruanda planı) qeyri-humanitar müqavilələr imzalamaq kimi praktikalarla müşayiət olunur.

Mövcud proseslərin davamı olaraq baş verə biləcək hadisələrin təhlili olduqca bədbin ssenariləri ortaya qoyur. Birinci növbədə, Fransada siyasi sistemin iflic olması ehtimalı yüksəkdir. Prezident Makronun mərkəzçi qüvvələri ilə parlamentdə güclənən sağçı blok arasında qarşıdurma qanunvericilik prosesini dalana dirəyə bilər. Əgər hökumət xalqın tələbini nəzərə alaraq miqrasiya moratoriumuna gedərsə, bu addım Fransa Konstitusiya Şurası və Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən ləğv edilə bilər.

İkinci mühüm ssenari sosial iğtişaşlar və vətəndaş qarşıdurması riskidir. Fransanın şəhərətrafı qəsəbələrində yaşayan milyonlarla miqrant mənşəli vətəndaş dövlətin onları arzuolunmaz şəxs elan etməsini onlara qarşı rəsmi düşmənçilik aktı kimi qəbul edəcək. Artıq illərdir davam edən polis zorakılığı, iş yerlərində ayrı-seçkilik, sosial izolyasiya fonunda miqrasiyanın dondurulması və vətəndaşlıq hüquqlarının məhdudlaşdırılması barədə müzakirələr 2005-ci il iğtişaşlarını kölgədə qoyacaq miqyasda etiraz dalğasına səbəb ola bilər. Cəmiyyətin qütbləşməsi irqi zəmində toqquşmaları qaçılmaz edir.

Üçüncü istiqamət isə iqtisadi fəsadlardır. Tikinti, kənd təsərrüfatı, səhiyyə və xidmət sektorlarında işçi qüvvəsinin əhəmiyyətli hissəsini məhz miqrantlar təşkil edir. Miqrasiyanın dondurulması qısa müddətdə həmin sektorlarda ciddi kadr çatışmazlığına, qiymətlərin artmasına və xidmət keyfiyyətinin aşağı düşməsinə səbəb olacaq.

Beynəlxalq müstəvidə isə Fransanın Afrika ölkələri ilə münasibətlərinin kəskinləşməsi gözləniləndir. Keçmiş koloniyalar, Parisin apardığı diskriminativ siyasətə cavab olaraq, diplomatik və iqtisadi əlaqələri minimuma endirə, fransız şirkətlərinin fəaliyyətini məhdudlaşdıra və fransız dilinin statusundan imtina edə bilərlər. Hazırda Saheldə müşahidə olunan anti-Fransa əhval-ruhiyyəsi miqrasiya qadağaları ilə daha da alovlanacaq və Fransanın qlobal nüfuzuna sarsıdıcı zərbə vuracaqdır. Avropa daxilində isə Şengen zonasının gələcəyi sual altına düşəcək. Əgər Fransa sərhədlərini bağlayarsa və ya miqrant axınını qonşu ölkələrə yönəldərsə, İtaliya, İspaniya və Almaniya ilə diplomatik gərginlik pik həddə çatacaq.



Hazırkı situasiya Avropa dəyərlərinin dərin böhranını nümayiş etdirir. İkinci Dünya müharibəsindən sonra "bir daha heç vaxt" şüarı ilə qurulan Avropa layihəsi irqçiliyi və ksenofobiyanı rədd edən prinsiplər üzərində bərqərar olmuşdu. Lakin bu gün şahidi olduğumuz proseslər həmin prinsiplərin iqtisadi çətinliklər və kimlik qorxusu qarşısında necə asanlıqla qurban verildiyini göstərir. Fransız cəmiyyəti, təhlükəsizlik və rifah naminə azadlıq və bərabərlik ideallarından imtina etməyə hazır görünür.

67 faizlik dəstək göstəricisi Fransanın yolayrıcında olduğundan xəbər verir. Ya Fransa “respublika” ideallarına sadiq qalaraq inteqrasiya problemlərini sosial-iqtisadi islahatlar və dialoq yolu ilə həll etməyə çalışacaq, ya da qorxu və nifrətə təslim olaraq, qapalı, ksenofob və avtoritar bir dövlətə çevriləcək. Hər iki halda, qarşıdan gələn dövr Fransa və Avropa üçün son dərəcə turbulensiyalı, sınaqlarla dolu olacaq. Fransız seçicisinin qutuya atacağı hər bir bülleten sivilizasiya seçimidir. Təəssüf ki, indiki mərhələdə tərəzinin gözü qaranlıq ssenarilərə tərəf əyilməkdədir. Bu tendensiyanın qarşısını almaq üçün zaman sürətlə daralır. Siyasi elita, ziyalılar və vətəndaş cəmiyyəti, yaranmış uçurumu doldurmaq üçün effektiv addımlar atmazsa, Fransanı gözləyən gələcək, onun şanlı keçmişinə tamamilə zidd olacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı

# TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) təşkil olunması, habelə “Şəhərsalma və Memarlıq İli” və WUF13 ilə bağlı tədbirlərin həyata keçirilməsində əlaqələndirmənin təmin edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, WUF13-ün keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 2. | Şəhərsalma və memarlıq sahəsində ictimai maarifləndirmə işinin aparılması məqsədilə “Bakı şəhərsalma həftəsi” çərçivəsində, həmçinin “Ümumdünya Məskunlaşma Günü” və “Ümumdünya Şəhərlər Günü” ilə bağlı yerli və beynəlxalq tədbirlərin təşkil olunması | İl ərzində | Aidiyyəti dövlət orqanları (qurumları) |
| 3. | Bakıda və ölkənin digər şəhərlərində daha sağlam və dayanıqlı şəhər mühitinin formalaşması və ətraf mühitin qorunması məqsədilə tədbirlər görülməsi (mövcud parkların, tarix və mədəniyyət abidələrinin ərazisində və yaxın ərazilərdə abadlıq işləri, küçə və ictimai məkanların yenidən qurulması, yaşıllıq zolaqlarının (o cümlədən yolkənarı ərazilərdə) salınması və s.) | İl ərzində | Bakı Şəhər İcra Hakimiyyəti və digər yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, bələdiyyələr (tövsiyə olunur), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 4. | Azərbaycanın şəhərsalma və memarlıq irsinə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmış memarlıq məktəbinə və şəhərsalma sahəsində görülmüş irimiqyaslı işlərə dair məlumatların ictimaiyyətə təqdim edilməsi məqsədilə tədbirlərin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, aidiyyəti digər dövlət orqanları (qurumları) |
| 5. | Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma işləri, bərpa olunan memarlıq və tarixi-mədəni irs nümunələri haqqında materialların hazırlanması və ictimaiyyətə təqdim edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, aidiyyəti digər dövlət orqanları (qurumları) |
| 6. | Ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda “Şəhərsalma və Memarlıq İli” ilə əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunması, müvafiq sahədə elmi tədqiqatların və innovativ yanaşmaların dəstəklənməsi | İl ərzində | Elm və Təhsil Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Gənclər Fondu, Azərbaycan Elm Fondu, Azərbaycan Milli Elmlər Akademiyası |
| 7. | Bakı və digər şəhərlər tərəfindən “qardaşlaşmış şəhərlər” formatında layihələrin həyata keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və digər yerli icra hakimiyyəti orqanları |
| 8. | Şəhərlərdə iqlim dəyişikliyinin təsirlərinin azaldılması məqsədilə “yaşıl tikinti” və “yaşıl bina” yanaşmaları nəzərə alınmaqla şəhərsalma və tikinti qanunvericiliyinin təhlili, beynəlxalq təcrübənin araşdırılması və normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | İl ərzində | Nazirlər Kabineti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi |
| 9. | “Şəhərsalma və Memarlıq İli”nə həsr olunmuş poçt markalarının, zərflərin və poçt kartlarının buraxılması, ölkə ərazisində müxtəlif təbliğat materiallarının yerləşdirilməsi və nümayiş etdirilməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Reklam Agentliyi, Heydər Əliyev Mərkəzi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Dənizkənarı Bulvar İdarəsi, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON), yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi |
| 10. | “Şəhərsalma və Memarlıq İli” ilə bağlı mediada müvafiq materialların hazırlanması və yayımlanması, Azərbaycanın müasir şəhərsalma və memarlıq nümunələrinin qlobal informasiya məkanında geniş işıqlandırılması | İl ərzində | Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Medianın İnkişafı Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti |
| 11. | UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Azərbaycan Respublikasının daşınmaz mədəni irs nümunələrini əks etdirən gümüş xatirə sikkələrinin hazırlanması | İl ərzində | Mərkəzi Bank (tövsiyə olunur), Xarici İşlər Nazirliyi (UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası), Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi |
| 12. | Tarix və memarlıq abidələri haqqında məlumatların rəqəmsallaşdırılması | İl ərzində | Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları |

# Dünya Bankının ölkəmizin qaz infrastukturuna dəstəyi

**Dünya Bankı Azərbaycanda “Azerigas Gas Leak Detection and Repair Facility” adlı qaz sızmalarının aşkarlanması üzrə layihəyə dəstək olmaq imkanını nəzərdən keçirir. Sözügedən layihənin məqsədi SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi tərəfindən idarə olunan qazpaylayıcı şəbəkədə sızmalar nəticəsində yaranan metan emissiyalarını azaltmaq, həmçinin şirkətin aktivlərin idarə olunması sahəsində potensialını gücləndirməkdir. 2026-cı il aprelin 23-də təsdiq olunması nəzərdə tutulan layihənin maliyyələşdirmə həcmi 15 milyon ABŞ dolları təşkil edir.**

Yeri gəlmişkən, Azərbaycan 1992-ci ildən Dünya Bankının üzvüdür. Həmin vaxtdan bəri qurum ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə, infrastrukturun inkişafına, dövlət idarəçiliyi və sosial təkmilləşdirməyə yönəlmiş investisiya layihələrinə dəstək göstərib. Ümumilikdə isə, bankın kredit vəsaitləri hesabına indiyədək Azərbaycanda ümumi məbləği 5,2 milyard ABŞ dolları olan 54 layihə həyata keçirilib.

Eyni zamanda, ölkəmiz potensialın artırılması və əsas sektorlarda islahatların həyata keçirilməsi üçün Dünya Bankının müxtəlif məsləhət və texniki yardım proqramlarından faydalanıb. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə bank tərəfindən ölkəmizdə reallaşdırılan 115-dən artıq texniki yardım və bir çox istiqamətlərdə qrant layihələrinə isə, təxminən, 30 milyon dollardan artıq vəsait ayrılıb. Azərbaycanın uğurlu tərəfdaşlarından olan Dünya Bankının maliyyə dəstəyi ilə nəqliyyat, sosial, su təchizatı və irriqasiya, kənd təsərrüfatı, ətraf mühit, ədliyyə və digər sahələrdə həyata keçirilən layihələr ölkə iqtisadiyyatının inkişafına, iqtisadi islahatların həyata keçirilməsi və dayanıqlı infrastrukturun təmin olunmasına mühüm töhfələr verib.




Qurumun bununla bağlı açıqlamasına əsasən, layihə çərçivəsində “Azəriqaz”ın qazpaylayıcı sistemində qaz sızmalarının aşkar edilməsi və aradan qaldırılması üçün vəsait alan qurum tərəfindən icra olunacaq maliyyə mexanizminin yaradılması nəzərdə tutulur. Bu mexanizm “Global Flaring and Methane Reduction Partnership” Trest Fondundan ayrılacaq ilkin qrant hesabına işə salınacaq.

Qrantın alıcısı və qrant hesablarının sahibi SOCAR olacaq. “Azəriqaz” İB isə yeganə benefisiar və layihənin gündəlik icrasına və idarə olunmasına cavabdeh icraçı qurum qismində çıxış edəcək. Metan emissiyalarının mərhələli şəkildə ixtisarı məqsədilə qaz sızmalarının aşkarlanması və təmiri üzrə razılaşdırılmış tədbirlər üçün vəsaitlər SOCAR-dan “Azəriqaz”a yönləndiriləcək.

Layihə Bakıda qaz sızmaları üzrə baza səviyyəsinin formalaşdırılmasına dair “Azəriqaz”ın pilot proqramının təcrübəsinə əsaslanacaq. Təmir işləri əvvəlcədən razılaşdırılmış uyğunluq meyarlarına uyğun olaraq “Azəriqaz” tərəfindən təklif ediləcək və icra ediləcək. Tədbirlərin prioritetləşdirilməsi xərc, mürəkkəblik, təsir dərəcəsi və digər müvafiq amillər nəzərə alınmaqla həyata keçiriləcək ki, hər xərclənən ABŞ dollarına maksimum emissiya azaldılması təmin olunsun.

Dünya bankının məlumatına görə, ilkin mərhələdə və sonrakı dövrlərdə “Global Flaring and Methane Reduction Partnership” Trest Fondunun vəsaitləri OGMP 2.0 standartına uyğun olaraq emissiyaların monitorinqi, hesabatlılıq və verifikasiya sahəsində “Azəriqaz”ın potensialının inkişafına yönəldiləcək.

Bankın Azərbaycanda maliyyələşdirdiyi “Bərpa Olunan Enerji Mənbələrindən İstifadənin Genişləndirilməsi” (AZURE) layihəsi çərçivəsində tikilən günəş və külək elektrik stansiyaları ölkənin enerji sisteminə inteqrasiya olunmaqla dayanıqlı enerji infrastrukturunun inkişafını təmin edir. Bundan əlavə, “Regional yollar və inkişaf” layihəsi isə regionlararası nəqliyyat bağlantılarını gücləndirərək ümumi iqtisadi fəallığın canlanmasına imkan yaradır. Qurumun maliyyəsi hesabına reallaşdırılan “Məşğulluğa dəstək” layihəsi və onun əlavə maliyyələşdirilməsi təşəbbüsləri isə işsiz əhalinin məşğulluq imkanlarının genişləndirilməsini və işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanı dəstəkləyir.

2025–2029-cu illər üzrə yeni Ölkə Əməkdaşlıq Strategiyası çərçivəsində tərəfdaşlıq ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsallaşma, enerji səmərəliliyi, su təchizatı və işğaldan azad edilmiş ərazilərin bərpası kimi strateji sahələri əhatə edir. Göründüyü kimi, Dünya Bankı ilə əməkdaşlıq ölkəmizin dayanıqlı iqtisadi inkişaf hədəflərinə nail olmasına və infrastrukturunun yenilənməsinə mühüm töhfələr verir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı–Brüssel iqtisadi gündəliyi

## *Növbəti hədəf investisiyalar və yeni nəqliyyat dəhlizləridir*

**Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və aparıcı investoruna çevrilib. Brüssel Bakı ilə ticarət və investisiya axınlarının böyük hissəsini təmin edir. Hesablamalara görə, 2024-cü ildə Avropa İttifaqı Azərbaycanın ümumi xarici ticarətinin təxminən 41,2 faizini təşkil edib, ölkənin ixracatının isə 63 faizini özündə cəmləyib. Eyni zamanda, Bakı Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verir. Bu dinamika Azərbaycanın Avropa ilə iqtisadi inteqrasiyası üçün əlavə stimul yaradır və Aİ biznesləri üçün də geniş imkanlar açır.**



Avropa İttifaqı və Azərbaycan arasında iqtisadi əlaqələr nəinki enerji sahəsində, həm də sənaye və kənd təsərrüfatı məhsulları üzrə inkişaf edir, texnologiya, avtomobil, maşınqayırma sahələrində əməkdaşlıq qurulur. Xüsusilə, Avropa İttifaqı Azərbaycana iqtisadi diversifikasiyanı dəstəkləyən layihələrə və yaşıl, rəqəmsal keçidin təmininə sərmayə qoyur – bunlara Bakı limanının dayanıqlı yük-sərnişin mərkəzinə çevrilməsi, nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması, minlərlə kiçik və orta sahibkara dəstək verilməsi daxildir.

Yeri gəlmişkən, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə baş direktoru Gert Can Kupman ilə görüş keçirib. Məclisdə, Naxçıvanın nəqliyyat infrastrukturunun inkişafı və bu istiqamətdə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlanılması ilə bağlı məsələlər müzakirə olunub. Zəngəzur dəhlizinin (TRIPP) Aİ-nin Trans-Avropa nəqliyyat şəbəkələrinə (TEN-T) əlavə olunması, Orta Dəhlizin potensialının artırılması və rəqəmsallaşdırılması, eləcə də aviasiya, dəniz nəqliyyatı, süni intellekt və kibertəhlükəsizlik sahələrində Aİ ilə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb. Həmçinin süni intellekt və kibertəhlükəsizlik sahəsində kadr potensialının gücləndirilməsi, Aİ şirkətlərinin ölkəmizdə fəaliyyəti barədə danışılıb. Eyni zamanda, Azərbaycanın Aİ-nin “Horizon Europe” proqramı çərçivəsində layihələrdə iştirakı imkanları nəzərdən keçirilib.

Azərbaycanın Avropa ilə əməkdaşlığında iqtisadi məsələlərdən savayı, elmi-tədqiqat və innovasiya sahəsində də qarşılıqlı fəaliyyət artır. Bakı Avropanın “Horizon Europe” proqramında iştirak etməklə texnologiya və elmi layihələrə qoşulmaq imkanlarını genişləndirir. Bu proqram çərçivəsində Azərbaycan ali təhsil müəssisələri və araşdırma institutları Avropa tərəfdaşları ilə birgə tədqiqatlara çıxış əldə edir, süni intellekt və kibertəhlükəsizlik üzrə milli kadr potensialını möhkəmləndirir. Beləliklə, Aİ-nin prioritetlər siyahısında Azərbaycanın iqtisadiyyatının modernləşdirilməsi mühüm yer tutur.

Avropa Komissiyasının Qonşuluq ölkələrini əhatə edən TEN-T genişlənmə xəritəsi isə göstərir ki, Cənubi Qafqazı Avropa nəqliyyat şəbəkələrinə birləşdirmək planlaşdırılır. Bu kontekstdə Azərbaycanın təklif etdiyi Zəngəzur dəhlizinin TEN-T siyahısına daxil edilməsi xüsusilə diqqət mərkəzindədir. Bu layihə, gözlənildiyi kimi, Avropa və Asiyanı birləşdirən geniş dəmiryol marşrutunun tərkib hissəsi olacaq.

TEN-T çərçivəsində bu cür layihələrin nəzərdən keçirilməsi Azərbaycan üçün daha sürətli tranzit imkanları deməkdir. Azərbaycanın potensialı da məhz Aİ-üçün önəm kəsb edir. Təsadüfi deyil ki, son 3 ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Proqnozlara görə, 2030-cu ilədək Orta Dəhlizin yükdaşıma qabiliyyəti 2021-ci illə müqayisədə 3 dəfə artacaq, yüklərin keçid müddəti isə 2 dəfə azalacaq. Bu kontekstdə Azərbaycanın Orta Dəhlizin əsas həlqələrindən biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinə, eləcə də Zəngəzur dəhlizi layihəsinə xüsusi önəm verməsi böyük əhəmiyyət daşıyır.

Ümumilikdə, 2030-cu il üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların 11,4 milyon ton, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üzrə isə 32 milyon ton səviyyəsində olacağı proqnozlaşdırılır. Bu çərçivədə Azərbaycan Rusiya və İranla əməkdaşlığı genişləndirərək "Şimal-Cənub" dəhlizinin əsas həlqələrindən biri olan Astara terminalının tikintisini yekunlaşdırmaq üzrədir. Terminalın yükaşırma qabiliyyətinin 2 milyon tona çatdırılması planlaşdırılır və modernizasiya işlərinin 2026-cı ilin mart ayının sonuna qədər başa çatdırılması gözlənilir.

Azərbaycan-Aİ əməkdaşlığının başqa bir önəmli istiqaməti rəqəmsallaşdırma, süni intellekt və kibertəhlükəsizlik sahələridir. Tərəflər Azərbaycan gənc kadrlarının bu sahələr üzrə biliklərinin artırılmasına, startap və şirkətlər üçün innovativ ekosistemin formalaşdırılmasına maraq göstərirlər. Belə ki, görüşdə “süni intellekt və kibertəhlükəsizlik sahəsində kadr potensialının gücləndirilməsi” və Aİ-nin “Horizon Europe” proqramı çərçivəsində layihələrdə iştirak imkanlarının müzakirəsi xüsusi vurğulanıb. Bu baxımdan, Avropa İttifaqının Rəqəmsal 10 illik strategiyası çərçivəsində təqdim etdiyi qrant və investisiya mexanizmləri Azərbaycan üçün əhəmiyyətli maliyyə-dəstək kanalları yaradır. Məsələn, Aİ-nin Global Gateway təşəbbüsündə Bakı ilə razılaşan Avropa Komissiyası nəqliyyat, enerji və rəqəmsal sahələrdə dayanıqlı və möhkəm əlaqələr qurmağı hədəfləyir. Bu çərçivədə Avropa büdcəsi Azərbaycanda nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılmasını və kibertəhlükəsizlik infrastrukturunun modernləşdirilməsini maliyyələşdirə bilər. Nəticə etibarilə, Avropa kompüter şəbəkələri təhlükəsizliyinin yüksəldilməsi, kibercinayətkarlığa qarşı təcrübə mübadiləsi və süni intellektlə bağlı ortaq layihələr Azərbaycanda texnologiya transferini sürətləndirəcəkdir. Bu əməkdaşlıq həm də Aİ-nin müasir texnologiyalar bazarında mövqeyinin gücləndirilməsinə, həm də Azərbaycan şirkətlərinin Avropa standartlarına uyğun inkişafına töhfə verir.

Elə qeyd etdiyimiz məsələlərlə bağlı Avropa İttifaqının nüfuzlu "EU Today" nəşrində redaktor, tanınmış siyasi icmalçı və publisist Qeri Kartraytın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə həsr edilən məqaləsində də xüsusi yanaşmalar möcvuddur: “Azərbaycanın münaqişədən sonrakı Qərbə doğru yönəlməsi qısa bir an deyil, struktur dəyişiklikdir. Odur ki, Brüsselin bu yeni fəsli aydınlıq, öhdəlik və strateji vizyonla qəbul etməsi yaxşı olardı”. Avropa üçün bu, regionda sülh və sabitliyi möhkəmləndirmək, yeni investisiya imkanları yaratmaq, həmçinin Cənub Qaz Dəhlizi kimi strateji layihələr vasitəsilə enerji təhlükəsizliyini artırmaq imkanıdır. Qeyd edək ki, Avropa İttifaqı Şərq Tərəfdaşlığı və Qara dəniz strategiyasını genişləndirərkən Azərbaycanı tərəfdaş ölkə kimi qəbul etməlidir, çünki Bakı Xəzər vasitəsilə Avropa ilə nəqliyyat əlaqələrini gücləndirir və Ukraynadan Gürcüstana qədər bir sabit əməkdaşlıq qövsünü formalaşdırır. Beləliklə, davam edən danışıqlar və reallaşan layihələr Aİ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldırmaqla Avropanın Cənub Qafqazdakı təsirini möhkəmləndirəcək, iki tərəfə qarşılıqlı fayda gətirəcəkdir.

***Nurlan ABDALOV***
***XQ***

*“Şəhərsalma və Memarlıq İli”*

**Azərbaycanda 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunması gündəmdə olan əsas mövzulardan biridir. Bu təşəbbüs təkcə memarlıq abidələrinin mühafizəsi və onların maarifləndirici məkan olaraq yaradılması ilə məhdudlaşmır, eyni zamanda, ölkəmizin iqtisadi inkişafının əmək bazarında vacib olan təhsil infrastrukturunun genişləndirilməsini də diqqətdə saxlayır. Bu baxımdan ölkəmizdə strateji sahə olan peşə təhsili müəssisələrinin tikintisi və bərpası da xüsusi aktuallıq kəsb edir.**

# Peşə təhsili insan kapitalını zənginləşdirir

Azərbaycanın əmək bazarında rəqabətqabiliyyətli, ixtisaslı kadrların hazırlamasında peşə təhsilinin müstəsna rolu vardır. Məhz buna görədir ki, son illər ölkədə təhsilin bu vacib sahəsinin inkişaf etdirilməsinə xüsusi diqqət göstərilir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2025-ci il dekabrın 5-də “Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Bu sənəd peşə təhsilini əmək bazarının tələblərinə cavab verən sistemə çevirmək məqsədi ilə mühüm addımların atılmasını nəzərdə tutur.



Təhsil islahatlarının davamı olaraq 2026-2030-cu illər ərzində ölkədə müasir standartlara cavab verən 21 yeni peşə təhsili müəssisəsi tikiləcək, mövcud 2 təhsil müəssisəsi isə əsaslı təmir ediləcək. Qərar ölkədə peşə təhsilinin daha geniş miqyasda inkişaf etdirilməsi, kadr hazırlığı prosesinin müasirləşdirilməsi, insan resurslarının yaradılması məqsədilə verilib. Ümumilikdə isə peşə təhsili müəssisələrində təlim-tədris prosesi əmək bazarının tələblərinə uyğunlaşdıqca dövlət-özəl sektorlarında işçi qüvvəsinin keyfiyyəti də yüksəlir. Bu baxımdan yeni tikiləcək və bərpa olunacaq peşə təhsili müəssisələri iqtisadiyyatın inkişafında mühüm rol oynayacaq.

Sərəncam ölkədə peşə təhsili sisteminin yeni mərhələyə çıxarılması üçün genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsini nəzərdə tutur. Dövlət başçısının sərəncamına uyğun olaraq inşası nəzərdə tutulmuş yeni peşə təhsili müəssisələri əmək bazarının tələblərinə uyğun peşə ixtisaslarının tədrisi üçün müasir infrastrukturla təmin ediləcək. Yeni müəssisələrin fəaliyyətə başlaması ilə ölkədə rəqabətqabiliyyətli kadrların hazırlanması məqsədilə təlim-tədris bazasının yaradılmasına nail olunacaq. Eyni zamanda, regional təhsil imkanlarının genişləndirilməsi bölgələrdə gənclərin peşə təhsilinə çıxışını asanlaşdıracaq. Bütövlükdə, texniki ixtisaslar üzrə peşəkar usta və mütəxəssislərin yetişdirilməsində yüksək standartlar tətbiq ediləcək. Müəssisələr əsasən inşaat, sənaye, texnologiya, xidmət sektoru və daha çox ixtisaslaşmış kadrlar hazırlamaq üçün nəzərdə tutulur.

Təmir olunacaq 2 peşə təhsili müəssisəsi isə təhsil prosesinin müasir standartlara uyğun yenidən qurulmasını təmin etməklə tədris bazasını texniki cəhətdən nəzərdə tutulan peşə tələblərinə cavab verəcək səviyyəyə çatdırılmasına yardım edəcək. Bu da tələbələrə daha effektiv təlim keçmək üçün imkanlar yaradacaq. Yeni tikiləcək müəssisələr müasir peşə sahələri üzrə kadr hazırlayaraq şəhərsalma və memarlıq sahəsində ixtisaslaşmış personalın formalaşmasına da şərait yaradacaq.

Bir məqamı da qeyd edək ki, yeni peşə təhsili müəssisələrinin tikintisinə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daha çox ehtiyac duyulur. Bu, həm regionlarda infrastrukturun gücləndirilməsi məqsədilə təhsilimizin iqtisadi inkişafa inteqrasiyası, həm də təhsil sisteminin potensialının gücləndirilməsi deməkdir. Yeri gəlmişkən, bu il Xankəndi, Laçın və Cəbrayıl şəhərlərində dövlət peşə təhsili mərkəzlərinin tikintisi planlaşdırılır. Şuşa şəhərində Dövlət Peşə Təhsili Mərkəzi artıq əsaslı təmirdən sonra istifadəyə verilib. Kəlbəcər Dövlət Peşə Təhsili Mərkəzinin tikintisi isə davam edir.

Yeni peşə təhsili müəssisələrinin məhz həmin regionlarda fəaliyyəti orada yaşayan əhali üçün yeni imkanlar yaratmaqla yanaşı, peşə təhsilinə marağı da artıracaq. Bundan əlavə, Sumqayıt, Abşeron, Gəncə, Daşkəsən, Lənkəran-Astara, Ağsu, Quba-Xaçmaz və Şəki-Zaqatala zonalarında mövcud sənaye potensialının genişlənməsi turizm potensialının yüksəlməsi baxımından yeni peşə təhsili müəssisələrinin açılmasını zəruri edir. Naxçıvan isə sərhəd ticarəti, logistika və sənaye parkının inkişafı baxımından peşəkar mütəxəssislərə ehtiyac ilə üzləşir.

Azərbaycanda 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunması yüksək səviyyəli planlaşdırmanın, şəhərsalma standartlarının yenilənməsinin göstəricisidir. Belə bir şəraitdə peşə təhsilinin yenidən qurulması və genişləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz tərkib hissəsinə çevrilir. Ümid edirik ki, yeni peşə təhsili müəssisələrinin tikilib istifadəyə verilməsi müxtəlif peşə sahələri üzrə kadr hazırlayaraq şəhərsalma və memarlıq sahəsində ixtisaslaşmış personalın formalaşmasına şərait yaradacaq. Bu da iqtisadiyyatımızın inkişafına öz töhfəsini verəcək.

***Sevinc MƏMMƏDOVA,***
***“Peşə təhsili və insan kapitalı” jurnalının şöbə redaktoru***

# Tramvay Bakıya qayıdır...

## *İlk marşrut Mehdiabad–“28 May” metrostansiyası olacaq*

**2025-2030-cu illərdə paytaxtın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı, ümumilikdə, 7 istiqamətdə 60-dan çox layihənin həyata keçirilməsini nəzərdə tutan “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”nın əsas məqsədi vətəndaşlara çeşidli mobillik imkanları yaratmaqla, avtomobilyönümlü şəhərdən vətəndaşyönümlü şəhərə keçidin gerçəkləşdirilməsidir. Ətraf mühitə mənfi təsirlərin azaldılması, vətəndaşların ictimai nəqliyyat xidmətlərinə əlçatanlığının artırılması, tıxacların aradan qaldırılması, sərnişinlərin fərdi nəqliyyat vasitələrindən ictimai nəqliyyata doğru yönləndirilməsi, yeni infrastrukturların tikintisi və s. kimi məsələlər də proqramın məqsədlərinə aiddir.**



Dövlət Proqramında sərnişin axınının yüksək olduğu istiqamətlərdə tramvay nəqliyyat sisteminin tətbiqi də nəzərdə tutulur. Bu layihənin reallaşması ilə fərdi avtomobildən asılılıq azalmaqla yanaşı, yol sahəsindən daha səmərəli istifadəyə şərait yaranır. Ümumilikdə, adıçəkilən sənəddə nəzərdə tutulan bu tədbir Bakı şəhərində daha təhlükəsiz, əlçatan, inklüziv və dayanıqlı nəqliyyat sisteminin formalaşdırılmasına yönəlmiş kompleks yanaşmanı əks etdirir. Yol, metro, avtobus, tramvay, piyada və alternativ mobillik həllərinin paralel və əlaqəli inkişafı isə paytaxtın uzunmüddətli iqtisadi rəqabətliliyini artırmaqla bərabər, həm də sakinlərin gündəlik həyat keyfiyyətinin yüksəldilməsini şərtləndirir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair yuxarıda adıçəkilən Dövlət Proqramının 2025-ci il üzrə icrasına həsr olunan dəyirmi masada Mehdiabad qəsəbəsindən metronun “28 May” stansiyasına qədər uzanacaq tramvay xəttinin texniki hazırlıq işlərinin artıq başa çatdığını bildirib. O, eyni zamanda, ilkin sxemə əsasən, bu xəttin “28 Mall” ticarət mərkəzinin qarşısından keçəcəyini, sözügedən ərazidə avtomobillərin hərəkətinin məhdudlaşdırılmasının, yolun əsasən ictimai nəqliyyat və velosiped zolaqları üçün nəzərdə tutulmasının mümkünlüyünü, avtomobil axınının isə paralel küçələrə yönəldilməsinin planlaşdırıldığını vurğulayıb.

Dəyirmi masada qeyd edilib ki, layihələndirmə mərhələsindən sonra tikinti işlərinə start verilməsi nəzərdə tutulur. İnşaat əməliyyatlarına başlanılandan sonra 3 il ərzində isə layihənin tamamlanması gözlənilir.

Bəs Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair Dövlət Proqramı çərçivəsində bu istiqamətdə yaxın illərdə real nəticələr əldə etmək mümkün olacaqmı? Nəqliyyat eksperti Raqif Raufoğlunun sözlərinə görə, bu, əsasən büdcə imkanlarından və bir sıra obyektiv amillərdən asılıdır. Məsələn, Günəşli yaşayış massivi istiqamətində uzun müddətdir ki, işlərin aparıldığı qeyd olunsa da, prosesin hazırkı mərhələsi barədə konkret məlumat yoxdur. Digər ərazilərdə isə vəziyyət daha mürəkkəbdir. Bununla belə, tramvay xətlərinin çəkilməsi daha real variant kimi qiymətləndirilir və nəqliyyat yükünün azaldılmasında mühüm rol oynayacağına böyük ümid bəslənilir.

Ekspertin fikrincə, elektrik qatarlarının bərpası da nəqliyyat yükünün azalmasına ciddi töhfə verməsi baxımından mühüm təşəbbüs sayılır. Dövlət Proqramı çərçivəsində bu istiqamətdə layihələr həyata keçirilərsə, məsələn, Hövsandan Suraxanıya, eləcə də Əmircana qədər uzanan marşrutlar Bakı kəndlərinin bir çoxunu əhatə edə bilər.

1990-cı illərdə belə qatarlar mövcud olub, lakin sonradan xətlərin bir qismi ləğv edilib, bəzilərində isə qatar hərəkəti dayandırılıb. Həmin xətlərin yenidən bərpası və müasir qatarların istismara verilməsi isə paytaxtın nəqliyyat yükünün azalmasına müsbət təsir göstərər. Əgər əsas məqsəd tıxacların azaldılması və infrastrukturun gücləndirilməsidirsə, prioritet məhz bu istiqamətə verilməlidir.

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun fikrincə, Bakı şəhərində tramvay və trolleybusların fəaliyyətinin bərpası uzun illərdir müzakirə olunan mövzulardandır. Tramvayların bərpası prosesi Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Dövlət Proqramında da öz əksini tapıb. Trolleybusların bərpasını da vacib sayanlar var, buna ehtiyac qalmadığını düşünənlər də az deyil. Hazırda trolleybusların yerini elektrobuslar tutur. Başqa sözlə, trolleybus ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olduğu üçün onun bərpasına müsbət yanaşılır. Lakin bu funksiyanı artıq elektrik mühərrikli avtobuslar yerinə yetirir. Tramvay isə daha çox sərnişin daşıması, rels üzərində hərəkət etməsi və sabit qrafiklə işləməsi səbəbindən şəhərlər üçün mühüm nəqliyyat vasitəsi sayılır. Bu baxımdan təkcə Bakıda deyil, ölkənin digər şəhərlərində də tramvayların işləməsi məqsədəuyğun hesab edilir.

Ekspert vurğulayır ki, əsas məsələ tramvayların dekorativ xarakter daşımamasıdır. Tramvay xətləri yalnız turistlər üçün deyil, rentabelli marşrutlar üzrə şəhər əhalisinə və qonaqlara xidmət göstərməlidir. Bu imkan Bakı şəhərinin Dövlət Proqramında da nəzərdə tutulub və prosesin sürətləndirilməsi mümkündür.

Tramvay xətlərinin konkret olaraq paytaxtın hansı ərazilərində çəkiləcəyinə gəlincə, ekspert qeyd edir ki, iri prospektlərdə və şose yollarında bu layihənin reallaşdırılması zəruridir. Tramvay xətləri vətəndaşların gündəlik “ev-iş” marşrutları üzərində planlaşdırılmalı, mövcud yol infrastrukturuna xələl gətirməməli və digər hərəkət iştirakçılarına mane olmamalıdır. Bakı şəhərinin kənar rayon və qəsəbələri, məsələn, Hövsan, Biləcəri, habelə digər ərazilər, eləcə də Ziya Bünyadov prospekti boyunca “Koroğlu” metrostansiyasına qədər tramvay xəttinin çəkilməsi real variant kimi qiymətləndirilir.

Nəqliyyat üzrə ekspert Rauf Ağamirzəyev isə bildirir ki, hazırda Azərbaycanda kütləvi sərnişindaşıma sistemi arzuolunan səviyyədə deyil. İnsanlar mobil ehtiyaclarını daha çox fərdi nəqliyyat vasitələri ilə gerçəkləşdirir və gün ərzində, təxminən, 300 min avtomobil şəhərə daxil olur. Bu qədər avtomobilin ehtiyaclarını qarşılamaq üçün yol tikintisinin tempi yetərli deyil. Şəhər mühitində bir yolun tikilməsi və ya əsaslı rekonstruksiyası ən azı iki il vaxt tələb edir, halbuki avtomobilin alınması cəmi bir saat çəkir. Nəticədə avtomobillərin artım sürəti yol infrastrukturunun inkişaf tempini üstələyir. Bu səbəbdən ən rasional çıxış yolu ictimai nəqliyyatın inkişafıdır.

Ekspertin fikrincə, ictimai nəqliyyatda ən səmərəli model relsli nəqliyyat növlərinin inkişafıdır. Bu nəqliyyat növləri investisiya tutumlu islahatlar sırasında yer alır. Belə ki, yeraltı nəqliyyat metro, yerüstü nəqliyyat isə şəhərətrafı elektrik qatarları və tramvay xətləridir. Tramvay xətləri əsasən dəmir yolu və metro olmayan ərazilərdə çəkilir, çünki avtobuslar mövcud tələbi tam ödəyə bilmir. Bir avtobus orta hesabla 80-100 sərnişin daşıdığı halda, bir tramvay 300, bəzi hallarda isə 400 sərnişin daşımaq imkanına malikdir. Tramvayların ayrıca zolaqda və intensiv qrafiklə işləməsi isə onların səmərəliyini artırır və müxtəlif hava şəraitində sabit fəaliyyətini təmin edir. Bu baxımdan relsli nəqliyyat növləri daha alternativ və səmərəli model hesab olunur. Hazırda 5 istiqamətdə 3 depo tikilməsi planlaşdırılır və bu istiqamətlərdən biri Mehdiabaddan “28 May” metrostansiyasına qədər uzanacaq tramvay xəttidir. Bu layihə mühüm və strateji əhəmiyyətə malikdir.

Bu layihələrin 2030-cu ilə qədər mərhələli şəkildə icrası nəzərdə tutulur. Onlar mövcud nəqliyyat vəziyyətinin yaxşılaşdırılmasına töhfə verə bilər, lakin əsas şərt davamlılıq və sistemli yanaşmadır. Böyük şəhərlər üçün alternativ nəqliyyat növlərinin şəbəkələşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, adıçəkilən Dövlət Proqramı çərçivəsində Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər şəhərin dayanıqlı inkişafını gerçəkləşdirməklə yanaşı, onun beynəlxalq miqyasda rəqabətqabiliyyətini artıracaq, ictimai nəqliyyatın rolunun gücləndirilməsi ilə fərdi nəqliyyat vasitələrindən asılılığın azalmasına və ekoloji cəhətdən təmiz və müasir nəqliyyat həllərinin tətbiqinə şərait yaradacaq. Eyni zamanda, İntellektual Nəqliyyat Sistemləri kimi müasir texnologiyalar yol hərəkətinin idarə edilməsini optimallaşdıracaq, şəhərdaxili və şəhərətrafı əlaqələrin səmərəliliyini artıracaq və nəqliyyat axınlarının idarə edilməsini daha çevik edəcək.

Beynəlxalq təcrübə də göstərir ki, şəhər nəqliyyatında tıxacların tamamilə aradan qaldırılması praktiki baxımdan mümkün deyil və bu problem həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə həllini gözləyən aktual məsələlərdən biri kimi yüksək alternativ xərclərlə müşayiət olunur. Bu baxımdan əsas məqsəd tıxacları tam aradan qaldırmaq deyil, şəhərin davamlı inkişafını əngəlləmədən nəqliyyat sisteminin səmərəli və balanslı şəkildə idarə olunmasını təmin etməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Ərşad HÜSEYNOV,**
**nəqliyyat sahəsi üzrə ekspert, hüquqşünas**

Bir vaxtlar paytaxtın əsas ictimai nəqliyyat vasitələrindən biri olan tramvay 2000-ci illərin əvvəlində fəaliyyətini dayandırdı. İndi isə onun yenidən istifadəyə verilməsi mövzusu müzakirə edilir. Bəs tramvayın yenidən Bakıya qayıtması, tıxacların azaldılmasına təsir göstərməsi mümkündürmü?

Azərbaycanda sovet dövründə və müstəqilliyin ilk illərində səmərəli fəaliyyət göstərən tramvay şəbəkəsi elə qurulmuşdu ki, şəhərin ən çox sərnişin axını olan istiqamətlərində işləyirdi. Universitetlərin, o cümlədən Tibb Universitetinin yaxınlığından keçirdi. Hətta indiki Qara Qarayev prospektini, yəni metronun “Neftçilər” stansiyası və ətraf zonaları əhatə edirdi. Təəssüf ki, şəhərin mərkəzini və paytaxtətrafı rayonları birləşdirən bu tramvay sistemi ləğv edildi. Nəticədə, bu gün həmin qərarın fəsadları aydın nəzərə çarpır və külli miqdarda sərmayə qoyaraq tramvay sistemini bərpa etmək zərurəti yaranır.

Tramvayın üstünlükləri çoxdur. Ən əsası, ekoloji cəhətdən təmizdir, tıxaclara düşmür, iri tutumludur və müasir şəhərlərdə hələ də geniş istifadə olunur. Məsələn, iki vaqonlu tramvay bir dəfəyə 300 nəfərə qədər sərnişin daşıya bilir. İri tutumlu olduğuna görə, tramvay ən ciddi sərnişin axını olan yerlərdə təşkil olunmalıdır.

Fikrimcə, bu nəqliyyat vasitəsi metro ilə əhatə olunmayan zonalarda fəaliyyət göstərməlidir. Məsələn, Bakıda Şimal-Cənub istiqamətində tramvay xəttinin yaradılmasına zəruri ehtiyacı var. Bu baxımdan Mehdiabad qəsəbəsindən metronun “28 May” stansiyasına qədər uzanacaq tramvay xəttinin salınması mühüm önəm daşıyır. Eyni zamanda, Şərq-Qərb istiqamətində – “28 May” stansiyası ilə “Xətai” stansiyası arasındakı zonadan başlayaraq Günəşli, Qaraçuxur, Sabunçu yaşayış sahələri istiqamətlərinə qədər uzanan xətlərə də ehtiyac var. Çünki bu istiqamətlərdə sərnişin axını çoxdur və buna ciddi ehtiyac duyulur.

Bakıya tramvay xəttinin çəkilməsi ekoloji cəhətdən də sərfəlidir, elektrik enerjisi ilə işləyir, havanı çirkləndirmir, həm də iri tutumlu olur. Tramvaylar geniş şəbəkəyə malik olarsa, sərnişindaşımada böyük rol oynayar. Bir sıra xarici ölkə şəhərlərində cəmi iki zolaqdan ibarət olan küçədə də tramvay xətti çəkilib. Bu, hətta yol hərəkəti qaydalarını da uyğunlaşdırıb.

Avropada sərnişindaşımada tramvay və trolleybusların tətbiqi geniş vüsət alıb. Bu məsələdə, ilk növbədə, tıxacların aradan qaldırılması və insanların tez və vaxtında iş yerlərinə çatdırılması diqqət mərkəzində saxlanılıb. İkinci növbədə isə şəhərin, ümumilikdə, ekoloji tarazlığının pozulması ilə bağlı narahatlıqların aradan qaldırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Yeri gəlmişkən, onu da qeyd edim ki, tramvayların fəaliyyətinin bərpa edilməsi elə də asan məsələ deyil, bu prosesin reallaşması zamanı, şübhəsiz ki, bir sıra çətinliklər qarşıya çıxır. İlk növbədə, tramvay yolu üçün məkanın müəyyən edilməsi zəruridir, çünki bu infrastruktur konkret küçələrdə, prospektlərdə yer tutmalıdır, o cümlədən tramvay parkı olmalıdır. Bu məkanın müəyyənləşdirilməsi isə elə də asan məsələ deyil. Çünki hazırda paytaxtın yollarında sıx hərəkət var, hətta hansısa bir yolda təmir işi aparanda tıxac yaranır. Belə bir vəziyyətdə tramvay yolu çəkmək çox çətin işdir, lakin mümkündür.

Bu ictimai nəqliyyat növünün bərpa edilməsi üçün ikinci məsələ maliyyə vəsaitinin tapılmasıdır. Tramvayın bərpa olunması böyük məbləğdə vəsait tələb edir. Çünki xətlərin tikilməsi, parkın yaradılması və tramvayın alınıb paytaxta gətirilməsində bu amil əsas rol oynayır. Bu nəqliyyat vasitəsinin qiyməti avtobusdan bahadır. Burada bir məsələ də var ki, tramvay rentabelsiz nəqliyyat növüdür, ona görə ki, bu sahədə qiyməti qaldırmaq olmur. Bu baxımdan tramvayın bərpasına sərf edilən vəsaiti dövlətin köməyi olmadan sərnişinlərin gediş haqqı ilə geri qaytarmaq o qədər də asan məsələ deyil.

*Təqvim yada salır*

# Dünya şöhrətli seleksiyaçı alim



**Bu il fevralın 1-də akademik Cəlal Əlirza oğlu Əliyevin haqq dünyasına qovuşmasından 10 il ötür. Onun həyat yolu və zəngin elmi irsi Azərbaycanın intellektual inkişafına, cəmiyyətdə sağlam ictimai-siyasi mühitin formalaşmasına önəmli xidmət nümunəsidir.**

Görkəmli seleksiyaçı alim Cəlal Əliyev bütün şüurlu ömrünü elmi fəaliyyətə həsr etmiş, gənc alimlər nəslinin yetişdirilməsində mühüm rol oynamış, fundamental biliklərə bağlılıq və yüksək elmi prinsipiallıq nümunəsi göstərmişdir. Alimin Azərbaycan mədəni fikir tarixində elmi və vətəndaşlıq ənənələrinin parlaq təcəssümlərindən birinə çevrilmiş yaradıcı fəaliyyətinin əsas istiqamətlərini fotosintez və bitki fiziologiyasının nəzəri problemləri təşkil etmişdir. Onun bu sahədə apardığı fundamental tədqiqatlar nəticəsində əldə olunan mühüm nəticələr praktik kənd təsərrüfatı nailiyyətlərinə uğurla tətbiq edilmişdir.

Elmi nəzəriyyə ilə laboratoriya və sahə təcrübələrinin vəhdətini yaradan akademik Cəlal Əliyev "yaşıl inqilab" ideyalarının ölkə və ətraf region miqyasında gerçəkləşməsinə mühüm töhfələr vermişdir. Böyük alimin formalaşdırdığı elmi məktəb dünya səviyyəsində fundamental və tətbiqi tədqiqatların aparılması ilə seçilmişdir. Bu araşdırmalar klassik biologiya istiqamətləri ilə yanaşı, ölkəmizdə bioinformatika, molekulyar biologiya, molekulyar genetika, biologiyada rəqəmsal texnologiyalar və digər müasir elm sahələrinin təşəkkül tapmasına və inkişafına güclü təkan vermişdir.

Akademikin rəhbərliyi altında yetişmiş yüzlərlə yüksəkixtisaslı alim və mütəxəssis bu gün Azərbaycanın elmi potensialının formalaşmasında fəal iştirak edir, eyni zamanda, dünyanın aparıcı tədqiqat mərkəzlərində uğurla fəaliyyət göstərərək böyük alimin elmi irsini layiqincə davam etdirirlər. Alimin formalaşdırdığı bu elmi və intellektual mühit biologiya və bitki seleksiyası sahələrinin inkişafı ilə məhdudlaşmamış, bütövlükdə, müasir Azərbaycan cəmiyyətinin düşüncə tərzinin, strateji baxışlarının və dövlət quruculuğu fəlsəfəsinin formalaşmasına da təsir göstərmişdir.

Ölkəmiz bu gün Cənubi Qafqazda sabitliyin və əməkdaşlığın əsas təşəbbüskarlarından biri kimi çıxış edir, regional gücə çevrilmə yolunda inamlı və ardıcıl addımlarla irəliləyir. Bu uğurların təməlində ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik konsepsiyası və bu kursu Prezident İlham Əliyevin müasir çağırışlara uyğun şəkildə qətiyyətlə və yaradıcı şəkildə davam etdirməsi dayanır.

2025-ci ildə Azərbaycan elmi ictimaiyyətinin yaddaşına həkk olunan rəmzi və mənalı hadisələrdən biri də akademik Cəlal Əliyevin həyat və fəaliyyətinin əhəmiyyətli bir hissəsini həsr etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi olmuşdur. Yubiley tədbirləri çərçivəsində akademiyanın keçdiyi inkişaf yolu, formalaşmasında və elmi ənənələrinin qorunub saxlanılmasında mühüm rol oynamış görkəmli alimlərin xidmətləri xüsusi vurğulanmışdır. Akademik Cəlal Əliyevin də adı AMEA-nın elmi potensialının gücləndirilməsi və nüfuzunun artırılması istiqamətində göstərdiyi çoxillik və fədakar fəaliyyəti ilə daim xatırlanmışdır.

Yubiley mərasimlərində böyük alimin Akademiyanın mövcudluğu, elmi istiqamətlərinin formalaşması və inkişaf strategiyalarının müəyyənləşdirilməsi yolunda gördüyü işlər xüsusi qeyd olunmuş, onun elmi irsinin AMEA-nın tarixi ilə üzvi şəkildə bağlı olduğu bir daha ön plana çəkilmişdir.

Dövlətin ideoloji dayaqlarının formalaşmasında, milli şüurun, elmi düşüncənin və intellektual müstəqilliyin möhkəmlənməsində akademik Cəlal Əliyev kimi böyük ziyalıların rolu həlledici olmuşdur. Onlar öz elmi fəaliyyəti, ictimai mövqeyi və prinsipial vətəndaş məsuliyyəti ilə müstəqil Azərbaycan dövlətinin ideya sütunlarını möhkəmləndirmiş, elmi biliklə dövlətçilik düşüncəsi arasında üzvi və davamlı bir körpü yaratmışlar. Məhz belə şəxsiyyətlərin fəaliyyəti sayəsində milli inkişaf strategiyası təkcə siyasi və iqtisadi uğurlarla deyil, həm də dərin elmi-intellektual məzmunla zənginləşmişdir.

Müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdığı həlledici tarixi mərhələlərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan siyasi və hüquqi quruculuq proseslərində akademik Cəlal Əliyev hər zaman fəal mövqe tutmuş, konstitusiya əsaslarının möhkəmləndirilməsi və dövlət suverenliyinin qorunması istiqamətində prinsipial mövqeyi ilə seçilmişdir. Onun Azərbaycan Respublikasının müstəqilliyinin dönməz xarakter alması və milli təhlükəsizlik mühitinin möhkəmləndirilməsi yolunda göstərdiyi xidmətlər müasir tariximizin mühüm səhifələrində xüsusi yer tutur.

Görkəmli alim və ictimai-siyasi xadim kimi Cəlal Əliyevin mürəkkəb və sınaqlarla zəngin həyat yolu bu gün də gənc nəsil üçün mənəvi möhkəmlik, vətəndaş məsuliyyəti və əqidə bütövlüyü nümunəsi olaraq dəyərləndirilir. O, həm elmi fəaliyyətində, həm də ictimai mövqeyində həqiqətə sadiqliyi əsas prinsip kimi qəbul etmiş, bu mövqeyinə görə zaman-zaman siyasi və mənəvi basqılarla qarşılaşsa da, yüksək iradəsi, vətəndaş cəsarəti və ədalət duyğusu sayəsində üzərinə düşən tarixi missiyanı hər dəfə ləyaqətlə yerinə yetirmişdir.

Azərbaycanın biologiya, aqrar və ekoloji düşüncə tarixində yeni mərhələnin başlanğıcı da məhz akademik Cəlal Əliyevin adı ilə qırılmaz şəkildə bağlıdır. Ölkədə ərzaq təhlükəsizliyinin elmi əsaslarla təmin olunması, təbii ehtiyatlardan məsuliyyətli və strateji istifadənin konseptual çərçivəsinin müəyyənləşdirilməsi, biomüxtəlifliyin etibarlı qorunmasını milli inkişaf strategiyasının ayrılmaz hissəsinə çevirən yanaşmaların formalaşdırılması böyük alimin çoxillik elmi və ictimai fəaliyyətinin əsas xəttini təşkil etmişdir.

Bu sahələrdə atılan hər bir düşünülmüş addım, hazırlanmış hər bir elmi-praktik mexanizm konkret problemlərin həlli ilə yanaşı, bütövlükdə dövlətin gələcək dayanıqlılığına xidmət etmişdir. Elə bu baxımdan da akademik Cəlal Əliyevin adı təkcə elm tarixində deyil, milli inkişaf salnaməsində də xüsusi ehtiramla çəkilməlidir. Fədakar elm təşkilatçısı kimi Cəlal Əliyev milli idrakın intellektual sərhədlərinin genişləndirilməsi və xalqımızın elmi potensialının dünya miqyasında tanıdılması kimi ağır, lakin şərəfli bir missiyanı da fəal şəkildə gerçəkləşdirmişdir.

Onilliklər boyu Azərbaycan ailələrinin süfrəsinin ən qiymətli neməti olan çörəyin arxasında akademik Cəlal Əliyevin elmi yeniliklərinin izi duyulmuşdur. Onun çoxşaxəli tədqiqatları canlı aləmin mövcudluğunun təməlində dayanan fotosintez fenomeninin dərin qatlarının öyrənilməsinə, bitkilərin həyat fəaliyyətinin molekulyar mexanizmlərindən başlayaraq bütöv aqrosistemlər səviyyəsinədək ardıcıl və sistemli şəkildə dərk edilməsinə yönəlmişdir.

Məhz bu fundamental idrak yolunun məntiqi nəticəsi kimi yaradılmış yüksək məhsuldarlığa və uyğunlaşma qabiliyyətinə malik buğda sortları illər boyu halal zəhmətin, elmi düşüncənin və milli rifahın yüksəlməsi amilinə çevrilmişdir. Fitri zəka ilə yorulmaz zəhmətin, dərin məntiq ilə geniş dünyagörüşünün nadir vəhdəti akademik Cəlal Əliyevin elmi portretini müəyyən edən əsas cizgilərdən idi.

Seleksiyaçı akademik incə elmi müşahidə qabiliyyəti və analitik təfəkkürünə söykənərək fotosintez və fototənəffüs kimi mürəkkəb bioloji proseslərin mahiyyətinə elə bir dərinliklə nüfuz etmişdi ki, əldə olunan nəticələr qlobal elmi fikrin inkişaf trayektoriyasını dəyişmiş, Azərbaycan elminin nüfuzunu beynəlxalq miqyasda yeni səviyyəyə yüksəltmişdir. Akademik Cəlal Əliyevin iştirakı və rəhbərliyi ilə aparılmış tədqiqatlar bütövlükdə milli elmi məktəbin dünya elm xəritəsində möhkəmlənən mövqeyinin göstəricisinə çevrilmişdir.

Dünya şöhrətli alimin biologiya elmində yaratdığı yeni yanaşmalar illər boyu dəyişməz həqiqət kimi qəbul edilən, lakin mahiyyətcə yanlış olan bir sıra stereotiplərin elmi əsaslarla aradan qaldırılmasına imkan vermiş, müasir biologiyada paradiqmatik dönüş yaradan nailiyyətlər sırasına daxil olmuşdur. Xüsusilə fotosintez və fototənəffüs proseslərinin uzunmüddətli, sistemli və müqayisəli tədqiqi nəticəsində akademik Cəlal Əliyev fundamental bir elmi həqiqəti üzə çıxarmışdır: fototənəffüs bitkilər üçün əlavə və ya "israfçı" mexanizm deyil, əksinə, onların həyat fəaliyyətinin davamlılığını təmin edən zəruri metabolik prosesdir.

Cəlal müəllim müxtəlif buğda genotipləri üzərində aparılmış çoxillik sahə və laboratoriya tədqiqatlarının nəticələrinə əsaslanaraq sübut etmişdir ki, məhsuldarlığın artırılması naminə fototənəffüsün süni şəkildə zəiflədilməsi cəhdləri nə elmi, nə də praktik baxımdan əsaslı deyildir. Akademikin gəldiyi qənaət biologiya elminin əvvəlki təsəvvürlərini kökündən dəyişmişdir: yüksək məhsuldarlıq yalnız fotosintezin intensivliyi ilə deyil, eyni zamanda, fototənəffüsün optimal və fəal şəkildə baş verməsi ilə şərtlənir.

Beləliklə, təkamül prosesində formalaşmış bu mexanizmin bitki həyatında tutduğu mühüm yer elmi dəlillərlə təsdiqlənmiş, dünya biologiyasında yeni düşüncə istiqamətinin əsası qoyulmuşdur. Müxtəlif elmi istiqamətləri vahid konseptual çərçivədə, multidissiplinar zəncirdə birləşdirən tədqiqat strategiyası sayəsində akademik Cəlal Əliyev, ümumiyyətlə, fotosintez hadisəsinə baxışı köklü şəkildə yeniləyən elmi yanaşma formalaşdırmışdır. Onun "yaxşı fotosintez" anlayışı ətrafında irəli sürdüyü konsepsiya kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və keyfiyyət göstəricilərinin yüksəldilməsi üçün proseslərin məqsədyönlü tənzimlənməsinə real elmi mexanizmlər təklif etmiş, bu yanaşmalar qısa müddətdə beynəlxalq elmi ictimaiyyətin diqqətini cəlb edərək geniş rezonans doğurmuşdur.

Böyük elm xadiminin uzun illərə söykənən tədqiqat təcrübəsi fotosintez probleminin "tam öyrənilmiş sahə" kimi qəbul edilməsinin elmi baxımdan əsassız olduğunu qəti şəkildə ortaya qoymuşdur. Əksinə, akademikin gəldiyi qənaət ondan ibarət idi ki, fotosintez canlı aləmin ən mürəkkəb və çoxsəviyyəli proseslərindən biri kimi daim yenilənən elmi baxış, daha geniş tədqiqat spektri və müasir metodoloji alətlər tələb edir.

Akademik Cəlal Əliyevin seleksiya sahəsindəki fəaliyyəti gənclik illərindən etibarən genişmiqyaslı və strateji xarakter daşıyırdı. Uzaqgörən alim intensiv tipli sortların yaradılması üçün ilkin şərt sayılan genetik müxtəlifliyin qorunmasını və zənginləşdirilməsini seleksiya elminin əsas dayaqlarından biri kimi qəbul edirdi. Məhz bu yanaşmanın nəticəsi olaraq, Cəlal Əliyev tərəfindən mənşəyi, bioloji xüsusiyyətləri və təsərrüfat əhəmiyyətli göstəriciləri baxımından kəskin fərqlənən on minlərlə buğda nümunəsini əhatə edən unikal milli genetik ehtiyat fondu formalaşdırılmışdır.

Bu genefonda mədəni buğdaların yabanı əcdadları, yabanı formalar, minilliklər boyu xalq seleksiyası yolu ilə yaranmış qədim ənənəvi sortlar, nadir genotiplər və seleksiya baxımından yüksək dəyərə malik digər tədqiqat materialları daxil edilmişdir ki, bu da Azərbaycan buğda genefondunu Cənubi Qafqaz və Mərkəzi Asiya regionun ən zəngin elmi tədqiqat mənbələrindən birinə çevirmişdir. Bu genetik xəzinə təsadüfi yolla deyil, respublikanın bütün ərazilərini əhatə edən sistemli elmi ekspedisiyalar, beynəlxalq və ölkədaxili elmi əməkdaşlıq, məqsədyönlü hibridləşmə proqramları və müasir seleksiya üsullarının tətbiqi nəticəsində yaradılmışdır.

Toplanmış materiallar böyük alimin təşəbbüsü və dəstəyi ilə yaradılmış Genetik Ehtiyatlar İnstitutunda, Azərbaycanın Milli Genbankında, AR KTN Əkinçilik Elmi-Tədqiqat İnstitutunda, eləcə də digər elmi müəssisə və ali təhsil ocaqlarında mövcud olan milli kolleksiyalarda qorunub saxlanılmış, artırılmış və kompleks şəkildə tədqiq edilmişdir. Bu genefond akademik Cəlal Əliyevin öz tədqiqatları ilə yanaşı, onun elmi məktəbinin davamçıları tərəfindən seleksiya və bitki biologiyası üzrə aparılan araşdırmaların əsas istinad nöqtəsinə çevrilmişdir.

Müvafiq fəaliyyətlərin praktiki təcəssümü kimi Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında yaradılmış canlı tarla buğda genbankı mühüm elmi əhəmiyyət daşıyır. Burada yerli xalq seleksiyası sortları, Azərbaycan mənşəli tetra və heksaploid buğda növlərinə aid nümunələr, eləcə də beynəlxalq mərkəzlərdən əldə edilmiş tədqiqat materialları təbii, əsasən də dəmyə şəraitində əkilib-becərilərək mühafizə olunur, davamlı elmi araşdırma və müşahidələrə cəlb edilir.

Bu canlı kolleksiya genetik irsin qorunması ilə yanaşı, gələcək seleksiya proqramları üçün etibarlı elmi baza rolunu oynayaraq akademik Cəlal Əliyevin uzaqgörən elmi strategiyasının daim yaşayaraq inkişafda olduğunu canlı olaraq nümayiş etdirir. Cəlal Əliyevin strateji elmi baxışı Azərbaycanın aqrar elmini qapalı milli çərçivədən çıxararaq qlobal tədqiqat məkanının fəal iştirakçısına çevirmişdir. Onun təşəbbüsü və prinsipial mövqeyi nəticəsində Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Məşvərət Qrupuna daxil olan aparıcı elmi mərkəzlərlə qurulan davamlı və institusional əlaqələr ölkədə genetik ehtiyatların öyrənilməsi, seleksiya proqramlarının genişləndirilməsi və müasir aqrar tədqiqat metodlarının tətbiqi baxımından yeni imkanlar açmışdır.



Bu əməkdaşlıq Azərbaycan aqrar elminə təkcə yeni materiallar deyil, həm də qabaqcıl elmi yanaşmalar, metodologiyalar və uzunmüddətli strateji düşüncə gətirmişdir. Akademikin bilavasitə dəstəyi ilə Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəzin və Buğda və Qarğıdalının Yaxşılaşdırılması üzrə Beynəlxalq Mərkəzin seleksiya pitomniklərindən əldə olunan buğda və digər dənli bitkilərə aid on minlərlə nümunə məhsuldarlıq potensialı, dən keyfiyyəti və stres amillərinə davamlılıq baxımından sistemli şəkildə qiymətləndirilmiş, milli seleksiya proqramlarının elmi bazasının ayrılmaz hissəsinə çevrilmişdir.

Yerli genetik ehtiyatlarla beynəlxalq seleksiya materiallarının məqsədyönlü inteqrasiyası akademik Cəlal Əliyevin aqrar elmdə açıq və sinerji yaradan yanaşmasının bariz nümunəsi olmuşdur. Son onilliklər ərzində milli seleksiya nailiyyətlərinin ideya və metodoloji əsasını birbaşa akademik Cəlal Əliyevin fotosintetik məhsuldarlığın fizioloji, biofiziki, biokimyəvi və molekulyar-genetik mexanizmlərinə dair fundamental tədqiqatları, ideyaları təşkil etmişdir.

Məhz zəngin genetik müxtəlifliyin dərin nəzəri biliklərlə uzlaşdırılması nəticəsində Azərbaycanda kənd təsərrüfatı biologiyası və bitki seleksiyası sahəsində yeni elmi konsepsiyanın formalaşması böyük alimin adı ilə bağlıdır. O, fotosintezlə bağlı qiymətli əlamətlərin irsiyyət qanunauyğunluqlarını dərinliklə araşdıraraq genotiplərin donor potensialını üzə çıxarmış, seleksiya prosesini təsadüfi empirik yanaşmadan çıxarıb elmi əsaslara söykənən məqsədyönlü sistemə çevirmişdir.

Milli buğda genefondunun imkanlarından səmərəli istifadə etməklə Azərbaycanın torpaq-iqlim xüsusiyyətlərinə uyğun, "ideal genotip" konsepsiyasına yaxın sortların yaradılması bu fəaliyyətin əsas strateji xəttini təşkil etmişdir. Cəlal müəllimin seleksiyaçı intuisiyası, geniş erudisiyası, yenilikçi ideyaları və yorulmaz zəhməti sayəsində ölkənin müxtəlif, çox vaxt mürəkkəb torpaq-iqlim şəraitinə malik bölgələri üçün yüksəkməhsuldar, quraqlığa və şaxtaya, xəstəlik və zərərvericilərə qarşı davamlı, həmçinin şoran və şorakətli torpaqlarda belə sabit məhsuldarlıq nümayiş etdirən sortlar yaradılmış, rayonlaşdırılmış və elmi əsaslara söykənən toxumçuluq sistemi formalaşdırılmışdır.

Görkəmli alim Cəlal Əliyevin formalaşdırdığı çoxşaxəli seleksiya konsepsiyası daxili məntiqə malik, elementləri bir-birini tamamlayan bütöv və dayanıqlı bir elmi sistemdir. Bu sistem ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində – ölkənin müstəqilliyə son dərəcə mürəkkəb və ağrılı keçid mərhələsində mövcud çətinliklərə, maddi-texniki çatışmazlıqlara, hətta böyük alimə və onun elmi məktəbinə qarşı yönəlmiş haqsız münasibətlərə baxmayaraq, fəaliyyətini dayandırmamışdır.

Son yarım əsrdə Azərbaycanın ərzaq təhlükəsizliyinin elmi əsaslarla təmin olunmasına akademik Cəlal Əliyevin rəhbərlik etdiyi milli seleksiya və genetik ehtiyatlar proqramları qədər sistemli, davamlı və təsirli töhfə verən çox az sayda sənəd göstərmək olar. Akademik Cəlal Əliyev, eyni zamanda, Azərbaycanın bioloji müxtəlifliyinin öyrənilməsi, qorunması və məqsədyönlü istifadəsi üzrə uzun illər strateji rəhbərliyi həyata keçirmiş, bu sahədə də qiymətli, dərin və uzunömürlü elmi irs qoymuşdur.

Təbiəti bir canlı sistem kimi dərk edən alim biomüxtəlifliyin mühafizəsini milli təhlükəsizlik və davamlı inkişaf məsələsi kimi qiymətləndirirdi. Onun təşəbbüsləri və rəhbərliyi ilə həyata keçirilmiş tədqiqatlar, yaradılmış institusional mexanizmlər və formalaşdırılmış elmi məktəb bu gün də Azərbaycanın genetik sərvətinin qorunmasına xidmət edir. Xüsusilə, mədəni bitkilərin yabanı əcdadlarına, qida kimi istifadə olunan yabanı bitki formalarına və xalq seleksiyası nəticəsində formalaşmış genetik nümunələrə seleksiya və bitki yaxşılaşdırılması proqramları üçün tükənməz və əvəzolunmaz resurs kimi yanaşması onun elmi dünyagörüşünün əsas cizgilərindən idi.

Təşəbbüskar və məhsuldar alimin rəhbərliyi ilə Azərbaycan biologiya elminin dünya elmi məkanına inteqrasiyası yeni məzmun və keyfiyyət qazanmış, aparıcı beynəlxalq elmi təşkilatlar, nüfuzlu xarici tədqiqat mərkəzləri ilə əlaqələr sistemli və davamlı xarakter almışdır. Bu əməkdaşlıqlar yalnız birgə layihələr və elmi mübadilələrlə məhdudlaşmamış, eyni zamanda, ölkədə müasir elmi məktəblərin formalaşmasına, gənc tədqiqatçıların qlobal elmi mühitə çıxış imkanlarının genişlənməsinə şərait yaratmışdır.

Akademik Cəlal Əliyevin elmi-təşkilati irsinin ən mühüm və uzunömürlü nəticələrindən biri, heç şübhəsiz ki, sonralar ölkənin aparıcı elmi mərkəzlərindən birinə çevrilmiş Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun formalaşdırılmasıdır. Onun elmi irsində xüsusi yer tutan məhsuldarlığın genetik və fizioloji əsaslarının müasir texnologiyaların istifadəsi ilə öyrənilməsi, fundamental biliklərin tətbiqi kənd təsərrüfatı nəticələrinə çevrilməsi ideyaları konfransın əsas məzmun xəttini təşkil etmişdir.

Unudulmaz alimin elmi dühasının böyüklüyü haqqında danışarkən onun Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, riyazi və kompüter biologiyası, bioinformatikanın bünövrəsinin qoyulmasında, yaradılıb formalaşdırılmasındakı xidmətləri xüsusi qeyd edilməlidir. Bu məqamda müasir yüksək texnologiyaların elmi fəaliyyətə transferi və tətbiqi məsələlərinə akademik Cəlal Əliyevin hələ illər öncə formalaşdırdığı uzaqgörən yanaşmanı xüsusi qeyd etmək yerinə düşür. Bu sistemli və uzaqgörən fəaliyyət nəticəsində təxminən 300-ə yaxın yüksəkixtisaslı elmi kadr hazırlanmış, akademik Cəlal Əliyevin bilavasitə elmi məsləhətçiliyi və rəhbərliyi altında 15 elmlər doktoru və 81 fəlsəfə doktoru hazırlanmışdır.

Cəlal müəllimin elmi fəaliyyətinin əsasını təşkil edən ideyalar, nəzəriyyələr və tədqiqatlar dünya biologiyası üçün də mühüm töhfələrdir. Onun elmi irsi 800-ə yaxın elmi əsərdə, o cümlədən 25 fundamental monoqrafiya və kitabda sistemləşdirilmişdir. Eyni zamanda, 20-dən çox müəlliflik şəhadətnaməsi, elmi nailiyyətlərin praktik tətbiqini təmin edən yeni bitki sortları, elmi məktəbi, bu gün yeni ad altında fəaliyyət göstərən AR ETN "Molekulyar Biologiya İnstitutu" PHŞ akademikin elmi irsinin canlı və qabarıq göstəriciləridir.

Artıq 10 ildir ki, sevimli müəllimimiz Cəlal Əliyev fiziki olaraq aramızda olmasa da, elmi ictimaiyyət onun adını yüksək ehtiramla yad edir. Bu hörmətin ən bariz nümunələrindən biri Beynəlxalq Fotosintez Cəmiyyətinin (ISPR) akademik Cəlal Əliyevin şərəfinə "The Jalal Aliyev Lecture Award" adlı mükafat və medal təsis etməsidir. Bu addım Azərbaycan elminin dünya elmi məkanında layiqli yer tutduğunun və akademikin elmi məktəbinin qlobal səviyyədə qiymətləndirildiyinin əyani göstəricisidir.

Akademik Cəlal Əliyevin zəngin irsi və nəhəng xidmətləri gələcək nəsillər üçün həm elmi yolgöstərici, həm də milli qürur mənbəyidir. Onun ideyaları əsasında formalaşan elmi məktəb bu gün də inkişaf edir və gələcəkdə daha böyük uğurlar qazanılmasına doğru irəliləyir. Bu da onu göstərir ki, Cəlal Əliyevin adı heç zaman unudulmayacaq, dühası ilə yandırdığı elm işığı sönməyəcək, əksinə, vəfatından sonra da davam edən əməlləri, ardıcıllarının hər yeni uğuru ilə daha da güclənəcəkdir.

***İradə HÜSEYNOVA,***
***akademik***

*(əvvəli qəzetin 17 və 23 yanvar 2026-cı il tarixli sayında)*

*I Türkoloji Qurultay*

# Türk xalqları hansı əlifbanı seçməlidir?

## *Ana dilimizin əlifba tarixindən*



**İnoqamovun fikrincə,** Tatarıstan nümayəndə heyəti formal bir razılıq nümayiş etdirsə də, praktik və prinsipial baxımdan latın əlifbasına qarşıdır. İslah edilmiş ərəb əlifbası ilə latın əlifbası arasında praktik baxımdan ciddi fərq yoxdur; hər ikisi müəyyən çətinliklər yaradır. Özbəkistan təcrübəsi göstərir ki, uşaqlar yeni əlifbada oxuyur, köhnə ərəb əlifbasını bilmir və yeni islah edilmiş ərəb əlifbasında da çətinlik çəkirlər. Deməli, "latın əlifbasını qəbul etsək, kütlədən uzaq düşərik" faktı əsaslı deyil, çünki reforma edilmiş ərəb əlifbası da eyni problemlərə malikdir. İnoqamov **latın əlifbasına qarşı çıxışın əsas səbəbinin formal etiraz və ya anlayış fərqi** olduğunu, praktiki üstünlük baxımından isə hər iki sistemin oxşar çətinliklər verdiyini vurğulayır.

**Sultan Məcid Əfəndiyev** latın əlifbasının tətbiqinə qarşı çıxanların arqumentlərinə öz fikrini bildirir. O göstərir ki, Avropanın qabaqcıl ölkələrində mürəkkəb struktura malik əlifbalar mövcuddur və bu heç bir halda həmin xalqların tərəqqisinə mane olmur, bu ölkələrdə texnika və elm sahəsindəki son təkmilləşdirmələrə baxmayaraq, köhnə nümunələr hələ də qorunur. Latına qarşı çıxanların ikinci arqumenti isə bütün çap olunmuş ədəbiyyatın və ərəb dili əsasında əldə olunan irsi materialların arxivə verilməsi, bütün kitabların yenidən çap olunması kimi ciddi nəticələrə işarə edir. Lakin islahatın böyük əhəmiyyətini nəzərə alsaq, xərclərin böyüklüyü heç vaxt tərəqqini dayandıra bilməz. Yeni türk əlifbasının tətbiqi köhnə əlifbadan istifadə imkanını məhdudlaşdırmır; latın əlifbası ilə yanaşı, ərəb əlifbası da istifadə edilə bilər. Məruzəçi Almaniyadakı mövcud durumu nümunə olaraq göstərir; orada həm alman, həm də qotik yazı üsulu olduğunu qeyd edir. Qotik əlifba texniki baxımdan ərəb əlifbası qədər mürəkkəbdir, lakin bu iki əlifba orada paralel şəkildə istifadə olunur. Tərəqqi yalnız ən müasir vasitələrdən istifadə edildikdə mümkündür. Əfəndiyev soruşur: Niyə latına qarşı xüsusi müqavimət göstərilir və bütün problemlər ona bağlanır? İslahatın əleyhdarları özü reformanı tətbiq etmək istəsə də, sinfi maraqlarına görə bu islahatın əleyhinə çıxırlar.

Daha sonra o, latın əlifbasının tətbiqi ilə Şərqdən uzaqlaşma arqumenti misal gətirilir. Bildirir ki, Şərq, fars və Əfqanıstan mədəni baxımdan bizdən geri qalıb, onlarla bərabərləşə bilmərik, irəliləməliyik. Bu islahatı həyata keçirərək, digər Şərq xalqlarını da bu reformanı qəbul etməyə inandıra bilərik.

Latın əlifbasının tətbiqi, eyni zamanda, bizi klerikalizmdən azad edir. Ərəb əlifbasına əsaslanan oxu kitabları dinlə bağlıdır və ruhaniyyətin hakimiyyətini gücləndirir, bu isə kütlənin şüuruna mənfi təsir göstərir. Latın əlifbasının qəbul olunması isə dini hakimiyyətdən azad edir və mədəni tərəqqi üçün mühüm amildir. Ən vacib məqam budur ki, latın əlifbasının tətbiqi Avropa düşüncəsində müəyyən çevrilişə səbəb olacaq və onların bizə münasibətini dəyişdirəcək.

* * *

Sultan Məcid Əfəndiyev latın əlifbasına qarşı dəlilləri təhlil edərək onlara qarşı bir neçə əsas fikir irəli sürür:

**1. Əlifbanın mürəkkəbliyi və tərəqqi.** Avropada mürəkkəb əlifbalar mövcuddur və bu xalqların inkişafına mane olmur. Ərəb əlifbasının mürəkkəbliyi tərəqqiyə əngəl yaratmamalıdır.

**2. Tarixi materiallar və çap olunmuş ədəbiyyat.** Latınlaşma köhnə ədəbiyyatı arxivləşdirməyə və yenidən çap etməyə mane olmur; hər iki əlifba paralel istifadə edilə bilər (Almaniya nümunəsi: latın və qotik əlifbaları).

**3. Latın əlifbasına qarşı müqavimət.** Əleyhdarların müqaviməti sinfi maraqlarla bağlıdır, şəxsi və ya texniki səbəblərlə deyil.

**4. Şərqdən uzaqlaşma faktı.** Latın əlifbasının tətbiqi Şərqdən fərqlənmək və geridə qalmış ölkələri arxada qoymaq üçün vacibdir; reformanın digər Şərq xalqları üçün nümunə olması mümkündür.

**5. Klerikalizmdən azadlıq.** Ərəb əlifbası dini hakimiyyəti gücləndirir; latın əlifbası isə kütlənin şüuruna dini təsiri azaldır və mədəni tərəqqi üçün şərait yaradır.

**6. Avropa təsiri:** Latın əlifbasının qəbul olunması Avropa düşüncəsi ilə yaxınlaşmanı təmin edir və onların bizə münasibətini müsbət istiqamətə dəyişdirə bilər.

Əfəndiyevin əsas arqumenti budur ki, latın əlifbasının tətbiqi həm mədəni, həm də texniki baxımdan əhəmiyyətlidir, köhnə əlifbanın saxlanmasına mane olmur və tərəqqi üçün vacib bir addımdır.

**Əhməd Baytursun** qeyd edir ki, əlifbadan tələb olunan əsas xüsusiyyətlər səsi düzgün ötürmək və texniki baxımdan rahatlıqdır. Biz geri qalmış xalqıq və mədəni imkanlarımız məhduddur, bütün mədəni qüvvələrimizi və vasitələrimizi ən vacib işlərə – dərsliklərin hazırlanmasına yönəltmişik. Məsələn, tatar dilində müqayisəli və tam lüğət hazırlaya bilmirik, çünki bütün mədəni resurslarımız dərsliklərə sərf olunur. Bu baxımdan, Baytursun latın əlifbasının tətbiqini zəruri hesab etmir.

Əgər latın əlifbasını tətbiq edən xalqlar əvvəllər əlifbaya malik deyildilərsə, bu, düzgün və məntiqlidir. Əgər zəif əlifbaya malik idilərsə, tətbiq də mənalıdır. Lakin əvvəllər rus əlifbasına malik olan xalqlar üçün latın əlifbasına keçid yalnız ikiqat xərclər və əmək deməkdir. Uşaqlar həm latın, həm də rus əlifbasını öyrənməli olacaqlar, bu isə öyrənməyi çətinləşdirir. Yeni əlifbanın tətbiqi yalnız bunu asanlaşdırdığı halda mənalıdır.

Baytursun vurğulayır ki, həm ərəb, həm də latın əlifbalarının müsbət və mənfi tərəfləri var. Ağıl ilə, mühakiməsiz yanaşsaq, rus əlifbasını qəbul etməliyik. Əgər bu zərurətdirsə, latın əlifbasına ehtiyac yoxdur; latın əlifbasını qəbul etmək istəyənlər isə bunu edə bilərlər. Ərəb əlifbasının əsas çatışmazlığı onun görünüşü və notların yazılmasında ortaya çıxır, lakin əhalinin çoxu buna ehtiyac duymur.

Sağdan sola yazmanın göz üçün zərərli olduğu arqumenti də düzgün deyil: sağ əl ilə soldan sağa yazanda görmə yazı ilə birlikdə hərəkət edir və sağa meyil artdıqca göz daha çox gərginləşir. Baytursun hesab edir ki, latın əlifbasının tətbiqi zamanı yalnız xarici tərəfi mənimsəmək kifayət deyil, Avropa mədəniyyətini tam mənimsəmək üçün onu öz laboratoriyamızda işləməliyik və biz bunu tətbiq edirik.

* * *

Baytursun yoldaşın yanaşması elmi baxımdan səmərəlidir, çünki əlifba bir mədəniyyət vasitəsi olmaqla yanaşı, praktik kommunikasiya və təhsilin təməlidir. Baytursun qeyd etdiyi əvvəlki əlifbaya malik xalqlar üçün latın əlifbasına keçidin əlavə xərclər və əmək tələb etməsi məsələsi funksional və resurs yönümlü qiymətləndirmədir, bu da qlobal təhsil iqtisadiyyatı prinsiplərinə uyğundur. Bu yanaşma texniki rahatlığı ön plana çıxarır, lakin uzunmüddətli dil və mədəni inkişafın rolunu tam şəkildə nəzərə almır. Yəni yalnız funksional ölçü ilə qiymətləndirmək, strateji mədəni adaptasiyanı əhatə etmir. Onun arqumenti mədəni resursların məhdud olması səbəbindən latın əlifbasının tətbiqi zəruri deyil, əsas diqqət dərsliklər və tədris materiallarına yönəldilməlidir. Bu yanaşma praktiki baxımdan məntiqlidir, lakin əgər latın əlifbası uzunmüddətli olaraq beynəlxalq əlaqələrdə, texnologiya və elmi standartlarda əhəmiyyət daşıyırsa, resursların yalnız dərsliklərə yönəldilməsi mədəni və elmi inkişafı gecikdirə bilər.

Baytursun vurğuladığı kiçik amil öyrənmə yükünün nəzəri qiymətləndirilməsidir – uşaqlar həm latın, həm də rus əlifbasını öyrənməli olacaqlar. Psixoloji və pedaqoji tədqiqatlarla da təsdiqlənmişdir ki, çoxdilli və paralel əlifba sistemlərinin tətbiqi çoxsistemli öyrənmə yükü artırır və ilkin oxu sürəti azalır.

Mühazirəçinin sağdan sola yazının göz üçün zərərli, qırıq-qırıq və birləşmiş hərf formalarının sürət baxımından fərqi olmadığı ilə bağlı iddiası vizual qavrama və yazı sürəti üzrə eksperimental tədqiqatlarla dəstəklənə bilər. Bu yanaşma əhəmiyyətlidir, çünki əlifbanın fizioloji tələbləri uzunmüddətli oxu və yazı performansına təsir göstərir. "Latın əlifbasının yalnız xarici forması deyil, mədəni laboratoriyada işlənməsinin vacibliyi" dedikdə, adaptasiya prinsipinə işarə edir. Burada təkcə texniki öyrənmə yox, mədəni assimilyasiya və Avropa modelinin praktik tətbiqi nəzərdə tutulur. Bu yanaşma strateji baxımdan doğrudur və o, təkcə xarici adaptasiyanın yetərsiz olduğunu göstərir; yəni latın əlifbasının tətbiqi həm texniki, həm də mədəni sferanı əhatə etməlidir.

Elmi baxımdan Baytursunun mövqeyi praktik və funksional baxış üzərində qurulub, aşağıdakı aspektlərlə əsaslandırılır:

1. Əlifbanın əsas funksiyası səsi ötürmək və oxuma-yazma rahatlığını təmin etməkdir.

2. Məhdud mədəni resurslar və paralel əlifba sistemlərinin tətbiqi öyrənmə yükünü artırır.

3. Sağdan sola yazmanın və qrafik variasiyaların oxu sürətinə və gözə təsiri minimaldır.

4. Latın əlifbasının tətbiqi yalnız texniki mənimsəmədən ibarət deyil, mədəni laboratoriya şəraitində adaptasiya edilməlidir.

Baytursunun arqumentləri praktik, pedaqoji və mədəni-strateji baxışları balanslaşdırır.

**Ayvazov** köhnə ərəb əlifbasının geriliyinə qarşı çıxır, islah edilmiş ərəb əlifbasını isə zərərli və yarımçıq hesab edir. O bildirir ki, köklü islahat zəruridir və əgər yeni latın əlifbası mədəni inqilabımızı təmin edirsə, hamımız onu müdaxilə etmədən həyata keçirməliyik. Ayvazov vurğulayır ki, həyat özü yeni hərəkatı əngəlləyənləri bu islahatı həyata keçirməyə məcbur edəcək.

Baytursun latın və ərəb əlifbalarının müqayisəsini aparmır. O bildirir ki, əlifba təcrübəyə tabe olmayan bir struktur deyil, sadəcə nitqin əsas elementlərini göstərən işarələr toplusudur. Əsas prinsip: elementləri nə qədər asan və tam ötürürsə, əlifba bir o qədər yaxşıdır, işarələrin sayı nə qədər azdırsa, əlifba bir o qədər səmərəlidir. Əlifba uğursuz olduqda dəyişiklik və ya yeni əlifbanın tətbiqi müzakirə oluna bilər. Hazırda bizim əlifbamız mövcuddur və buna görə başqa əlifbaya ehtiyac yoxdur. Əgər əlifbamız pis olsaydı, vəziyyət fərqli olardı, lakin heç kəs göstərməyib ki, latın əlifbasının xüsusi üstünlükləri var.

* * *

Ayvazov köhnə ərəb əlifbasının geriliyini tənqid edir və islah edilmiş ərəb əlifbasını yarımçıq və zərərli hesab edir. Onun arqumenti mədəni-strateji xarakter daşıyır. Ayvazov hesab edir ki, köklü islahat lazımdır və əgər latın əlifbası mədəni inqilabı təmin edə bilərsə, onu müdaxilə olmadan həyata keçirmək lazımdır. Ayvazov, fikirlərini yalnız texniki üstünlüklərə deyil, mədəni modernləşmə və sosial transformasiya potensialına əsaslanır. Belə yanaşma məqsəd yönümlü reforma modelinə uyğundur – islahat yalnız texniki deyil, həm də mədəni və ictimai dəyişiklik vasitəsi olmalıdır.

O, latın və ərəb əlifbalarını müqayisə etmir, əsas diqqəti funksional ölçüyə yönəldir. Ona görə, əlifba nitqin əsas elementlərini göstərən işarələr toplusudur: elementləri nə qədər asan və tam ötürürsə, əlifba bir o qədər yaxşıdır, işarələrin sayı nə qədər az olarsa, əlifba bir o qədər səmərəlidir.

Ayvazovun mövqeyinə görə, mövcud əlifba funksional baxımdan yetərlidir və başqa əlifbaya ehtiyac yoxdur, çünki latın əlifbasının xüsusi üstünlükləri sübut olunmayıb. Texniki çatışmazlıqlara baxmayaraq, o, əlifba dəyişikliklərini mədəni və sosial transformasiya vasitəsi kimi qiymətləndirir. Bu yanaşma uzunmüddətli strategiya tələb etsə də, lakin radikal islahat ideyasını dəstəkləyir. Əlifbanın praqmatik və funksional ölçüsü üzərində dayanır və hazırkı əlifbanın yetərli olduğunu bildirir. Bu, qısamüddətli praktik yanaşma hesab olunur. O, ideya və strateji mədəni inkişafın perspektivinə yönəlirsə, Baytursun real praktik tələblərə və öyrənmə yükünə fokuslanır. Onların yanaşmaları bir-birini tam əvəz etmir, daha çox uzunmüddətli transformasiya və s. qısa müddətli səmərə dialoqu kimi qiymətləndirilə bilər.

**Barakov** bildirir ki, yakutlar latın əlifbasının tətbiqi sahəsində zəngin təcrübəyə malikdirlər. Qurultaya öz hesabatlarını təqdim etməsələr də, bu məsələ ilə bağlı tezislərini vermişlər. Onlar üçün ərəb əlifbasından latın əlifbasına keçid məsələsi keçərli deyil, çünki əvvəllər ərəb əlifbası tətbiq olunmayıb. Tarixin hökmü ilə Sibirin ən ucqar şimalında yaşadıqları üçün digər türk xalqları ilə əlaqələri kəsilib, dililləri bir-birinə uyğunluğunu bir qədər itirib. Ərəb əlifbası ilə birgə islam qəbul edilməyib. Buna görə də rus əlifbasından istifadə ediblər, onu yakut dilinin xüsusiyyətlərinə uyğunlaşdırıblar. İnqilabadək 4 növ yakut əlifbası mövcud idi. Bunlardan ikisi missiya məqsədli, ikisi isə əsasən, elmi yazılarda istifadə olunurdu. Onlardan biri akademik Betlins tərəfindən hazırlamışdı və bu gün də yakut sözlərinin təsviri üçün istifadə olunur, yakut kitabları bu əlifba ilə çap olunub.

Yakut xalqı XVII əsrdə zorla rus dini ilə xristianlaşdırılmışdı. Burada bir yanlış anlaşılmanın qarşısını almaq üçün qeyd etmək lazımdır ki, türk xalqları ilə qarşılaşanda adlarımız İvan, Sergey, Vasili olduğuna görə, adətən rus kimi qəbul olunurlar. Dillərinin digər türk dillərindən fərqli olmasına və Azərbaycan türkcəsini anlamamadıqlarına baxmayaraq, ortaq kökə malikdirlər. Türkologiyaya böyük maraqla yanaşırıq. Orfoqrafiya, terminologiya və əsasən əlifba məsələləri bütün türk dilləri üçün eyni əhəmiyyətə malikdir, o cümlədən yakut dili üçün də, çünki bu dil də digər türk dilləri ilə eyni qanunlara tabedir.

1917-ci ildən sonra yakut uşaqlarını məktəblərdə ana dilində öyrətmək ideyası önə çıxdı və bu zaman daha mükəmməl yeni əlifbanın yaradılması zərurəti yarandı. Bu ideya yakut dilçisi S.A.Novqorodov tərəfindən uğurla həyata keçirildi. O, yakut sözlərini təsvir etmək üçün beynəlxalq fonetik transkripsiyadan, əsasən latın hərflərindən istifadə etmişdi. Yazının stenoqrafik olması və yazı zamanı əl hərəkətlərini çətinləşdirməmək üçün sətitüstü işarələrin ləğv edilməsi əsas prinsip oldu. Onun tərtib etdiyi əlifbada, həmçinin böyük hərflər və durğu işarələri də yox idi. Bu, bütün türk dillərində hər cümlənin feillə bitməsi xüsusiyyətinə əsaslandırılmışdı. Bu əlifba ilə artıq səkkizinci ildir ki, yakut uşaqları təhsil alır və 1922-ci ildən – Yakut Respublikasının yarandığı gündən savadsızlıq aradan qaldırılmışdı. Bu əlifbanın yayılması yerlərdə böyük maraqla qarşılandı, bir sıra dərsliklər, jurnallar, qəzetlər dərc olundu. Bununla yanaşı, iki əsas çatışmazlıq var: böyük hərflərin və durğu işarələrinin olmaması praktik narahatlıqlar yaratmışdı. Bu məsələ bir sıra iclaslarda və konfranslarda müzakirə olunmuşdu və yekdilliklə bu iki qaydanın bərpa edilməsinə qərar verilmişdi. Bundan başqa, bir sıra texniki düzəlişlər də mövcuddur. Ümid edirlər ki, bundan sonra bütün türk dilləri üçün, o cümlədən yakut dili üçün uyğun bir əlifba yaradılacaq.

* * *

Barakovun fikrincə, tarixi baxımdan yakutlar Sibir ərazisinin uzaq şimalında yerləşdikləri üçün digər türk xalqları ilə əlaqələri zəif olub, dil və mədəniyyət baxımından müəyyən fərqliliklər yaranıb. XVII əsrdə zorla xristianlaşdırılmaları və rus dili ilə inteqrasiya prosesi onların əlifba tarixini xüsusi bir çərçivəyə salıb. Yakutların latın əlifbasına keçidi, təbii tarixi şərait və mövcud sosial-mədəni struktur nəticəsində daha səmərəli olmuşdur. Bu coğrafi izolyasiya, mədəni fərqlilik, texniki ehtiyacların birgə təsirini göstərir.

Novqorodovun əlifbası stenoqrafik prinsiplərə əsaslanır, yəni sözləri əl qaldırmadan yazmaq mümkündür; sətiüstü və durğu işarələri əvvəlcə mövcud deyildi. Latın hərflərindən istifadə fonetik transkripsiya üçün əsas götürülüb, böyük hərflərin olmaması isə cümlə sonunu feillə müəyyən etmək strategiyası ilə kompensasiya edilib. Bu əlifba ilə təhsil 8 ildir ki, davam edir və savadsızlıq problemi minimuma endirilib. Yakutlar üçün latın əlifbası praktik və fonetik səmərəlilik baxımından uğurlu olmuşdur. Əlifba həm tədris prosesi, həm də savadlılıq üçün effektivliyi təsdiqini tapmışdır.

Əsas çatışmazlıqlar böyük hərflərin və durğu işarələrinin olmamasıdır. Bu problemlər konfranslarda müzakirə olunub və yekdilliklə bərpasına dair qərar qəbul edilib, digər texniki düzəlişlər də tətbiq edilib və daha geniş istifadə imkanları yaradılıb. Latın əlifbasının tətbiqi təkcə yeni hərflərin qəbulunu deyil, həm də təcrübə əsasında texniki tənzimləmə və adaptasiya prosesini tələb edir. Bu, hər yeni əlifbanın təkmilləşdirilməsinin qaçılmaz olduğunu göstərir.

Təcrübə göstərir ki, latın əlifbası əvvəlki əlifba ilə bağlı tarixi yük olmadan tətbiq edildikdə səmərəli olur. Məqsəd türk dilləri üçün vahid əlifbanın yaradılmasıdır və yakut əlifbasının timsalında bunun praktik modeli təqdim edilir. Bu təcrübə digər türk xalqları üçün strateji tövsiyə kimi qiymətləndirilə bilər.

**Tınstanov** təəssüf edir ki, türkcə başa düşmür və professor Çobanzadənin çıxışında islahçıları dəstəkləyib-dəstəkləmədiyini bilmir. O əlavə edir ki, ərəb hərflərindəki nöqtələr bizim dil xüsusiyyətlərinə uyğun deyil. Əsas etirazlardan biri belədir ki, xalqımız cahil və mövhumatçıdır, yeni əlifba kütlələr arasında etiraz yarada bilər. Tınstanov soruşur: niyə rus əlifbasını tam qəbul etməyək, xüsusən ki, biz hər gün rus mədəniyyəti və ruslarla təmasdayıq, yeni əlifba əhali arasında siyasi narazılıq yarada bilər.

* * *

Tınstanov qeyd edir ki, ərəb əlifbasındakı nöqtələr türk dillərinin (və konkret halda Tınstanovun təmsil etdiyi qırğız xalqının fonetik xüsusiyyətlərinə uyğun deyil. Bu, fonemlərin düzgün ötürülməməsi və oxuma prosesində çətinlik yaradır. Əlifba yalnız mədəni və tarixi baxımdan deyil, fonetik səmərəlilik baxımından da qiymətləndirilməlidir. Ərəb əlifbası bu baxımdan uyğunsuzdur.

O, etiraz edir ki, xalq cahil və fanatikdir, bu da yeni əlifbanın kütlələr arasında etirazla qarşılanma riskini artırır. Bu arqument sosial adaptasiya və islahatın qəbul olunması məsələsinə toxunur. Hər hansı əlifba islahatı yalnız texniki baxımdan səmərəli olmaqla kifayətlənməməli, həm də sosial mühit və əhali psixologiyasına uyğun olmalıdır.

Tınstanov sual edir: niyə rus əlifbasını tam qəbul etməyək? Vurğulayır ki, hər gün rus mədəniyyəti ilə təmas mövcuddur, buna görə latın və ya yeni əlifba tətbiqi siyasi və sosial narazılıq yarada bilər. Bu arqument praktik və strateji yanaşmadır: mövcud əlifba ilə mədəni və təhsil əlaqələrinin qorunması prioritet ola bilər. Rus əlifbasının tətbiqi, həm texniki səmərəlilik, həm də sosial inteqrasiya baxımından mümkün kompromis variantı kimi qiymətləndirilə bilər.

Tınstanovun gətirdiyi arqumentlər fonetik uyğunsuzluq, sosial narazılıq riski, mövcud mədəni təmasların qorunması üzərində qurulub. Onun mövqeyi göstərir ki, əlifba islahatı yalnız texniki və mədəni səmərəliliyə əsaslanmamalıdır, həm də sosial adaptasiya və siyasi riskləri nəzərə almalıdır. Digər müəlliflərin (Ayvazov, Baytursun, Barakov) arqumentləri ilə müqayisədə, Tınstanov daha çox praktik və siyasi-mədəni reallıqları ön plana çəkir.

**Ulbaşov** qeyd edir ki, balkar xalqı inqilabadək öz yazısına malik deyildi, yalnız savadlı mollalar və zadəganlar yazı bilirdi. İnqilabdan sonra rus hərfləri ilə öz yazımızı yaratmağa başladıq və bunun nəticəsində bir əlifba tərtib olundu. Daha sonra latın əlifbası nəzərdən keçirildi və bu şrift artıq bizdə tətbiq olunur və məktəblərdə öyrədilir. Ulbaşov vurğulayır ki, indi mədəni və iqtisadi sahələrdə qələbə qazanmaq vacibdir və bu qələbə üçün düzgün yol seçilməlidir.

* * *

Ulbaşovun məruzəsi xalqların savadlanması, yazı sisteminin yaradılması və mədəni modernləşmə məsələlərini əhatə edir. Xüsusilə Şimali Qafqaz xalqları üçün xarakterik olan əlifba quruculuğu problemi mövzusunun əsasını təşkil edir. Mətn üç əsas tezis üzərində qurulub: a) inqilabadək yazısı olmayan xalqın ümumi savad səviyyəsi, yazının bir təbəqənin (mollalar və zadəganlar) inhisarında qalması kimi arqumentlər ilə əsaslandırılır. Burada "yazının olmaması" faktiki olaraq standartlaşdırılmış milli əlifbanın olmaması kimi başa düşülməlidir. Çünki dini və ya qeyri-rəsmi yazı praktikalarının mövcudluğu inkar edilmir; b) inqilabdan sonra yazının yaradılması sürətli savadlanma ehtiyacı və texniki, çap imkanlarının rus qrafikasına uyğun olması ilə izah oluna bilər. Ardınca latın əlifbasına keçid qeyd olunur. Bu, 1920–30-cu illərdə SSRİ-də həyata keçirilən latınlaşdırma siyasəti ilə tam uyğunluq təşkil edir. Mətn latın qrafikasının artıq tətbiq edildiyini və məktəblərdə tədris olunduğunu vurğulamaqla bu prosesi irəliləyiş və normallaşma kimi təqdim edir; c) mədəni və iqtisadi "qələbə" ideyası artıq texniki əlifba məsələsindən kənara çıxaraq ideoloji məqsəd daşıyır: savadlanma, maarifləndirmə, istehsal münasibətlərinə inteqrasiya kimi sovet modernləşmə hədəflərini simvolizə edir. "Düzgün yol tapılmalıdır" ifadəsi isə əlifba islahatını sadəcə texniki vasitə yox, strateji inkişaf aləti kimi təqdim edir. Əlifba islahatını mədəni tərəqqinin əsas şərti kimi ideallaşdırır.

**Kosıyev** bildirir ki, Kalmık bölgəsində əlifba məsələsi 8–9 il əvvəl qaldırılmışdı. Avropa xalqları soldan sağa yazır, siz sağdan sola, kalmıklar isə yuxarıdan aşağı yazırdı. Köhnə yazı əlverişli olmasa da, uyğun olaraq yeni əlifba qəbul edilməyə qərar verildi. Latın deyil, rus əlifbası tətbiq olundu və rus dilində olmayan səslər üçün xüsusi işarələr əlavə edildi.

Bəzi şəxslər qeyd edirdilər ki, rus əlifbasını qəbul etmək olmaz, çünki bu əlifba xalqımıza əvvəl zülm edən, həm işçi, həm də hökumət vasitəsilə tətbiq olunmuşdur. Lakin biz onu qəbul etdik və əhali də dəstək oldu. Bunun əsas səbəbi odur ki, rus əhalisi arasında yaşayırıq və lazım olan bilikləri yalnız ruslardan alırıq. Beləliklə, iki məqsədə nail olduq: məktəblərdə ilk il ana dilində təhsil verilir, uşaqlar birinci ildə rus əlifbasını öyrənir, ikinci ildə isə rus dilini mənimsəyir və artıq oxuya bilirlər.

Kosıyev özü türk dilini bilmədiyini qeyd edir. Yazının məqsədi biliklərin əldə edilməsinə xidmət etməlidir; ən rahat və asan mənimsənilə bilən yazı seçilməlidir. Əgər köhnə ərəb əlifbası çoxlarının, hətta professorların elmi və nəzəri yanaşmalarına görə yararsızdırsa, onu yeni yazı ilə əvəz etmək lazımdır. Bu halda latın əlifbası qəbul edilərsə, xalq üçün lazım olan bütün biliklərin mənimsənilməsi daha asan olacaq

* * *

Kosıyevin çıxışı praktik-mədəni nümunələrlə siyasi-legitimləşdirici diskursu birləşdirir. O, fərqli yazı istiqamətlərini (soldan sağa, sağdan sola, yuxarıdan aşağı) sadalayaraq köhnə kalmık yazısını texniki cəhətdən əlverişsiz yazı kimi təqdim edir. Bu müqayisə yazının mədəni deyil, praktik alət olduğu fikrini bir daha təsdiqləyir, yazının tarixi-mədəni dəyəri kənara qoyularaq, onun funksional səmərəliliyi əsas meyar kimi irəli sürülür.

Mətnin mühüm hissəsi rus əlifbasının qəbuluna yönəlmiş etirazlara cavab xarakteri daşıyır. Etiraz edənlərin arqumenti rus əlifbasının tarixi zülm simvolu olması qeyd olunsa da, dərhal neytrallaşdırılır. Kosıyev bu etirazı sosial reallıq ("rus əhalisi arasında yaşayırıq"), praktik bilik ehtiyacı ("bilikləri ruslardan alırıq") ilə əvəz edir. Onun təqdim etdiyi təhsil modeli strateji baxımdan diqqətəlayiqdir: birinci il – ana dili + rus qrafikası; ikinci il – rus dili + oxu bacarığı. Bu model ana dilinin formal qorunmasını, paralel şəkildə rus dilinə sürətli inteqrasiyanı təmin edir. Beləliklə, milli identiklik keçid mərhələsi kimi saxlanılır, uzunmüddətli məqsəd isə rusdilli savadlanmadır.

Kosıyev özünün türk dilini bilmədiyini açıq etiraf edir, onun milli-filoloji mübahisələrdən kənar olduğunu, mövqeyinin texnokritik xarakter daşıdığını göstərir. Yazı məsələsi dil ailələri və mədəni yaxınlıq əsasında deyil, bilik əldə etmə effektivliyi əsasında dəyərləndirilir. Ərəb əlifbası çıxışda yararsız, elm və nəzəriyyə baxımından zəif kimi təqdim olunur – qərar ideoloji xarakter daşısa da, elmi zərurət kimi göstərilir. Maraqlı cəhət isə təcrübədə rus əlifbası müdafiə olunsa da, nəticə olaraq latın əlifbasının "daha asan bilik mənimsətdiyi"ni etiraf edir. Bu ziddiyyət göstərir ki, latın əlifbası ideal model kimi qəbul olunur, rus əlifbası isə mövcud siyasi-reallıq kompromisidir. O, yazını mədəni irs yox, instrumental vasitə kimi təqdim edir, milli travmaları praktiklik adı altında neytrallaşdırır, maarifləndirməni rusdilli bilik sisteminə inteqrasiya ilə eyniləşdirir. Əlbəttə, çıxış tarixi mənbə kimi çox dəyərlidir, lakin neytral dilçilik və ya pedaqoji mətn deyil, açıq şəkildə assimilyasiya yönümlü modernləşmə modelini əsaslandırır. Kosıyevin mətnində əlifba məsələsi üç mərhələli sxemlə təqdim olunur: köhnə yazı (yararsız) – rus əlifbası (praktik məcburiyyət) – latın əlifbası (ideal imkan). Bu, sovet əlifba siyasətində tez-tez rast gəlinən reallığı – idealizm gərginliyini aydın şəkildə əks etdirir.

***(ardı var)***

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

*2 Fevral Azərbaycan Gəncləri Günüdür*

# Yeni nəslin yolu yüksək zirvələrə yön alıb



**Hər il fevral ayının 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd edilir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu əlamətdar gün gənclərə bəslənən böyük ümidləri, onlara göstərilən dövlət qayğısını əks etdirir.**

Müasir Azərbaycan gəncliyi, vətənpərvərliyi, intellektual potensialı və yüksək zəkası ilə bu günün və sabahın aparıcı qüvvəsi sayılır. Rəqəmsal dövrün tələblərinə çevik cavab verən gənclərimiz milli dövlətçilik ənənələrini yaşadan çoxsaylı bir ordudur.

Ulu öndər Heydər Əliyevin 1997-ci il 2 fevral fərmanına əsasən, ölkəmizdə Gənclər Gününün dövlət səviyyəsində qeyd edilməsi gənclərə verilən dəyərin təzahürü sayılmaqla bərabər, həm də xalqın gələcəyə sarsılmaz inamını əks etdirir. Bu strateji kursu 20 ildən artıq müddətdə uğurla davam etdirən Prezident İlham Əliyev gənclərin potensialını "insan kapitalı"na çevirməyi əsas hədəf seçmişdir. Xaricdə nüfuzlu ali təhsil müəssisələrində oxuyan gənclər üçün yaradılan geniş imkanlar, perspektivli şəxslərin "Prezident mükafatı" ilə təltif edilməsi və "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın uğurlu icrası dövlətin gələcəyə ən böyük investisiyasıdır.

Gəncliyə göstərilən bu inamın və sistemli yanaşmanın ən parlaq nəticəsi 44 günlük Vətən müharibəsində özünü büruzə verdi. Məhz milli ruhda yetişmiş, vətənpərvər gənclərin qətiyyəti və Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşməsi tarixi Zəfəri təmin edən əsas amillərdən oldu. Bu gün Azərbaycan gəncliyi təkcə döyüş meydanında deyil, həm də elm, təhsil və beynəlxalq idman arenalarında ölkəmizi layiqincə təmsil edirlər.

***Məhz bu uğurlu gəncliyin bir neçə parlaq siması ilə həmsöhbət olub, onların qayğılarını, gələcək hədəflərini dinlədik.***

**Ramil TAĞIYEV,**
**"SnackPack" startap layihəsinin təsisçisi və direktoru:**

– Son illər Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti konkret mexanizmlər və real nəticələrlə özünü göstərir. Gənclərin təşəbbüslərinə yaradılan imkan-



lar, innovativ layihələrə verilən dəstək və beynəlxalq platformalara çıxışın təşviqi bu siyasətin əsas istiqamətlərindəndir. Dövlətin məqsədi gəncləri yalnız müşahidəçi deyil, proseslərin fəal iştirakçısına çevirməkdir. Məhz bu yanaşma gənclərin ideyalarının reallaşmasına, onların qlobal mühitdə rəqabət aparmasına və ölkəni layiqincə təmsil etməsinə şərait yaradır.

Mən kompüter elmləri ixtisası üzrə bakalavr təhsili almışam. Universitet illərimin əvvəlindən startap ekosisteminə maraq göstərməyə başladım və gənclərin ideyalarını real biznes layihələrinə çevirməsinə kömək edən proqramda – "SABAH HUB"da yeni açılan seminar və təlim proqramlarında aktiv iştirak etdim. Bu proqramlar çərçivəsində bizə startap ideyalarının formalaşdırılması, biznes modeli qurulması və layihələrin inkişafı ilə bağlı praktiki biliklər ötürülürdü.

Həmin ilin sentyabr ayında "SnackPack" adlı startap layihəsini təsis etdim. "SnackPack" fərqli məkanların müəyyən saatlarda endirimli yeməklər təklif etdiyi mobil tətbiqdir. Bu model həm qida israfının azaldılmasına xidmət edir, həm də restoran və kafe məkanlara yeni müştərilər qazanmaq imkanı verir.

Şirkətdə əsas məsuliyyətlərim strateji inkişafın planlaşdırılması, məhsulun formalaşdırılması, komandanın idarə olunması və texnoloji proseslərə nəzarətdir.

Layihənin inkişaf mərhələsi müxtəlif qurumların dəstəyi ilə daha da irəlilədi. Heydər Əliyev Fondu və Regional İnkişaf İctimai Birliyi layihəyə qrant ayırdı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi isə həm maliyyə dəstəyi verdi, həm də startap şəhadətnaməsi təqdim etdi. Eləcə də ICESCO və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin birgə təşkil etdiyi startap müsabiqəsində layihə qalib seçilərək mükafatlandırıldı. Layihənin final mərhələsi Şuşa şəhərində keçirildi və eyni zamanda, COP29 çərçivəsində "SnackPack" layihəsi beynəlxalq qonaqlara təqdim edildi. Regionun əsas startap innovasiya tədbiri olan "Baku ID" innovasiya festivalı" tədbirində layihəmiz "2025-ci ilin Yaşıl Texnologiya startapı" seçilib. Layihə PAŞA Holding, İnkişaf və Rəqabətlilik Agentliyi (İRİA) və SABAH HUB tərəfindən təşkil olunan tədbirdə təqdim olunub və Estoniyanın məşhur akselerasiya proqramının məzunu kimi uğurla tanınıb.

Son nailiyyətlərimizdən biri isə ötən ilin dekabr ayında Özbəkistanda keçirilən "Digital Startup Awards" proqramının qalibi olmağımızdır. Proqrama təxminən 300-ə yaxın komanda müraciət edib və bir neçə ölkədən cəmi 15 qalib seçilib. Bu cür beynəlxalq səviyyəli proqramda qalib olmaq bizim üçün böyük qürur və motivasiya mənbəyidir. Eyni zamanda, əldə etdiyim təcrübəni gənclərlə bölüşməyi də vacib hesab edirəm. 2025-ci ilin dekabr ayında Gənclər və İdman Nazirliyinin dəvəti ilə Mingəçevir şəhərində startap təlimçi qismində çıxış edərək 30 nəfər gənc üçün startaplara giriş mövzusunda praktiki seminar keçirmişəm. Bu cür görüşlərdə gənclərin ideyalarını reallaşdırmaq üçün düzgün istiqamətləndirilməsinin böyük önəm daşıdığına inanıram.

**Məhəmməd MƏMMƏDOV,**
**fotojurnalist:**

– Azərbaycan Dövlət İqtisad Universitetinin rəqəmsal iqtisadiyyat fakültəsinin məzunuyam. Təhsil aldığım ixtisas hazırda fəaliyyət göstərdiyim sahədən fərqlənsə də, universitet illərində qazandığım təcrübələr peşə fəaliyyətimdə informasiyanın sistemli təhlili, rəqəmsal mühitdə işləmə və qərarvermə bacarıqları formalaşdırıb ki, hər biri işimə daha məqsədyönlü, məsuliyyətli və strateji yanaşma imkanı yaradıb.

Fəaliyyət göstərdiyim sahəyə sevgim idmanın cəmiyyətə olan misilsiz təsir gücünü vizual dil vasitəsilə daha geniş auditoriyaya çatdırmaq istəyindən yaranıb. Bir fotojurnalist olaraq əsas məramım baş verən həlledici, dramatik və emosional anları obyektivimlə beynəlxalq informasiya dövriyyəsinə çıxarmaqdır. İnanıram ki, uğurlu fotojurnalistin obyektivi minlərlə insanın hisslərini, mübarizə əzmini və qələbə sevincini dünyaya bəyan edən ən güclü kommunikasiya vasitəsi ola bilər.



22 yaşlı bir gənc olaraq fəaliyyətimi həm də beynəlxalq arenalarda inamla davam etdirirəm. Hazırda Qarabağ FK, Azərbaycan Medianın İnkişafı Agentliyi (MEDİA) və Azərbaycan Yelkən Federasiyası kimi strateji səmərəli əməkdaşlıq edirəm. Qardaş ölkə Türkiyədə də çəkdiyim futbol qarşılaşmaları gündəm formalaşdırmış və media qurumlarında haqqımda materiallar dərc olunmuşdur.

Əsas məqsədim Azərbaycanı qlobal informasiya məkanında ləyaqətlə təmsil etmək və ölkəmizin dinamik inkişafına kiçik də olsa töhfə verməkdir.

Lakin peşəkar fəaliyyətimdə ən çox qürur duyduğum anlardan biri Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin təsdiqi olan Xankəndi şəhərində keçirilən futbol qarşılaşması oldu. Həmin gün çəkdiyim fotoların dünyanın ən nüfuzlu futbol turnirlərindən biri hesab olunan UEFA Avropa Liqasının rəsmi səhifələrində paylaşılması, mənim üçün qürur mənbəyi olmaqla yanaşı, gənc fotojurnalistlərin beynəlxalq arenada nə qədər yüksək səviyyədə təmsil oluna biləcəyini göstərən nümunədir. Hədəfim bu il UEFA Çempionlar Liqasının və Avropa Liqasının final qarşılaşmalarını, eləcə də Avropanın aparıcı klublarının oyunlarını çəkərək qlobal auditoriyaya təqdim etməkdir.

Biz gənclər üzləşdiyimiz çətinliklərə təslim olmuruq, çalışırıq, hər uğursuzluqdan bir dərs çıxarırıq və ən əsası səbir edərək öz yolumuzu açmağa davam edirik. Çünki bilirik ki, bugünkü çətinliklər sabahkı daha böyük zəfərlərin təməlidir.

**Aydan ƏHMƏDZADƏ,**
**tələbə:**

– Mənim üçün Gənclər Günü millətimizin gəncliyə bəslədiyi dərin ümid hissinin, inam və etimadının rəmzidir. Bu gün bizlərin yaradıcılıq potensialının, təşəbbüskarlığının və dövlətimizin davamlı inkişafında oynadığı mühüm rolun təzahürüdür.

Müasir dövrdə bizlər elmin, texnologiyanın, innovasiyanın və yaradıcılığın əsas



daşıyıcılarıyıq. Bizim yeni ideyalara açıq olmağımız, dəyişən dünyaya çevik uyğunlaşmağımız ölkənin inkişaf tempini müəyyən edən əsas amillərdəndir. Dövlətimizin gənclərə yönəlik siyasəti, yaradılan təhsil və inkişaf imkanları da bu etimadın real ifadəsidir. Bu gün bizlərin qarşısında duran əsas vəzifə əldə etdiyimiz bilikləri real nəticəyə çevirmək, ölkənin sosial, iqtisadi və mədəni həyatında fəal iştirak etməkdir.

İxtisasım kompüter mühəndisliyidir. Bu sahəyə olan marağım robototexnika ilə formalaşıb. Robototexnika ilə məşğul olmaq mənə sistemli düşünmə, problemin kökünə enmə və real həll yolları tapmağı öyrədib. Arduino layihələri vasitəsilə mühəndisliklə fizika arasındakı sıx əlaqəni daha dərindən anlamağa başladım, nəzəri biliklərin praktik tətbiqini real layihələr üzərində görmək imkanım yarandı.

Zaman keçdikcə kompüter mühəndisliyi sahəsində diqqətimi ən çox cəlb edən istiqamət data analitika və onun süni intellektlə inteqrasiyası oldu. Məlumatların toplanması, emalı və düzgün analizinin müasir dünyada qərarvermə proseslərinə necə təsir göstərdiyini araşdırmaq mənim üçün xüsusi maraq kəsb edir. Hesab edirəm ki, data analitika və süni intellektin sintezi gələcəkdə bir çox sahənin inkişaf istiqamətini müəyyən edəcək əsas faktorlar sırasındadır.

İnformasiyanın düzgün şəkildə emal olunaraq real problemlərin həllində istifadə edilməsi və doğru nəticələrin çıxarılmasında oynadığı rol mənim üçün əvəzsizdir. Müasir dövrdə məlumat düzgün analiz olunduqda qərarvermə mexanizmlərinin əsasını təşkil edən güclü vasitəyə çevrilir. Məhz bu səbəbdən data analitikası üzrə ixtisaslaşmaq istəyirəm. Bu sahə vasitəsilə toplanmış məlumatları sistemləşdirmək, onları mənalı nəticələrə çevirmək və real problemlərin həllinə tətbiq etmək imkanlarının məni daha çox cəlb etdiyini düşünürəm.

Yaşıdlarıma tövsiyəm isə ondan ibarətdir ki, öz maraq dairələrini heç vaxt gözardı etməsinlər. Sevdikləri və özlərini inkişaf etdirə biləcəkləri istiqaməti seçərək bu sahə üzrə etibarlı və güvənə biləcəkləri bir təhsil ocağına müraciət etsinlər. Bununla yanaşı, müstəqil öyrənmənin əhəmiyyətini unutmasınlar, çünki yalnız auditoriya bilikləri ilə kifayətlənmək müasir dünyada kifayət etmir. Gənclər boş zamanlarını məqsədyönlü şəkildə dəyərləndirməyə, oxumağa, araşdırmağa və yeni bacarıqlar əldə etməyə çalışmalıdırlar. İnanıram ki, maraq, davamlı öyrənmə və düzgün istiqamət seçimi uğura aparan əsas amillərdir.

**Rəvanə GÜLNƏZƏROVA,**
**tələbə:**

– Gənclər günü gənclərin cəmiyyətdəki rolunun və gələcəyin formalaşmasında daşıdığı məsuliyyətin ön plana çıxdığı əlamətdar tarixlərdəndir. Bu gün bir daha göstərir ki, gənclər ölkənin gələcəyidir, onların bilik, bacarıq və dünyagörüşünün inkişafı bütövlükdə cəmiyyətin inkişafı deməkdir. İstərdim ki, hər kəs bu ölkədə gənclərin müsbət yöndə formalaşmasına, öz potensialını reallaşdırmasına töhfə versin.

Mən hazırda sənaye mühəndisliyi ixtisasını daha dərindən öyrənməyə xüsusi maraq və həvəs göstərirəm. Məqsədim yalnız nəzəri biliklərlə kifayətlənməmək, eyni zamanda, bu bilikləri praktikada tətbiq edə biləcək səviyyəyə çatmaqdır.

Gənclərin inkişafı təkcə təhsillə məhdudlaşmır. Asudə vaxtın səmərəli təşkili, intellektual və yaradıcılıq fəaliyyətləri də şəxsi inkişafın ayrılmaz hissəsidir. Gitara çalmaq da mənim üçün gündəlik dərs və



düşüncə yükündən uzaqlaşıb beynimi rahatlatmaq, ruhumu dinləmək üçün ən təsirli vasitələrdəndir. Musiqi daxili balansı qorumağıma, emosional rahatlıq tapmağıma kömək edir. Digər hobbim olan şahmat isə düşüncə tərzimin formalaşmasında xüsusi yer tutur.

***Gənclər Günü ərəfəsində yeni nəslin təmsilçilərinin açıqlamaları bir daha göstərir ki, onlar düşünən, araşdıran, öz üzərində çalışan və cəmiyyət üçün dəyər yaradan insanlardır. Onlara yaradılan imkanlar, onların potensialının düzgün istiqamətləndirilməsi ölkənin sabahı üçün atılan ən möhkəm addımdır.***

***Dövlətin həyata keçirdiyi gənclər siyasəti isə onların təşəbbüslərini üzə çıxarmağa, ideyalarını real layihələrə çevirməyə və beynəlxalq müstəvidə tanınmasına zəmin yaradır.***

*Hazırladılar:*
***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ,***
***Elenora HƏSƏNOVA***
***XQ***

*Umud Rəhimoğlu – 65*

# Azərbaycanı sevən və sevdirən qələm sahibi

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu Mirzəyevi Azərbaycan ictimaiyyəti kifayət qədər yaxşı tanıyır. O həm ölkə daxilində müxtəlif sahələrdəki peşəkar və önəmli fəaliyyəti ilə fərqlənir, həm də rəhbərlik etdiyi təşkilat ölkə hüdudlarından kənarda, ayrı-ayrı beynəlxalq qurumlarda layiqincə təmsil olunur.**

Mənim Umud müəllimlə tanışlığımın tarixi ötən əsrin 80-ci illərinə gedib çıxır. O, Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirib yenicə Bakıya dönmüşdü, "Ədəbiyyat və incəsənət" qəzetində çalışır, eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin ictimai işlərində yaxından iştirak edirdi. Gənc Umud Rəhimoğlu gənclik illərindən gözəl şeirlər müəllifi idi. O, çalışdığı qəzetdə vaxtaşırı maraqlı məqalələrlə çıxış edirdi.

Sonrakı illərdə Qarabağ hadisələrinin başlanması Umud müəllimin fəaliyyətində ictimai çəkini artırdı. Torpaqlarımızın işğalda olduğu dönəmlərdə fəaliyyətinin əsas hissəsini Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması kimi məsul və gərəkli işə həsr etdi. Bununla yanaşı, biz onu Azərbaycanda və xarici ölkələrdə istər ədəbiyyat, istərsə də mətbuatla bağlı tədbirlərdə də hər zaman ön sıralarda görürdük. Yorulmaq bilmədən çalışan, daima hərəkətdə olan Umud müəllimdən söz düşəndə mən onun tükənməz enerjisini və dopdolu Vətən sevgisini həmişə önə çəkmişəm.

Ötən əsrin 80-ci illərində – Qarabağ hadisələrinin təzəcə başladığı dönəmlərdə şair Çingiz Əlioğlu, tənqidçi Nadir Cabbarov, Umud Rəhimoğlu və mən Füzuliyə getmişdik. O vaxt gənc şair dostumuz Əbülfət Mədətoğlunun doğma Tuğ kəndində də olduq. Yadımdadır, Tuğda rus əsgərləri var idi və onlar kəndə, guya münaqişə yaranmasın deyə, yerləşdirilmişdi.

Hadisələrin qaynar vaxtlarında Umud müəllim tez-tez Füzuliyə, Qarabağa səfərlər edirdi. Özü də çox zaman bu səfərlərində tək olmurdu, Moskvada birgə təhsil aldığı dostlarını, tanıdığı xarici jurnalistləri ölkəmizə dəvət edir, bu yolla Azərbaycan həqiqətlərinin dünyada daha geniş miqyasda yayılmasına çalışırdı.

Sonrakı illərdə Umud müəllim media sahəsində və qeyri-hökumət təşkilatları sektorunda böyük uğurlar qazandı. Mətbuat Şurası İdarə Heyətinin üzvü, müəyyən dönəm isə sədr müavini kimi fəaliyyətini çox yüksək qiymətləndirirəm. Mətbuat Şurasına şikayətlərin çox olduğu zamanlarda Umud müəllimin təmkinli münasibəti, tərəfləri barışdırmaq niyyəti, lazım olanda isə kəskin şəkildə həqiqətin tərəfdarı kimi çıxış etməsini indi də yaxşı xatırlayıram. Mətbuat Şurası İdarə Heyətinin üzvü olan Umud müəllim bu gün də media ilə bağlı məsələlərdə fəal iştirak edir.

Dediyim kimi, Umud müəllim Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Burada da həm Birliyin işlərində, həm də birlik üzvü olan qələm adamlarının müxtəlif tədbirlərində daima öndədir. Onun həmkarlarına həssas və qayğıkeş münasibəti diqqətəlayiq və əvəzolunmazdır.

Umud Mirzəyevin 1992-ci ildə yaratdığı Beynəlxalq Avrasiya Mətbuat Fondu artıq olduqca nüfuzlu bir təşkilata çevrilib. Fondun tanınmış şəxslərin təmsil olunduğu çox sanballı Himayəçilik Şurası da fəaliyyət göstərir. Müxtəlifyönlü fəaliyyəti ilə seçilən qurum beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsi sahəsində böyük uğurlara imza atıb və atmaqda davam edir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun iştirakı və təşəbbüsü ilə bu gün müxtəlif mövzularda, xüsusilə Azərbaycanın tarixi reallıqlarının dünyaya çatdırılması məqsədilə BMT-nin Cenevrə, Nyu-York, Vyana ofislərində və digər nüfuzlu beynəlxalq auditoriyalarda mütəmadi olaraq silsilə tədbirlər, paralel sessiyalar keçirilir. Mina qurbanlarına və mina təhlükəsi nəticəsində öz yurdundan didərgin düşmüş insanlara dəstəyin göstərilməsi, səfirlərin, xarici diplomatların, jurnalistlərin və tələbələrin müharibədən zərər çəkmiş və işğaldan azad olunmuş regionlara səfərlərinin təşkili, eləcə də bir çox digər sosial-humanitar layihələrin icrası Fondun fəaliyyətində prioritet istiqamətlərdəndir.

Beynəlxalq Avrasiya Mətbuat Fondu bu gün BMT-nin ayrı-ayrı qurumları, Avropa Komissiyası, Amerikanın Dövlət Departamenti, Dünya Bankı, Qaçqınlar və Sığınacaq Axtaranlar üzrə Avropa Şurası, Beynəlxalq Mətbuat İnstitutu, Beynəlxalq Sülh Bürosu, Beynəlxalq Jurnalistlər Federasiyası kimi beynəlxalq nüfuzlu təşkilatlarla, bir sıra xarici ölkələrin Azərbaycandakı səfirlikləri, nazirliklər, agentliklər, eləcə də regiondakı yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində genişmiqyaslı fəaliyyət göstərir.

Təbii ki, bütün bu sadalanan çoxşaxəli fəaliyyətin arxasında Umud müəllimin fədakarlığı, yorulmazlığı, peşəkarlığı və bitib-tükənməyən Vətən sevgisi dayanır. Umud müəllim son illər fərqli sahələrdə çalışan və dünyada tanınan adlı-sanlı neçə-neçə insanın Azərbaycana səfərlərinin təşəbbüskarı və təşkilatçısı olub. Bu səfərlər Azərbaycanla bağlı həqiqətlərin dünyaya çatdırılması baxımından olduqca vacib və gərəklidir.

Dünyaca məşhur Nobel sülh mükafatçısı Məhəmməd Yunusun ilk dəfə Bakıya səfəri bilavasitə Umud müəllimin onunla şəxsi münasibətləri zəminində gerçəkləşmişdi. Sonradan Məhəmməd Yunusun ölkəmizə səfərləri mütəmadi xarakter aldı və hesab edirəm ki, bu faktın özü ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsi baxımından Umud müəllimin önəmli təşəbbüslərindən biri kimi dəyərləndirilə bilər.

Yaxud da sözə qüvvət, başqa bir məqam. 2023-cü il idi, Azərbaycanın yaxın dostu, "Sülhün Kökləri" (Roots of Peace) təşkilatının təsisçisi və rəhbəri, Dünya Ərzaq Mükafatı laureatı Heidi Kühn Beynəlxalq Avrasiya Mətbuat Fondunun dəvəti ilə Bakıya gəlmişdi. Mərhum millət vəkilimiz Qənirə xanım Paşayeva ilə birlikdə həmin tədbirdə iştirak edirdik. Nobellərin evində keçirilən tədbirdə



Heidi Kühn onlayn şəkildə canlı yayıma qoşulacaq və ona Beynəlxalq Ərzaq mükafatı təqdim olunacaqdı.

ABŞ-ın ovaxtkı dövlət katibi Antoni Blinken təqdimat mərasimindəki çıxışında xanım Heidi Kühnün hazırda Azərbaycanda olduğunu və bu səbəbdən tədbirdə iştirak edə bilmədiyini xüsusi vurğulamışdı. O mərasimin iştirakçıları kimi biz beynəlxalq səviyyədə tanınan və qəbul edilən Heidi Kühn kimi yüksək səviyyəli bir şəxsin Umud müəllimin qonağı olmasından qürur duymuşduq.

Məqamı düşmüşkən, bu günlərdə Umud Mirzəyevin xanım Heidi Kühn və onun rəhbərlik etdiyi qurumla çıx əməkdaşlığını əks etdirən başqa bir xəbər də aldıq. Sentyabr ayının sonlarında ABŞ-də – dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin uzun illər çalışdığı və fəxri professor olduğu nüfuzlu Berkli Kaliforniya Universitetində xanım Heidi Kühnün təşəbbüsü ilə "Münaqişədən sonrakı inkişaf araşdırmaları üzrə Kühn Təşəbbüsü" mərkəzi yaradıldı və tədbirdə iştirak edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev yeni yaradılan mərkəzin Xarici Müşavirlər şurasına üzv seçildi.

Əlbəttə, bütün bu sadaladıqlarım hər birimiz üçün sevindirici və qürurvericidir. Umud müəllim dünyaca məşhur belə insanları ölkəmizə cəlb etməklə, onlarla əməkdaşlıq əlaqələrini müntəzəm genişləndirməklə ölkəmiz adına əhəmiyyətli və yüksək xidmətlər göstərir. Onun Qətərin Əl-Cəzirə televiziyası ilə əməkdaşlığı, bu televiziyanın əməkdaşlarının dəfələrlə Azərbaycana səfərlərini təşkil etməsi və ölkəmizə həsr olunan verilişlərin hazırlanması Umud müəllimin gördüyü çoxsaylı işlərin növbəti önəmli nümunəsidir.

Vətəni, ölkəsi üçün faydalı və gərəkli işlər görməyə təşnə dostumuz və həmkarımız Umud müəllim çoxistiqamətli fəaliyyətini bu gün də yorulmadan davam etdirir. Torpaqlarımız işğaldan azad olunandan sonra mən onun tədbirlərə daha böyük şövqlə, həvəslə qatıldığını görür və bu bol enerjinin hələ uzun illərin səmərəli fəaliyyətinə yetəcəyinə inanıram.

***Rəşad MƏCİD,***
***Azərbaycan Mətbuat Şurasının sədri,***
***"525-ci qəzet"in baş redaktoru***

*Araz Dadaşzadə – 90*

# Ədəbi irsimizin unudulmaz tədqiqatçısı

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda tanınmış ədəbiyyatşünas Araz Dadaşzadənin 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib.**



AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli məclisi giriş sözü ilə açaraq bildirib ki, unudulmaz elm xadimi Araz Dadaşzadənin ötən əsrin 70–90-cı illərində apardığı tədqiqatlar, xüsusilə Molla Pənah Vaqifə, Qarabağ ədəbi mühitinə, onun görkəmli simalarına həsr etdiyi elmi əsərlər bu gün də milli ədəbi irsin öyrənilməsində dəyərli mənbələr sırasında önəmini qoruyub saxlayır.



Akademik qeyd edib ki, Araz Dadaşzadənin Molla Pənah Vaqifin həyatı və yaradıcılığı haqqında ərsəyə gətirdiyi əsər klassik poeziyamızın ilkin islahatçısı haqqında qiymətli monoqrafik tədqiqatlardan biridir. Alimin "XVIII əsr Azərbaycan lirikası" adlı kitabı ölkəmizdə bir epoxanın ədəbiyyatına həsr olunmuş ilk ümumiləşmiş tədqiqat, həmin dövrün yaradıcı adamlarına kompleks yanaşma nümunəsidir. Araz Dadaşzadə Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru kimi məsul vəzifəyə qədər elmi yüksəliş yolu keçib və ədəbiyyatşünaslığımızda olduğu kimi, ensiklopediya nəşri sahəsində də samballı xidmət göstərib.

Elmi sessiyanın davamında filologiya elmləri doktorları Vaqif Yusifli və Cavanşir Yusifli, yubilyarın övladları – filologiya üzrə elmlər doktoru Zümrüd Dadaşzadə və fəlsəfə doktoru Aqşin Dadaşzadə həmçinin, digər çıxış edənlər unudulmaz alimin elmi-mədəni aləmdə qazandığı uğurlardan və yüksək ziyalılığından söhbət açıblar.

Alimin həyat və elmi fəaliyyətindən bəhs edən videoçarx onun yaradıcılıq yoluna işıq salıb.

***Qabil ƏLİYEV***
***XQ***



# Fədakar media qurucusu, yurdsevər ziyalı

**Dünən Azərbaycan Mətbuat Şurasında Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Əməkdar mədəniyyət işçisi, Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Rəhimoğlunun anadan olmasının 65 illik yubileyinə həsr olunmuş toplantı keçirilib.**

Şura sədri Rəşad Məcid qeyd etdi ki, Umud Rəhimoğlu həyatını Azərbaycan naminə əməli fəaliyyətə həsr etmiş istedadlı həmkar, bacarıqlı təşkilatçı və dərin mənəvi keyfiyyətləri özündə birləşdirən ziyalı, xeyirxahlıq, fədakarlıq və zəhmətkeşlik nümunəsidir. Qurucusu və rəhbəri olduğu mətbuat fondu onun nümunəvi obrazının geniş platformasına çevrilmiş təşkilatdır. Bu təşkilat BMT-nin İqtisadi-Sosial Şurasının ən yüksək statuslu üzvüdür.

Bildirildi ki, Umud müəllimin təbiətindən irəli gələn dərin keyfiyyətlər ən çətin dövrlərdə - torpaqlarımızın işğal altında olduğu dönəmlərdə təşkilatı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, bir növ, mayaka çevirdi. BAMF xarici media nümayəndələrinin cəbhə xəttinə yaxın ərazilərimizə yüzdən artıq səfərini reallaşdırdı, Ermənistanın törətdiyi insanlıq əleyhinə cinayətlərlə bağlı obyektiv məlumatların beynəlxalq aləmə çatdırılması istiqamətində müstəsna xidmətlər göstərdi.

BAMF sədri Azərbaycanın beynəlxalq media müstəvisindəki əməkdaşlığının qurulmasına da mühüm töhfələr verib. Umud Rəhimoğlu dünyanın tanınmış media qurumlarını özündə birləşdirən Beynəlxalq Mətbuat İnstitutunun İdarə Heyətinin, Nobel Sülh Mükafatı laureatı olan Beynəlxaq Sülh Bürosunun Ali Şurasının üzvü və qurumun 18 Qərbi Asiya ölkəsi üzrə nümayəndəsi kimi də Azərbaycan naminə çalışıb, ölkəmizin təbliği istiqamətində çoxsaylı təşəbbüslər irəli sürüb və reallaşdırıb.

Mərasimdə yubilyarın ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşmasındakı və inkişafındakı xidmətlərinin də müstəsna əhəmiyyət daşıdığı vurğulandı. Qeyd edildi ki, onun rəhbərlik etdiyi qurumun Qarabağ münaqişəsi ilə bağlı 10-dan çox bəyanatı BMT-nin rəsmi səhifəsində dərc edilmiş, Nyu York, Cenevrə ofislərində Azərbaycan həqiqətləri ilə bağlı paralel sessiyalar, tədbirlər keçirilmiş, çoxsaylı nəşrlər, müraciətlər hazırlanmışdır. Həmkarımız Vətən müharibəsi dövründə Tərtər, Bərdə, Gəncə, Ağdam, Goranboy, Füzuli istiqamətindəki ən qaynar nöqtələrdən 40-dan çox televiziya reportajını və 100-dən çox canlı yayımı dünyaya təqdim edən "Əl-Cəzirə" telekanalını Azərbaycana dəvət və müşayiət etmişdir.



Yubilyarı ölkənin media ictimaiyyəti adından səmimi təbrik edən Rəşad Məcid qeyd edilən çoxşaxəli xidmətlərinə görə və anadan olmasının 65 illiyi münasibətilə Umud Rəhimoğluya Azərbaycan Mətbuat Şurasının diplomunu təqdim etdi.

Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri, Azərbaycan Dövlət İnformasiya Agentliyi İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov Umud Rəhimoğlunun ölkəmizdə fədakarlığı və istedadı ilə seçilən media xadimi olduğunu, xaricdə də layiqincə tanındığını söylədi.

Yubilyarı fəal media qurucusu, mötəbər qələm sahibi, gözəl dost, qayğıkeş və həssas ailə başçısı kimi səciyyələndirən, "Xalq qəzeti"nin baş redaktoru, MŞ İdarə Heyətinin üzvü Əflatun Amaşov onun həm də incə ruhlu bir şair olduğunu diqqətə çatdırdı. Mədəniyyət nazirinin müşaviri, yazıçı-publisist Orxan Fikrətoğlu bildirdi ki, çoxillik dostu Umud müəllim vətənpərvər ziyalı və Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdıran nüfuzlu söz sahibidir.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirdi ki, yubilyar peşəkarlıqla şəxsi düşüncəni məharətlə birləşdirməyi bacaran, çoxşaxəli fəaliyyət diapazonu ilə seçilən bir ziyalıdır. Türkiyənin Azərbaycandakı Səfirliyinin media müşaviri Alptəkin Cihangir İşbilir Umud Rəhimoğlunun fəaliyyətinin xalq diplomatiyasının bariz örnəyi, sülhyaratma missiyası olduğunu vurğuladı. Medianın İnkişafı Agentliyi icraçı direktorunun müavini Natiq Məmmədli isə Umud müəllimin yaratdığı BAMF-ın ciddi jurnalistika məktəbi, gənc jurnalistlərin himayədarı olduğunu xatırlatdı.






Milli Məclisin jurnalist deputatları Vüqar Rəhimzadə, Hikmət Babaoğlu, Elçin Mirzəbəyli yubilyar həmkarlarının şəxsiyyətinin və xidmətlərinin ölkənin rəhbər qurumlarında da layiqincə dəyərləndirildiyini dedilər və onu səmimi təbrik etdilər.

BDU jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu və kafedra müdiri Cahangir Məmmədli, şair-publisistlər Vaqif Bəhmənli, Rəhilə Gülgün və Gülşən Behbud, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu, İTV telekanalının departament rəhbəri Anar Yusifoğlu, "Bizimyol.info" saytının baş redaktoru Bahəddin Həziyev, MŞ-nin Nəzarət-Təftiş Komissiyasının sədri Rey Kərimoğlu, "Baku Network" Ekspert Platformasının direktoru Elçin Alıoğlu, "Türküstan" qəzetinin baş redaktoru Aqil Camal, yubilyarın oğlu, QHT təmsilçisi Oğuz Mirzə və digər çıxış edənlər də Umud Rəhimoğlunun kamil vətəndaşlıq nümunəsi olan şəxsiyyətini, Vətənə sözü ilə xidmət örnəyini incələdilər, ona xoş arzularını çatdırdılar.

Sonda çıxış edən Umud Rəhimoğlu səmimi təbrik və qədirbilənliyə görə iştirakçılara təşəkkürünü bildirdi, verilən dəyərin onu bundan sonra da səmərəli fəaliyyətini davam etdirməyə ruhlandırdığını söylədi.

Mərasimdə yubilyara həsr edilmiş yazı və təbriklərin toplandığı "Təmənnasız missiya" kitabı iştirakçılara hədiyyə edildi.

***Tahir RÜSTƏMLİ***
***XQ***

# Krım xanlığının yüksəlişi və süqutu

## *Avropanın incisi, "dumanlı və qəmgin ölkə"*

**Hələ qədim zamanlardan "Avropanın incisi" kimi tanınan Krım yarımadası fərqli xalqların, bir çox dəniz və quru yollarının, dövlətlərin və dinlərin təmas nöqtəsi olub. Qədim ellinlər Krımı "dumanlı və qəmgin ölkə" də adlandırıblar. Mədəni müxtəlifliyi, həmçinin nadir coğrafi mövqeyi qədim zamanlardan bu yana Krımı əhəmiyyətli bir məkana çevirib.**



*Krım xanlığının gerbi*

Tarixçilərin iddiasına görə, Krım öz adını türk mənşəli "qırım" sözündən götürüb ki, bu da qədim türk dillərində xəndək, arx mənasını verir.

Krım yarımadası qədim yunanlar, Xəzər Xaqanlığı, Avropa Hun İmperatorluğu, Roma imperiyası, Bizans imperiyası, Qızıl Orda, Osmanlı imperiyası və Rusiya kimi müxtəlif sivilizasiyaların hökmranlığı altında olub, əzilib, sərvətləri talanıb, zəngin şəhərləri qarət edilib, əhalisi təhqir olunub. Bütün bunlar Krımın sakinləri olan türklərin qəddini əyməyib, onlar zaman-zaman öz torpaqları uğrunda mübarizə aparıblar.

XI əsrdə Krım qıpçaqlarının paytaxtı o dövrün ən böyük ticarət limanlarından olan Sudaq şəhəri idi. Bu şəhər barəsində ərəb əsilli İslam tarixçisi İbn əl-Əsir yazırdı: "Qıpçaqların bu şəhərinə yan alan gəmilər müxtəlif libaslar gətirib satır, sonra isə o pula kölələr və bu torpaqlarda bol olan burtas xəzləri alıb aparırlar".

Qıpçaqların Krımdakı hökmranlıqları zamanı həm də ümumtürk mənəvi dəyərləri inkişaf edib. O dövrdə Krımda "Leyli və Məcnun", "Yusif və Züleyxa" əsərləri məşhur idi, qıpçaqlar Türk dünyasının bu və digər məşhur əsərlərini oxuyur və yayırdılar. 1303-cü ildə Krımda qıpçaq və ya kuman dilinin ən məşhur yazılı abidəsi olan, "tatar dili" adlanan qıpçaq dilində "Codex Cumanicus" yaradılır. Bu, Krım tatar dilindəki ən qədim abidədir, Qara dəniz əraziləri və Krım qıpçaqları ilə birbaşa əlaqəli olduqları üçün qıpçaq və oğuz ləhcələrinin müqayisəsi üçün böyük əhəmiyyət kəsb edir.

"Codex Cumanicus" lüğəti Krımdakı qıpçaq mədəniyyətinin şah əsərlərindən hesab edilir. O da məlumdur ki, türkoloqların əksəriyyəti Krım türklərinin yazılı ədəbi dilinin kuman qıpçaqlarının dili əsasında formalaşdığını vurğulayırlar.

XVII-XVIII əsrlərdə Krım ağır iqtisadi-siyasi vəziyyəti ilə "Avropanın incisi"nin etnik mədəniyyətinə böyük zərbə vursa da Krım türkləri öz mədəniyyətlərini inkişaf etdirə biliblər.

XVIII əsrdə Krımda onlarla kitabxana və kitab evi fəaliyyət göstərib, ədəbiyyat və memarlıq inkişaf yolu tutub, xalq məktəbləri yaranıb.

1747-ci ildə tikilmiş II Səlim Gəray fəvvarəsi Krım xanlığı mühəndisliyinin şah əsərlərindən biri hesab olunur və bu gün də insanları təəccübləndirir. Fəvvarə suyun mənbəyinə qədər 20 metrdən çox uzanan yeraltı daş tuneldə yerləşdirilən kiçik keramik borulardan ibarət olub və Baxçasaraydakı ən yaxşı su mənbələrindən biri sayılıb.

Gəray xan Krım incəsənətini və memarlığını dəstəkləyən xanlardan biri olub. Xan 1764-cü ildə Ömər adlı ustaya Baxçasaray mərmər fəvvarəsi tikməyi sifariş edir. Baxçasaray fəvvarəsi və ya Göz yaşları fəvvarəsi adlandırılan bu abidə Gəray xanın gənc polyak qızı olan xanımına sevgisinin və onun erkən ölümündən sonrakı kədərinin təcəssümü kimi tanınır. Müharibədə cəsarətli və döyüşkən olan Gəray xan polyak qızının dünyadan köçməsini böyük kədər hissi ilə qarşılayıb, qəm-qüssəyə düçar olub. Məhz buna görə də Gəray xan polyak qızının şərəfinnə əbədi olaraq ağlayan fəvvarə tikdirib.

XVII-XVIII əsrlərdə Krım mədəniyyəti tarixində İslam dininin özünəməxsus rolu danılmazdır. Krımda mövcud məscidlər fəaliyyətini genişləndirir, yeni məscidlər və mədrəsələr tikilirdi. Məscid və mədrəsələr Səmərqənd və Buxara kimi İslam mərkəzləri ilə əməkdaşlıq edir, Türküstandan Krıma alim və müəllimlər dəvət edilirdi.

### Krım qədim və orta əsrlərdə

Tarix boyu Krım müxtəlif xalqlar tərəfindən idarə olunub, e.ə. VI - V əsrlərdə əraziyə türk mənşəli skiflər və sarmatlar hakim olub. Daha sonra yunan Pantom çarlığının təsirinə düşən Krım yenidən skiflərin əlinə keçir.

Kimmerlər bu yarımadanı e. ə. VII əsrdə ilhaq edib, kimmerlərdən sonra skiflər Krımı alıb. Yerli kimmerlər sonralar dağlara köçürülərək təcrid olunublar.

E.ə. V əsrdə yunanlar burada ilk koloniyalarını salıb. Sonralar burada Ellini Bosporus dövləti əmələ gəlib. Dövlət Roma imperiyasının tabeliyində olub, eramızın III əsrində qotlar Krım üzərindəki skif hakimiyyətinə son qoyub. Qısa müddətdən sonra yarımada Asiyadan Avropaya yürüş edən hunların nəzarətinə keçib, VI əsrdə yarımada Bizans tərəfindən işğal olunub.

Sonralar qotlar, hunlar, bulqarlar, xəzərlər, Kiyev rusları, bizanslılar, qıpçaqlar və monqollar Krımı bir-birinin ardınca işğal ediblər.

Eramızın XIII əsrində genuyalı və venesiyalı tacirlər Krımda bir neçə sahilyanı ticarət şəhərləri və qəsəbələr saldırıblar.

Krımdakı Türk (tatar) varlığı əsasən 13-cü əsrdə tatar istilaları ilə əlaqələndirilsə də, ümumiyyətlə, bölgədə türk varlığının tarixi 3-4-cü əsrlərə gedib çıxır. Krımda Xəzər xaqanlığının hakimiyyəti 9-cu əsrin ikinci yarısında başa çatıb. Sonra da bölgəyə türk axını davam edib. 10-cu əsrdə peçeneqlər, 10-11-ci əsrlərdə qıpçaq kumanlarının axınları bölgənin etnik mənzərəsinin formalaşmasına ciddi təsir edib.

Qıpçaq türklərinin 11-ci əsrdə İslam dinini qəbul etməsi sonrakı əsrlərdə Krım ilə Anadolu arasında yüzillərlə davam edən güclü bir bağın qurulması ilə nəticələnib.

Yarımadada Qıpçaq hakimiyyəti 13-cü əsrin ortalarına qədər davam edib. Bu dövrdən başlayaraq bölgədə Çingiz xan nəslinin qurduğu başqa bir türk dövlətinin – Qızıl Ordanın əsası qoyulub.

14-cü əsrdə Qızıl Ordanın rəsmi olaraq İslam dinini qəbul etməsi ilə bölgədə tam 509 il yaşayan tatar hakimiyyəti qurulub.

### Krım qədim dövrlərdən günümüzədək

Yunan Krımı, e.ə. 7-6-cı əsrlər

Bospor Krallığı (Roma), e.ə. 428, e.ə. 527-ci illər

Xəzər imperiyası, 651-669...

Bizans Xersonu, 830–1204...




*Krım xanlığının ərazisi*

Trebizond imperiyası, 1204–1461...

Teodoro və Genuya Qazariya knyazlıqları, 1300–1475...

Osmanlıların təsiri altında 1478-1774...

Krım Xanlığı 1441–1783-cü illər...

Rusiya imperiyasının ilhaqı, 1783-cü ildə II Yekaterinanın zamanında Rusiya tərəfindən işğal edilib, 1783–1917...

Rusiyada vətəndaş müharibəsi, 1917–1922...

Krımın Rusiyadan Ukraynaya verilməsi, 1954...

Sovet hakimiyyəti, 1922–1991...

Müstəqil Ukrayna, 1991–2014...

Rusiyanın ilhaqı, 2014-cü ildən bu günədək

**Krım xanlığı və ya Krım yurdu.** XV əsrin birinci yarısında Qızıl Orda dövlətinin xanlıqlara parçalanması nəticəsində Qara dənizin şimalında, Krım yarımadasında yaranan və ən çox yaşayan xanlıqlardan biri...

İrtış və Tobol çayları arasında Sibir xanlığı, Volqanın orta axarlarında Qazan xanlığı, Xəzər dənizinin şimalında Həştərxan (Hacı-Tarxan) xanlığı və digər xanlıq və uluslar yaranmışdı.

Çingiz xanın oğlu Cuçinin kiçik oğlu Toka Teymur soyundan gələn Hacı I Gəray 1441-ci ildə Krımdakı Şirin qəbiləsinin dəstəyi ilə Krım xanlığının əsasını qoyur. Əslində xanlıq 1438-ci ildən formalaşmağa başlamışdı. Krımın ilk paytaxtı qədim Kırım-Solxat şəhəri, sonra isə Bağçasaray olub.

Məhz Hacı I Gəray 1441-ci ildə öz adına pul kəsdirdiyindən xanlığın əsası 1441-ci ildən sayılır.

Hacı I Gəray 1466-cı ildə öldükdən sonra oğlanları Mənqli Gəray ilə Nurdövlət Gəray arasında hakimiyyət uğrunda mübarizə başlayır, 1475-ci ildə Gədik Əhməd Paşanın rəhbərliyi ilə Osmanlılar Krım ərazisini ələ keçirir və qardaşlar arasında barışıq yaradılır, Mənqli Gəray xan elan olunur.

1502-ci ildən sonra Mənqli Gəray Qızıl Orda xanlığının torpaqlarına hücum edərək Qazan və Həştərxan xanlıqlarını ələ keçirir. Bu isə Moskva Knyazlığının narazılığına səbəb olur.

1502-ci ildə Krım xanı I Mənqli Gəray Qızıl Orda dövlətinə yürüş təşkil edir və Qırx Yer adlanan məkanın yaxınlığındakı Saracığı paytaxt elan edir. Sonra 1532-ci ildə I Sahib Gəray bu əraziyə yaxın olan Bağçasaray şəhərini paytaxt seçir.

1521-ci ildə Məhəmməd I Gərayın rusların ərazilərinə, o cümlədən Moskvaya hücumu uğurla nəticələnib, Moskva işğal olunub və ruslardan bac ödənilməsi tələb edilib və ruslar I Pyotrun dövrünə qədər Krım xanlığına bac ödəyiblər.

Krım xanları öz dövlətlərini Qızıl Orda və Dəşti Qıpçağın varisi hesab edərək özlərini "Böyük Orda, Böyük Dövlət və Krım Taxtı"nın xanları da adlandırıblar.

Rəsmi sənədlərdə və xarici hökmdarlarla yazışmalarda istifadə edilən Krım xanlarının tam adı xanlığın mövcud olduğu üç əsr ərzində sənəddən- sənədə bir qədər dəyişərək məktublarını belə başlayıblar: "Mübarək və ali cənabın, Böyük Ordanın böyük padşahının, Böyük Dövlətin, Krım Taxtının, bütün noqayların, dağ çərkəzlərinin, tavqaçların, qıpçaq çöllərinin və bütün tatarların lütfü və köməyi ilə".

### Krım xanlığının əraziləri

Xanlıq Krım yarımadasını və ona bitişik əraziləri əhatə edib ki, bu torpaqlara əsasən Ukraynanın cənubu – Dnepr çayı və Donetsk arasındakı ərazilər, yəni bugünkü Zaporojye vilayətinin əksər hissəsi, Xerson vilayətinin sol sahilindəki ərazilər və cənub-şərqi Dnepropetrovsk vilayətinin və qərbi Donetsk torpaqlarının bir hissəsi daxil idi.

Krım xanlığının nəzarətində olan ərazinin XV əsrdə Qızıl Ordanın süqutundan sonra Don boyunca yaşayan kazakların davamlı basqınları nəticəsində sərhədləri qismən dəyişib.

Türk xalqları Krıma VI əsrdə, Türk Xaqanlığı tərəfindən Krımın fəthi zamanı, qıpçaqlar isə XI əsrdə gəlib, XIII və XIV əsrlərdə Rusiyanın içərilərinə və Qıpçaq Çölünə irəliləyən tatar qəbilələri köçəri həyatlarını tərk edərək Krıma yerləşib. Krımda məskunlaşan tatarlar sonralar Qızıl Orda və Krım xanlığının dövlət quruculuğunda iştirak ediblər. XIII əsrin ortalarından əsasən türklərin yaşadığı Krımın şimal çöl torpaqları Qızıl Orda və ya Ulu Ulus kimi tanınan Cuçi Ulusunun ərazisinə çevrilib.

O dövrdə Krımın çoxmillətli əhalisi əsasən yarımadanın dağətəyi ərazilərində yaşayan qıpçaqlardan, Krım yunanlarından, qotlardan və alanlardan ibarət idi. Krım zadəganları əsasən həm qıpçaq, həm də Orda mənşəli idilər.

Krımın XIV əsrdə Litva Böyük Hersoqluğunun qoşunları tərəfindən dəfələrlə dağıdılması tarixi faktdır. Böyük Hersoq Olgerdin 1363-cü ildə Dnepr çayının mənsəbi yaxınlığında tatar ordusunu məğlub edir, Krım işğal olunur və yağmalanır. XV əsrin əvvəllərində Qızıl Ordanın bəzi tayfaları Daşti Qıpçaq – müasir Ukraynanın və Cənubi Rusiyanın qıpçaqlar yaşayan ərazilərində ömür sürənlər köçəri həyat tərzindən imtina edərək Krımı öz yurdları (vətənləri) etmək qərarına gələrək mübarizəyə başlayırlar.

### Krım xanlığı Osmanlı imperiyasının tərkibində

Krım xanlığı 1478-ci ildən Osmanlı dövlətinin təsiri və müttəfiqliyi altında olub, 1774-cü ildə Osmanlı-Rusiya müharibəsi nəticəsində imzalanan Kiçik Qaynarca müqaviləsinə qədər faktiki olaraq Krım Türkiyə ərazisi sayılıb.

Mənbələrdən məlum olduğu kimi, Osmanlı sultanları Krım xanlığına asılı dövlət kimi deyil, öz müttəfiqi kimi baxıb. Krım xanlarının xarici işlərdə müstəqil qərar vermək hüququ tanınıb. Xan öz adına pul kəsdirmək və xütbə oxutdurmaq hüququna malik olub. Əslində bu iki amil müstəqilliyin mühüm simvolu idi. Krım xanlığı Osmanlı imperiyasına vergi ödəməyib, bunun əvəzində isə müharibələrdə Osmanlı tatar süvarilərindən istifadə edib. Bununla belə 1524-cü ildə Mənqli Gərayın oğlu Mənli Gərayın dövründə münasibətlərdə böhran yaşandığından Gəraylar sülaləsinin Osmanlılarla əlaqələri pozulub və bundan sonra Krım xanlarının Sultan tərəfindən təyin edilməsinə başlanıb.

1551-ci ildə Krım xanı olan I Dövlət Gəray 1571-ci ilin may ayında Moskvanı mühasirəyə alır, çərkəzlər, noqaylar və qıpçaqlardan ibarət olan böyük ordu ilə rusları məğlub edir, Moskvanı yandırır. Bu yürüşdən sonra Dövlət Gəray növbəti il üçün bütün Rusiyanı əhatə edən böyükmiqyaslı işğal planı hazırlasa da 1572-ci ildə Moskvanın 60 km cənubunda ruslara məğlub olur.

1774-cü ildə Krım faktiki müstəqillik qazansa da, daxili müharibələr və rusların yaratdıqları münaqişələr nəticəsində zəifləyərək 1783-cü ildə Rusiya tərəfindən ilhaq edilir. Krım xanlığının Türkiyə dövrü 1478-1774 illəri əhatə edir. Bununla belə Rusiya imperiyasının Krımı ilhaq etməsi rəsmi olaraq 1783-cü ildən tanınır.

1577-ci ildə Dövlət Gərayın ölümündən sonra yenidən Krımda taxt-tac uğrunda mübarizə başlayır.1588-ci ildə taxtı Bora ləqəbli II Qazi Gəray ələ keçirir və 1591-ci ildə Moskvaya hücum edir, uğur qazanır və rusları yenidən bac ödəməyə məcbur edir.

II Qazi Gəray həmçinin Osmanlı-Avstriya döyüşlərində uğurlara imza atır, Macarıstan yürüşlərinə qatılır, 1607-ci ildə vəbadan ölməsi onun planlarını təxirə salır. 1676–1681-ci illərdə ruslarla aparılan müharibə nəticəsində Osmanlılar ruslarla görüşmə səlahiyyətini Krım xanlığına verir və bunun da nəticəsində Krım Xanı Murad Gəray ruslarla 20 illik sülh imzalayır.

II Vyana döyüşündə Murad Gərayın Krım ordusunun başında Osmanlılara uğursuz köməyi onun taxtdan salınmasına gətirib çıxarır, II Hacı Gəray taxta çıxır, onun hakimiyyəti qısa olur. 1684-cü ildə I Səlim Gəray Krım taxtında oturub, o, rusların Krıma hücumlarını, polyakların 1687–1688-ci illər yürüşlərini dəf edib, ümumiyyətlə I Səlim Gəray müxtəlif illərdə dörd dəfə Krım xanı olub, böyük uğur qazanıb, nüfuzlu və uğurlu hökmdar kimi tarixə düşüb.

1735–1739-cu illərdə Osmanlı-Rusiya müharibəsində ruslar Bağçasaraya qədər irəliləyib bölgəni qarət ediblər.

### 1768–1774-cü illər Osmanlı-Rusiya müharibəsi

6 il çəkən müharibədə Rusiya 1770-ci ildə Bessarabiyanı, 1771-ci ildə Krım yarımadasını işğal edib. Bu hücumlara III Səlim Gəray müqavimət göstərməyə çalışsa da rus orduları çox güclənmişdi. Yazıldığı kimi 1774-cü il iyulun 21-də imzalanan Kiçik Qaynarca müqaviləsi ilə Krım Osmanlının himayəsindən çıxarıldıqdan sonra, adı müstəqil olsa da əslində rusların müstəmləkəsinə çevrilir. Müqaviləyə görə ancaq dini işlər Osmanlı xəlifəsinin səlahiyyətində qalır.

1777-ci ildə rusların dəstəyi ilə Şahin Gəray taxta çıxarılır, Osmanlı tərəfdarı olan II Bahadır Gəray mübarizədə uduzur. Bu dövrdə ruslar Krıma çoxlu slavyan qaçqın yerləşdirmişdilər. 1779-cu ildə Rusiya ilə imzalanan Aynalıqovaq andlaşmasına görə ruslar Krım xanlarının sərbəst seçilməsi, rus əsgərlərinin Krımdan çəkilməsi, Osmanlı Dövlətinin Şahin Gərayı tanıması ilə bağlı maddələri qəbul etsə də, həmişə olduğu kimi müqaviləyə riayət etməyib, II Yekaterinanın əmri ilə 1783-cü ildə Krım tam işğal olunub. Bundan sonra xalq qiyam qaldırıb və Bahadır Gəray taxta çıxarılıb, Şahin Gəray ruslara sığınıb.

Rusiya 1785-ci ildə əlavə qüvvələrlə Krıma yenidən güclü hücum edib, Şahin Gəray rus ordusu ilə birlikdə Krıma qayıtsa da ruslar Şahin Gəraya inanmadıqlarını bəyan etdikdən sonra o, İstanbula sığınıb, sonra isə satqın kimi Rodosa sürgün olunub və orada edam edilib.

Osmanlılar Krımı işğal edən ruslara qarşı yeni döyüşə başlasalar da uduzurlar və 1792-ci ildə Yassı müqaviləsi ilə Krımın Rusiyaya birləşməsini qəbul etməyə məcbur olurlar.

### Krım xanlığının hökmdarları

**Hacı I Gəray Mələk**, Krım xanlığının və Gəraylar sülaləsinin əsasını qoyan birinci xan, iki dəfə xan olub, 1438–1456-cı illərdə Krım taxtında oturub, 1566-cı ilin avqust ayında vəfat edib.

**Nur Dövlət Gəray**, Hacı I Gərayın ikinci oğlu və varisi, qardaşı Mənqli I Gərayla taxt uğrunda mübarizə aparıb, ayrı-ayrı vaxtlarda üç dəfə-1466–1467, 1467–1469, 1475–1476-cı illərdə xan olub. Sonuncu hakimiyyəti dövründə Krım taxtından qovulduqdan sonra Moskva knyazının dəstəyilə Qasım xanı təyin edilib.

**Mənqli I Gəray**, Krım xanı Hacı I Gərayın altıncı oğlu, qardaşı Nur Dövlət Gərayı devirərək taxta çıxıb, fərqli vaxtlarda üç dəfə-1468–1474, 1475–1476, 1479–1514-cü illərdə taxtda oturub. Həm Osmanlı imperiyası, həm də Moskva knyazlığı ilə yaxın əlaqələri olub. Onu da demək lazımdır ki, Mənqli I Gərayın qızı, Krım-tatar şahzadəsi Ayşə Hafsa Osmanlı Sultanı Qanuni Süleymanın anası olub.

**Heydər Gəray**, Hacı I Gərayın oğlu, iki dəfə qısa müddətdə hakimiyyətdə olub, əvvəl atası, sonra isə qardaşı ilə taxt uğrunda mübarizə aparıb, 1456 və 1475-ci illərdə qısa müddətdə taxtda oturub, ölkədən qovulduqdan sonra Noskva knyazlığından bac alıb, 1523-cü ilin noyabr ayında Həştərxanda iki oğlu ilə birlikdə qətlə yetirilib, hakimiyyət illəri-1514 – 1523…

**Canıbəy Gəray,** Böyük Orda xanı Əhmədin qardaşı oğlu, 1478-1479...

**Məhəmməd I Gəray**, Mənqli I Gərayın səkkiz oğlundan ən böyüyü, atasının ölümündən sonra taxta çıxıb, qardaşı Topal Əhməd Gəraya qarşı taxt uğrunda mübarizə aparıb, Noskva knyazlığından bac alıb, 1523-cü ilin noyabr ayında Həştərxanda iki oğlu ilə birlikdə qətlə yetirilib, hakimiyyət illəri-1514 – 1523…

**Qazı I Gəray**, Məhəmməd I Gərayın oğlu, əmisi ilə taxt uğrunda mübarizədə 1524-cü ilin may ayında 21 yaşında qətlə yetirilib, 1523-1524…

**Səadət I Gəray**, Mənqli I Gərayın oğlu, uzun illər Osmanlı ordusunda xidmət edib və orada da evlənib, xanlığı könüllü olaraq təhvil verib, 1524-1532…

**İslam I Gəray**, Məhəmməd I Gərayın oğlu, əmiləri Səadət I Gəray və Sahib I Gəray-la taxt uğrunda mübarizə aparıb, may-oktyabr 1532, vəfatı 1537...

**Sahib I Gəray**, Mənqli I Gərayın kiçik oğlu, Məhəmməd I Gərayın kiçik qardaşı, 1532 – 1551… 1521 – 1524-cü illərdə isə Qazan xanı olub.

**Dövlət I Gəray Taxt Alan**, Gəray sülaləsindən, Mənqli I Gərayın nəvəsi, Osmanlı sultanı Qanuni Süleymanın ana tərəfdən yaxın qohumu, 1551 – 1577...

**Məhəmməd II Gəray**, Dövlət I Gəray Taxt Alanın oğlu və varisi, 1577 – 1584...

**İslam II Gəray**, Dövlət I Gəray Taxt Alanın oğlu, 1584 – 1588…

**Qazı II Gəray**, Dövlət I Gəray Taxt Alanın oğlu, iki dəfə hakimiyyətdə olub, 1588 – 1596, 1596-1608…

**Fateh I Gəray**, Dövlət I Gəray Taxt Alanın oğlu, 1596-1597-ci illərdə bir neçə ay hakimiyyətdə olub.

**Toxtamış Gəray**, Qazı II Gərayın oğlu, 1607-1608…

**Səlamət I Gəray**, Dövlət I Gəray Taxt Alanın oğlu,1608 – 1610…

**Canibəy Gəray**, Dövlət I Gəray Taxt Alanın nəvəsi, iki dəfə hakimiyyətdə olub, 1610-1623, 1627-1635…

**III Məhəmməd Gəray**, Səadət II Gərayın oğlu,1623 – 1627...

**İnayət Gəray**, Qazı II Gərayın oğlu, Dövlət I Gəray Taxt Alanın nəvəsi,1635-1636...

**Bahadır I Gəray** (Batır Gəray), Səlamət I Gərayın oğlu, 1636 – 1641…

**IV Mehmed Gəray**, Səlamət I Gərayın oğlu, iki dəfə taxtda oturub,1641-1644, 1654-1666...

**İslam III Gəray**, Səlamət I Gərayın oğlu, 1644-1654…

**Adil Gəray**, Fateh I Gərayın nəvəsi,1666-1671…

**Səlim I Gəray**, Bahadır I Gərayın oğlu, dörd dəfə ayrı-ayrı vaxtlarda hakimiyyətdə olub, 1671-1678, 1684-1669, 1692-1699, 1703-1704...

**Murad Gəray**, Səlamət I Gərayın nəvəsi, 1678-1683…

**Hacı II Gəray**, Səlamət I Gərayın nəvəsi, 1683-1684...

**Səadət III Gəray**, Səlamət I Gərayın nəvəsi,1691-1692...



*Mənqli I Gərayın qızı, Krım-tatar şahzadəsi Ayşə Hafsa, Sultan Süleymanın anası*

**Səfa Gəray**, Səlamət I Gərayın nəvəsi, 1691-1692…

**II Dövlət Gəray**, Səlim I Gərayın oğlu,iki dəfə taxtda oturub, 1699-1702, 1709-1713...

**III Qazı Gəray**, Səlim I Gərayın böyük oğlu, 1704-1707…

**Qaplan I Gəray**, Səlim I Gərayın oğlu, fərqli vaxtlarda üç dəfə taxtda oturub, 1707-1709, 1713-1716, 1730-1736...

**III Dövlət Gəray**, Qara Dövlət Gəray kimi də tanınır, Səlim I Gərayın nəvəsi, 1716-1717...

**IV Səadət Gəray**, Səlim I Gərayın oğlu, 1717-1724…

**Mənqli II Gəray**, Səlim I Gərayın oğlu, 1724-1730, 1737-1739…

**Feteh II Gəray**, II Dövlət Gərayın oğlu, 1736-1737...

**II Səlamət Gəray**, Səlim I Gərayın kiçik oğlu, 1739-1743...

**II Səlim Gəray**, Kaplan I Gərayın oğlu, 1743-1748…

**Arslan Gəray**, II Dövlət Gərayın oğlu, 1748-1756, 1767…

**Halim Gəray**, IV Səadət Gərayın oğlu, 1756-1758...

**Qrım Gəray**, II Dövlət Gərayın oğlu, 1758-1764, 1768-1769...

**III Səlim Gəray**, Feteh II Gərayın oğlu, 1764-1767, 1770-1771…

**Maqsud Gəray**, II Səlamət Gərayın oğlu, 1767-1768, 1771-1772...

**Dövlət IV Gəray**, Arslan Gərayın oğlu, 1769-1770, 1775-1777...

**II Kaplan Gəray**, II Səlim Gərayın oğlu, 1770…

**Sahib II Gəray**, II Dövlət Gərayın nəvəsi, 1772-1774...

**Şahin Gəray**, II Dövlət Gərayın nəvəsi, 1777-1782, 1782-1783...

**II Bahadır Gəray**, II Dövlət Gərayın nəvəsi, təqribən 1781, 1783-1785...

**Şahbaz Gəray**, Arslan Gərayın üçüncü oğlu, 1787-1789-cu illərdə Krım xanlığının taxt-tacına iddialı olub, Krım 1783-cü ildə Rusiya imperiyası tərəfindən ilhaq edildiyindən 1787-1789-cu illərdə ancaq Budjaka nəzarət edib.

**Baxt Gəray,** Qrım Gərayın böyük oğlu, sonuncu Krım xanı, 1789-1792-ci illərdə Budjakda xanlıq edib.

Krım xanlığını idarə edən 50 xandan 42-si Gəraylar sülaləsinin, səkkizi isə digər nəsillərin nümayəndəsi olub.

### Krım əhalisinin deportasiyası

İkinci Dünya müharibəsi zamanı Krım tatarlarının almanlarla guya əməkdaşlıq etməsi nəticəsində bütün Krım tatarları sovet rejimi tərəfindən Sibirə, Qazaxıstana, Qırğızıstana, Özbəkistana deportasiya edilib və yarımadaya başqa xalqlar, əsasən də ruslar, qismən də ukraynalılar köçürülüb. Deportasiya zamanı 8 minə yaxın Krım tatarı vəfat edib, on minlərlə insan isə ağır sürgün şəraiti səbəbindən sonralar həlak olub.

423 min nəfərdən çox olan Krım türkləri yük vaqonlarında gedər-gəlməzə göndərilib. Onların 57 min nəfəri 5 yaşa qədər olan uşaq, 68 mini 60 yaşdan yuxarı insanlar idi.

Bir gecənin içində Krım tatarlarının sürgün olunmasından sonra Arabat bölgəsində bir kənddə 150 türkün unudulduğu aydın olur. Xəbər Stalinə çatdırılanda əmr verir: "Onların işini 24 saat içərisində bitirin". Əmr yerinə yetirilir, qoca, qadın, uşaq demədən bütün kənd gəmiyə doldurulur, gəmi sahildən bir neçə mil aralandıqdan sonra batırılır, Qara dənizin sərt dalğaları Krım türklərinə məzar olur.

1954-cü il fevralın 19-dək Sovet İttifaqının tərkibində olan Krım vilayəti SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Ukrayna SSR-ə keçib.

2014-cü ildə isə Sevastopol və Krım əraziləri Rusiya tərəfindən növbəti dəfə işğal olunub, Rusiyanın işğalı dünya birliyi və Ukrayna dövləti tərəfindən tanınmayıb və tanınması da gözlənilmir.

*Qulu KƏNGƏRLİ*
*XQ-nin Türküstan müxbiri*
**Daşkənd**

# Milli valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin yeni metodologiya əsasında müəyyən edilməsi barədə məlumat

**“Əmanətlərin sığortalanması haqqında” Qanunun 8.1.20-ci maddəsi ilə nəzərdə tutulan prosesin səmərəliliyinin artırılması məqsədilə, Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırılmaqla Əmanətlərin Sığortalanması Fondu (ƏSF) tərəfindən qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin müəyyən edilməsinə dair Metodologiya təsdiq edilmişdir.**




Qeyd olunan Metodologiyanın məqsədi, qorunan əmanətlər üzrə faiz dərəcəsinin yuxarı həddinin bazarda formalaşan depozit faizləri üzrə real dinamika ilə uzlaşdırılmasını, eləcə də bu həddin şəffaf və ölçülə bilən meyarlar əsasında müəyyən olunmasını təmin etməkdən ibarətdir.

Metodologiyaya müvafiq olaraq aparılmış hesablamalara əsasən, 2025-ci ilin son altı ayı ərzində banklar tərəfindən fiziki şəxslərdən milli valyutada cəlb olunmuş uzunmüddətli əmanətlər (müddəti 9 aydan çox olan əmanətlər) üzrə orta bazar faiz dərəcəsi azalma dinamikası nümayiş etdirməklə 10% təşkil etmişdir.

Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının 28 yanvar 2026-cı il tarixli iclasında, sözügedən Metodologiyadan irəli gələrək üzərinə 2 faiz bəndi əlavə edilməklə, milli valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin dəyişdirilməyərək 12% səviyyəsində saxlanılmasına dair qərar qəbul edilmişdir.

Qeyd edək ki, adı çəkilən Metodologiya əsasında qorunan əmanətlər üzrə faiz dərəcəsinin yuxarı həddinə dair növbəti qərarların ildə iki dəfə olmaqla qəbul edilməsi, həmin qərarların Fondun rəsmi internet səhifəsində açıqlanması və bank əmanətçilərinin müvafiq qaydada məlumatlandırılması təmin ediləcəkdir. Məlumat üçün bildirilir ki, məsələ ilə bağlı növbəti qərarın 2026-cı ilin iyul ayında qəbul edilməsi nəzərdə tutulmuşdur.

Sığortalanmış əmanət, o cümlədən ƏSF-yə üzv olan banklarda milli və xarici valyutada olan qorunan əmanətlər üzrə hazırda qüvvədə olan illik faiz dərəcəsinin yuxarı hədləri barədə məlumat növbəti keçid vasitəsilə əldə oluna bilər: https://adif.gov.az/az/insured-deposit.

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

# Bakı Dövlət Universiteti

***aşağıdakı fakültə və kafedralarda boş olan vəzifələri tutmaq üçün***

## MÜSABİQƏ ELAN EDİR

**I. Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedra | Vəzifə | Yerlər |
|---|---|---|
| Riyazi kibernetika kafedrası | Kafedra müdiri | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Kafedra müdiri | 1 |

**II. Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedra | Vəzifə | Yerlər |
|---|---|---|
| Beynəlxalq münasibətlər kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>2*1<br>2*1 |
| Dünya iqtisadiyyatı kafedrası | Baş müəllim<br>Müəllim | 0,5<br>3*1 |
| İqtisadiyyat kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>3*1 |
| Maliyyə və menecment kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim<br>Müəllim | 1<br>1<br>2*1<br>2*0,5 |
| Politologiya və sosiologiya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim<br>Müəllim | 1<br>1<br>4*1<br>0,5 |
| Riyazi iqtisadiyyat kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>2*1<br>2*1 |
| Azərbaycan ədəbiyyatı tarixi kafedrası | Dosent | 0,5 |
| Dünya ədəbiyyatı kafedrası | Professor<br>Müəllim | 0,5<br>1 |
| İngilis dili (humanitar fakültələr üzrə) kafedrası | Dosent<br>Dosent<br>Müəllim | 2*1<br>0,5<br>4*1 |
| İngilis dili (təbiət fakültələri üzrə) kafedrası | Dosent<br>Müəllim<br>Müəllim | 1<br>1<br>0,5 |
| Rus dilçiliyi kafedrası | Dosent<br>Baş müəllim | 0,5<br>0,5 |
| Ümumi dilçilik kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>2 |
| Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası | Professor<br>Dosent<br>Baş müəllim | 0,5<br>1<br>1 |
| Multimedia və elektron kommunikasiya kafedrası | Dosent | 1 |
| Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrası | Baş müəllim | 1 |
| Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | Müəllim | 1 |
| Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Professor<br>Dosent<br>Müəllim | 0,5<br>1<br>2*1 |
| Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>0,5 |
| Qafqaz xalqları tarixi kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Türk xalqları tarixi kafedrası | Baş müəllim | 1 |
| Beynəlxalq ümumi hüquq kafedrası | Müəllim<br>Müəllim | 1<br>0,5 |
| Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası | Professor<br>Baş müəllim | 0,5<br>1 |
| Əmək və ekologiya hüququ kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2*1 |
| Mülki hüquq kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>0,5 |
| Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Cinayət hüququ və kriminologiya kafedrası | Professor<br>Dosent<br>Müəllim | 0,5<br>0,5<br>1 |
| Kriminalistika və məhkəmə ekspertizası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>0,5 |
| Mülki proses və kommersiya hüququ kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim<br>Müəllim | 0,5<br>1<br>2*1<br>0,5 |
| Konstitusiya hüququ kafedrası | Professor<br>Dosent<br>Müəllim | 0,5<br>1<br>2*1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1 |
| Sənəd menecmenti kafedrası | Baş müəllim | 0,5 |
| Redaksiya-nəşriyyat işi kafedrası | Müəllim | 1 |
| Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrası | Professor<br>Müəllim | 0,5<br>1 |
| Uzaq şərq dilləri və ədəbiyyatı kafedrası | Dosent<br>Müəllim<br>Müəllim | 1<br>1<br>0,5 |
| Fəlsəfə kafedrası | Müəllim | 1 |
| Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2*1 |
| Pedaqogika kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Psixologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>3*1 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Dosent<br>Müəllim | 1<br>3*1 |
| Sosiologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>3*1 |
| Sosial iş kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>3*1 |
| Gender və tətbiqi psixologiya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>2*1 |
| Süni intellekt etikası kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>1 |

**Qeyd-** Müsabiqədə iştirak etmək üçün sənədlər 2026-cı il fevralın 2-dən etibarən Azərbaycan Respublikasının Təhsil Nazirliyi Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları»na əsasən 1 ay müddətində, “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” 1996-cı il 7 avqust tarixli 401 saylı əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.

**Ünvan- AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiya Qərarı qəbul edilərək, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir:**

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

**№ 3-27/3-7-1/2026**

**Bakı şəhəri** **12 yanvar 2026-cı il**

**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 539 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 dekabr tarixli 762s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2026-cı il 12 yanvar tarixli 3-27/3-7-1/2026 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”nda edilmiş dəyişikliklər:**

1. Qaydanın adı aşağıdakı redaksiyada verilsin:

“Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin (dayanacaq məntəqələri istisna olmaqla) yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası”.

2. 1.1-ci bənd üzrə:

2.1. “avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin” sözləri “dayanacaq məntəqələri istisna olmaqla, avtomobil nəqliyyatının digər infrastruktur obyektlərinin” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Yeraltı keçidlərin, metro çıxışlarının və velosiped zolaqlarının yerləşdirilməsinə, o cümlədən təyinatının avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik) tərəfindən bu Qaydanın tələblərinə uyğun olaraq həyata keçirilir.”.

3. 1.3-cü bənddə “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik)” sözləri “Agentlik” sözü ilə əvəz edilsin və həmin bənddən “, Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə Bakı Nəqliyyat Agentliyi (bundan sonra - BNA)” sözləri çıxarılsın.

4. 3.1-ci və 3.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“3.1. Ərizə aidiyyəti üzrə Agentliyə və İdarəyə daxil olduqdan sonra qeydə alınır, baxılır, təqdim edilən sənədlərdə çatışmazlıqlar (bu Qaydanın 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla) və ya imtina üçün əsas olmadıqda, qeydə alındığı gündən başlayaraq 30 gündən gec olmayaraq rəy verilməsi haqqında qərar qəbul edilir.”;

“3.4. Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin yerləşdirilməsi, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəyin verilməsindən Agentlik və İdarə tərəfindən aşağıdakı hallar aşkar edildikdə imtina edilə bilər:”.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 19 (30988) 31 yanvar 2026-cı il, şənbə



# Kuba ABŞ-ın təhlükəsizliyinə doğrudanmı təhdid törədir?

**ABŞ Prezidenti Donald Tramp Kubadan qaynaqlanan "milli təhlükəsizlik təhdidi"ni əsas gətirərək ölkədə fövqəladə vəziyyət elan edib. Müvafiq fərman Ağ evin rəsmi saytında dərc olunub.**



Sənəddə bildirilir ki, Kuba hakimiyyətinin siyasəti və fəaliyyəti ABŞ-ın maraqlarına zərər vurmağa, eləcə də Birləşmiş Ştatları hədəf alan düşmən ölkələr və terror qruplaşmalarına dəstək göstərməyə yönəlib. Fərmanda vurğulanır ki, elan edilən fövqəladə vəziyyətin aradan qaldırılması məqsədilə tarif mexanizminin tətbiqi "zəruri və məqsədəuyğun" hesab olunur.

Bu hüquqi mexanizm Vaşinqtona Kubaya neft tədarük edən ölkələrin məhsullarına əlavə rüsumlar tətbiq etmək imkanı verir. Bundan əlavə, sənəddə qeyd olunur ki, Prezident Tramp tariflərlə bağlı qərarı yenidən nəzərdən keçirə və ya dəyişə bilər. Bunun üçün Kuba, eləcə də rüsumların təsirinə məruz qalmış digər dövlətlər ABŞ-ın xarici siyasət maraqlarına və milli təhlükəsizlik hədəflərinə uyğun mövqe sərgiləməlidirlər.

Hazırda ABŞ ərazisində 50-dən çox fövqəladə vəziyyət rejimi qüvvədədir. Bu fərmanların əhəmiyyətli hissəsi Kuba, İran, Rusiya, qeyri-qanuni miqrasiya və narkotik qaçaqmalçılığı ilə bağlıdır. Fövqəladə vəziyyət rejimi prezidentə normal şəraitdə həyata keçirilməsi mümkün olmayan geniş səlahiyyətlər verir.

Kuba isə, təbiidir ki, ABŞ-ın tətbiq etdiyi yanacaq tədarükünə qarşı yeni məhdudlaşdırıcı addımları kəskin şəkildə pisləyib. Ölkənin xarici işlər naziri Bruno Rodriges Parrilya bəyan edib ki, Vaşinqton bu siyasətlə Havanaya qarşı "ekstremal həyat şəraiti" formalaşdırmağa çalışır.

Nazir "X" sosial şəbəkəsindəki paylaşımında ABŞ-ın son addımlarını "eskalasiya" adlandıraraq, əslində Kubaya qarşı yanacaq tədarükünün tam blokadasının təklif edildiyini vurğulayıb. Onun sözlərinə görə, Vaşinqtonun digər ölkələri də bu blokadaya qoşulmağa məcbur etməsi açıq şantaj xarakteri daşıyır və Kuba yalan məlumatlar vasitəsilə regional və qlobal təhlükə kimi təqdim edilməyə çalışılır.

Donald Tramp tərəfindən imzalanmış fərman, həqiqətən də, Kubaya neft satan və ya tədarük edən ölkələrdən idxal olunan mallara rüsum tətbiqi imkanını nəzərdə tutur. "Politico"nun öz mənbələrinə istinadən yaydığı məlumata görə, ABŞ administrasiyası hakimiyyət dəyişikliyinə nail olmaq məqsədilə Kubaya neft idxalının tam blokadasını gündəmə gətirə bilər. "The Wall Street Journal" isə yazır ki, Vaşinqton bu ilin sonunadək Kubada hakimiyyətdə olan qüvvələr daxilində siyasi rejimin dəyişdirilməsinə yardım edə biləcək nüfuzlu fiqurlar axtarır.

Bu yanaşma ABŞ-ın Kubaya qarşı sanksiya siyasətinin yalnız iqtisadi deyil, eyni zamanda, açıq siyasi təzyiq və rejim transformasiyası strategiyasının tərkib hissəsi olduğunu göstərir.

ABŞ-ın Kubaya qarşı mövcud siyasəti Karib hövzəsi ölkələri, hətta Çin tərəfindən ciddi narahatlıq və narazılıqla qarşılanıb. Bir qədər əvvəl Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ninq bildirmişdi ki, Çin ABŞ-ı blokada və sanksiyalara son qoymağa, o cümlədən Kubaya qarşı bütün məcburiyyət formalarından imtina etməyə çağırır: "Çin bir daha ABŞ-ı blokadaya dərhal son qoymağa, sanksiyaları ləğv etməyə və Kubaya qarşı bütün məcburiyyət formalarını dayandırmağa, regional sülh və sabitliyi təşviq edən tədbirlər görməyə çağırır".

*Paşa ƏMİRCANOV*
*XQ*

## İDMAN

# "Qarabağ" pley-offda "Nyukasl"la qarşılaşacaq




**UEFA Çempionlar Liqasının pley-off mərhələsinin püşkatma mərasimi keçirilib. Mərasim UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil qərargahında baş tutub. Püşkatmanın nəticələrinə əsasən, pley-off-da aşağıdakı cütlər üz-üzə gələcək:**

– "Qarabağ" (Azərbaycan) – "Nyukasl" (İngiltərə), "Monako" (Fransa) – PSJ (Fransa), "Qalatasaray" (Türkiyə) – "Yuventus" (İtaliya), "Benfika" (Portuqaliya) – "Real" (İspaniya), "Budyo-Qlimt" (Norveç) – "İnter" (İtaliya), "Olimpiakos" (Yunanıstan) – "Bayer 04" (Almaniya), "Brügge" (Belçika) – "Atletiko" (İspaniya), "Borussiya" (Dortmund, Almaniya) – "Atalanta" (İtaliya).

Pley-off mərhələsinin oyunları fevralın 17-18-i və 24-25-də keçiriləcək.

Fevralın 27-də 1/8 final, 1/4 final və yarımfinal mərhələlərinin püşkü atılacaq. Martın 10-11 və 17-18-də 1/8 final, aprelin 7-8 və 14-15-də isə 1/4 final oyunları keçiriləcək.

Yarımfinal qarşılaşmaları aprelin 28-29-da və mayın 5-6-da baş tutacaq.

Final görüşü isə mayın 30-da Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək.

# Futbolun inkişaf perspektivləri



**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) inzibati binasında UEFA-nın Kütləvi Futbol üzrə mentoru Helen Kroftla görüş keçirilib. Görüşdə AFFA-nın baş katibinin müavini Elçin Məmmədov, qurumun müvafiq struktur bölmələrinin rəhbər və əməkdaşları iştirak ediblər.**

AFFA-dan verilən məlumata görə, söhbət zamanı UEFA nümayəndəsinə AFFA tərəfindən kütləvi futbolun təşviqi istiqamətində görülən işlər, məktəblər, klublar və regionlar üzrə icra olunan proqramlar barədə ətraflı məlumat verilib.

Helen Kroft Azərbaycanda kütləvi futbolun inkişafı istiqamətində atılan addımları müsbət qiymətləndirib, UEFA-nın bu sahədə təcrübəsi və tövsiyələri ilə bağlı fikirlərini bölüşüb. Eyni zamanda, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, uşaq və yeniyetmələrin futbola cəlb olunmasının artırılması, inklüziv futbol layihələrinin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşün sonunda qarşılıqlı əməkdaşlığın davam etdirilməsi və kütləvi futbolun davamlı inkişafı üçün birgə fəaliyyət imkanları müzakirə olunub.

# Misli Premyer Liqasında XVIII tur



**Dünən Misli Premyer Liqasının XVIII turuna iki oyunla start verilib. Yevlax şəhər stadionunda "Karvan-Yevlax" "Sumqayıt"ı qəbul edib. Qarşılaşma qonaqların qələbəsi ilə başa çatıb – 2:0.**

Bu qələbədən sonra 27 xala malik "Sumqayıt" turnir cədvəlinin 5-ci pilləsində qərarlaşıb. 6 xalı olan "Karvan-Yevlax" isə sonuncu – 12-cidir.

Günün son matçında "Qəbələ" evdə "İmişli" ilə üz-üzə gəlib. Qəbələ şəhər stadionunda keçirilən qarşılaşma 3:2 hesabı ilə başa çatıb. "İmişli" 18 xalla 9-cu, "Qəbələ" 14 xalla 10-cu sıradadır.

Turun digər görüşlərində yanvarın 31-də Yevlax şəhər stadionunda "Kəpəz" – "Şamaxı"nı, Zirə İdman Kompleksinin stadionunda "Zirə" – "Sabah"ı qəbul edəcək, fevralın 1-də isə "Liv Bona Dea Arena"da "Araz - Naxçıvan" – "Neftçi", "Azersun Arena"da "Qarabağ" – "Turan Tovuz" qarşılaşmaları keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Yeni ilin ilk "Ulduzu"u



**Ədəbi gənclik jurnalı "Ulduz"un yeni ildə ilk sayı "Ədəbiyyat qəzeti" və Təhsil Nəşriyyatı Poliqrafiya" MMC ilə birgə layihə olan "Birinci Türkoloji Qurultayına həsr olunub.**

Jurnal Azər Turanın "Birinci Türkoloji Qurultay – film kimi bir hadisə" yazısı ilə açılır. Dərgidə "Birinci Türkoloji Qurultay" nümayəndələri haqqında ətraflı məlumat verilir. Əli bəy Hüseynzadənin Birinci Türkoloji Qurultayda yazdığı qeydlər yüz ilin o üzündən günümüzə körpü salır.

Elnarə Akimovanın "Yüz ilin ədəbiyyat yolçuları" yazısı Türk dünyasının birliyi uğrunda qüdsal yola çıxan insanların fədakarlığından söz açır. "Ulduz"un bu sayında Aqil Abbasın "Rəmiş" povesti də oxuculara təqdim olunur. "Dərgidə kitab"da Kamil Şahverdinin "Bir daha himnimiz haqqında" (3-cü yazı) araşdırması yer alır.

*XQ*

# Güləşçilərimiz növbəti təlim-məşq toplanışında

**Yunan-Roma güləşi üzrə millimiz Göygöldə növbəti təlim-məşq toplanışına başlayıb.**

Hazırlıq prosesi fevralın 8-dək davam edəcək. Göygöl Olimpiya İdman Kompleksində təşkil edilən toplanışda baş məşqçi Məhəmməd Bəna, böyük məşqçi Nurəddin Rəcəbov, məşqçilər Rövşən Bayramov, Bəhruz Həzrətipur, Rəsul Cazini və Sabah Şəriətinin rəhbərliyi altında 37 güləşçi iştirak edir.



Həm fiziki, həm də taktiki-texniki çalışmaların yer alacağı təlim-məşq prosesi qarşıdakı nüfuzlu yarışlara, o cümlədən fevralın 25-dən martın 1-dək Albaniyanın paytaxtı Tiranada keçiriləcək reytinq turnirinə hazırlıq xarakteri daşıyır.

*Qabil YUSİFOĞLU*
*XQ*


# "Suraxanı Avtomotoservis" ASC səhmdarlarının nəzərinə!

17 mart 2026-cı il saat 12.00-da cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

1. ASC-nin idarə heyətinin ləğv edilməsi.
2. ASC -nin direktorlar şurasının ləğv edilməsi.
3. ASC-nin nizamnamənin dəyişdirilməsi və yeni redaksiyasının təqdim edilməsi.
4. Baş direktorun təyin edilməsi.
5. 2025-ci ilin yekununa aid baş direktorun hesabatı.
6. 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının yekunları üzrə təftiş komissiyası sədrinin hesabatı.
7. 2025-ci ilin illik balans hesabatının təsdiq olunması, balans mənfəətinin bölüşdürülməsi.
8. Digər cari məsələlər.
9. Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan: Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, E.Bəkirov küçəsi 4041-ci məhəllə.

***Rəhbərlik***


## HAVA

# Aranda yağmursuz, dağlıq ərazilərdə yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-qərb küləyi arabir güclənəcək.**



Havanın temperaturu gecə 3-6, gündüz 12-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 0-5, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 10-15 dərəcə isti olacaq.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və Administrasiyanın əməkdaşları Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və kollektivi Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2902
SİFARİŞ 155
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00